# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

# TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

*Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası*

*Series of humanitarian, social, pedagogical and psychological sciences*

**2025, C. 73, № 1**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası**
**Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,*** **2025, C.73, №1**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. Y.M.Babayev, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, f.e.d., prof. İ.M.Bayramov, p.ü.e.d., prof. V.T.Qurbanov, p.ü.e.d., prof. M.M.Əmirov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., prof. Ş.Q.Əliyeva, , p.ü.e.d., dos. N.T.Hüseynova, p.ü.f.d., dos. H.A.Cəfərov
F.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. Y.M.Babayev, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. I.M.Bayramov, Prof. Dr. V.T.Gurbanov, Prof. Dr. M.M.Amirov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Dr. N.T.Huseynova, Ass. prof. Phd H.A.Jafarov
Phd N.G.Aslanova ***(executive secretary)***

***©ADPU, 2025***
***©ASPU, 2025***

# MÜNDƏRİCAT

## Humanitar elmlər

*Abdullazadə N.Ə.*
SƏMƏD VURĞUN YARADICILIĞI ORTA MƏKTƏB ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ ........ 9
*Ağazadə M.Ç.*
"GÖZƏLLİK" KONSEPTİNİN FRANSIZ REKLAM MƏTNLƏRİNİN MATERİALLARI ƏSASINDA LİNQVİSTİK İFADƏ XÜSUSİYYƏTLƏRİ ......... 20
*Bünyatova A.B.*
XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ NEYROLİNQVİSTİK FAKTORLAR ......... 27
*Əhmədova V.H.*
XARİCİ DİL DƏRSLƏRİNDƏ İQLİM DƏYİŞİKLİYİNƏ DAİR MÖVZULARIN TƏDRİSİ, MƏQSƏDİ VƏ ƏHƏMİYYƏTİ ........ 35
*Hacıyeva G.H.*
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ MAHNILARDAN İSTİFADƏ ........ 40
*Məmmədova Ş.N.*
HÜSEYN ARİF VƏ XALQ ƏDƏBİYYATI ........ 47
*Şeydayeva A.B.*
TÜRKİYƏ POEZİYASINDA ƏNƏNƏ VƏ NOVATORLUQ PROBLEMİ (1920-1960-cı illər) ........ 55

## İctimai elmlər

*Qəniyeva Z.M.*
XVIII ƏSR AZƏRBAYCAN QADINLARININ CƏMİYYƏTDƏKİ YERİ ........ 66
*Məmmədov N.R.*
QUBADLIDA ERMƏNİ SEPARATİZMİ: SOYQIRIMI VƏ REPRESSİYALARA QARŞI XALQ ÜSYANLARI (1920-ci illər)........ 75
*Məmmədova A.M.*
DÖVLƏTLƏRİN SU RESURSLARI UĞRUNDA MÜBARİZƏSİ İNSAN TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ ........ 88
*Məmmədova S.Z.*
AZƏRBAYCAN QADINLARININ SOSİALLAŞMASI VƏ CƏMİYYƏTDƏ ROLU (XX ƏSRİN İLK RÜBÜNDƏ) ........ 100
*Teymurova A.A.*
QAFQAZ ALBANİYASINDA MEMARLIQ ........ 108

## Pedaqoji-psixoloji elmlər

*Kərimli T.A.*
GƏNCLƏRİN SOSİAL FƏALLIĞININ FORMALAŞMASINDA TƏLƏBƏ TƏŞKİLATLARININ ROLU ........ 120
*Məmmədbəyli Ş.A.*
TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: TƏHSİL SİSTEMİ VƏ MÜƏLLİMLƏRİN İDARƏETMƏDƏ ROLU ........ 129

***Rzayeva F.İ.***
ŞAGİRDLƏRİN MUSİQİ TƏRBİYƏSİ KONTEKSTİNDƏ FƏNLƏRARASI SİNTEZ PROSESİ ........................................................................................... 138

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Абдуллазаде Н.А.***
ТВОРЧЕСТВО САМЕДА ВУРГУНА В УЧЕБНИКАХ ЛИТЕРАТУРЫ СРЕДНЕЙ ШКОЛЫ ........ 9
***Агазаде М.Ч.***
ОСОБЕННОСТИ ЯЗЫКОВОЙ РЕПРЕЗЕНТАЦИИ КОНЦЕПТА «КРАСОТА» НА МАТЕРИАЛЕ ФРАНЦУЗСКИХ РЕКЛАМНЫХ ТЕКСТОВ ........ 20
***Бунятова А.Б.***
НЕЙРОЛИНГВИСТИЧЕСКИЕ ФАКТОРЫ В ИЗУЧЕНИИ ИНОСТРАННОГО ЯЗЫКА ........ 27
***Ахмедова В.Г.***
ПРЕПОДАВАНИЕ, ЦЕЛЬ И ЗНАЧИМОСТЬ ТЕМ, СВЯЗАННЫХ С ИЗМЕНЕНИЕМ КЛИМАТА НА УРОКАХ ИНОСТРАННЫХ ЯЗЫКОВ ........ 35
***Гаджиева Гю.Г.***
ИСПОЛЬЗОВАНИЕ ПЕСЕН В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ ........ 40
***Мамедова Ш.Н.***
ГУСЕЙН АРИФ И НАРОДНАЯ ЛИТЕРАТУРА ........ 47
***Шейдаева А.Б.***
ПРОБЛЕМА ТРАДИЦИИ И НОВАТОРСТВА В ТУРЕЦКОЙ ПОЭЗИИ (1920-1960) ........ 55

## *Общественные науки*

***Ганиева З.М.***
СОЦИАЛЬНО-ПРАВОВОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНСКИХ ЖЕНЩИН В XVIII ВЕКЕ. ........ 66
***Мамедов Н.Р.***
АРМЯНСКИЙ СЕПАРАТИЗМ В ГУБАДЛЫ: НАРОДНЫЕ ВОССТАНИЯ ПРОТИВ ГЕНОЦИДА И РЕПРЕССИЙ (1920-е гг.) ........ 75
***Мамедова А.М.***
БОРЬБА ГОСУДАРСТВ ЗА ВОДНЫЕ РЕСУРСЫ В КОНТЕКСТЕ БЕЗОПАСНОСТИ ЧЕЛОВЕКА ........ 88
***Маммадова С.З.***
СОЦИАЛИЗАЦИЯ АЗЕРБАЙДЖАНСКИХ ЖЕНЩИН И ИХ РОЛЬ В ОБЩЕСТВЕ (ПЕРВОЙ ЧЕТВЕРТИ XX ВЕКА) ........ 100
***Теймурова А.А.***
АРХИТЕКТУРА В КАВКАЗСКОЙ АЛБАНИИ ........ 108

## *Педагогико-психологические науки*

***Керимли Т.А.***
РОЛЬ СТУДЕНЧЕСКИХ ОРГАНИЗАЦИЙ В ФОРМИРОВАНИИ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ МОЛОДЕЖИ ........ 120
***Мамедбейли Ш.А.***
ОЦЕНКА КАЧЕСТВА УПРАВЛЕНИЯ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ: ОБРАЗОВАТЕЛЬНАЯ СИСТЕМА И РОЛЬ УЧИТЕЛЕЙ В УПРАВЛЕНИИ ........ 129

***Рзаева Ф.И.***
ПРОЦЕСС МЕЖДИСЦИПЛИНАРНОГО СИНТЕЗА В КОНТЕКСТЕ
МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ СТУДЕНТОВ ........................................... 138

# TABLE OF CONTENTS

## Humanitarian sciences

***Abdullazade N.A.***
SAMAD VURGUN'S CREATIVITY IN SECONDARY SCHOOL LITERATURE TEXTBOOKS ........ 9
***Aghazade M.Ch.***
FEATURES OF THE LINGUISTIC REPRESENTATION OF THE CONCEPT OF "BEAUTY" BASED ON FRENCH ADVERTISING TEXTS ........ 20
***Bunyatova A.B.***
NEUROLINGUISTIC FACTORS IN LEARNING A FOREIGN LANGUAGE 27
***Ahmadova V.H.***
TEACHING, PURPOSE AND IMPORTANCE OF CLIMATE CHANGE TOPICS IN FOREIGN LANGUAGE LESSONS ........ 35
***Hajiyeva G.H.***
THE USE OF SONGS IN TEACHING FOREIGN LANGUAGES ........ 40
***Mammadova Sh.N.***
HUSEYN ARIF AND FOLK LITERATURE ........ 47
***Sheydayeva A.B.***
THE PROBLEM OF TRADITION AND INNOVATION IN TURKISH POETRY (1920-1960) ........ 55

## Social sciences

***Ganiyeva Z.M.***
SOCIAL AND LEGAL STATUS OF AZERBAIJAN WOMEN IN THE 18th CENTURY ........ 66
***Mammedov N.R.***
ARMENIAN SEPARATISM IN GUBADLI: POPULAR UPRISINGS AGAINST GENOCIDE AND REPRESSION (1920s) ........ 75
***Mammadova A.M.***
THE STRUGGLE OF STATES FOR WATER RESOURCES IN THE CONTEXT OF HUMAN SECURITY ........ 88
***Mammadova S.Z.***
SOCIALIZATION OF AZERBAIJANI WOMEN AND THEIR ROLE IN SOCIETY (IN THE FIRST QUARTER OF THE 20th CENTURY) ........ 100
***Teymurova A.A.***
ARCHITECTURE IN CAUCASIAN ALBANIA ........ 108

## Pedagogical-psychological sciences

***Karimli T.A.***
THE ROLE OF STUDENT ORGANIZATIONS IN SHAPING YOUTH SOCIAL ACTIVITY ........ 120
***Mammadbayli Sh.A.***
EVALUATION OF MANAGEMENT QUALITY IN EDUCATIONAL INSTITUTIONS: EDUCATION SYSTEM AND TEACHER'S ROLE IN MANAGEMENT ........ 129

***Rzayeva F.I.***
PROCESS OF INTERDISCIPLINARY SYUNTHESIS IN THE CONTEXT OF MUSICAL EDUCATION OF STUDENTS ................................................................ 138

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2025, C.73, №1, s. 9-19
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2025, V.73, №1, pp. 9-19

# Humanitar elmlər

*UOT 372.8:82*

***N.Ə.Abdullazadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*nazile.s.m.d@mail.ru*

## SƏMƏD VURĞUN YARADICILIĞI ORTA MƏKTƏB ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ

https://doi.org/10.30546/170899876.72.01.2025.0010

*Azərbaycan xalqının milli-ictimai düşüncə, əxlaq və mənəviyyat, bədii təfəkkür və intellekt ənənəsi XX yüzilin ortalarında öz təkrarsız əksini bu bədii-tarixi fenomendə – Səməd Vurğun poeziyasında tapır. Qanadlı və romantik bir vətəndaşlıq amalına, bədii-estetik və fəlsəfi ideala xidmətdə miqyaslı qlobal meyarlar və hüdudlar onu yalnız böyük sələfləri ilə yox, həm də böyük müasirləri ilə müqayisə edəndə görünür.*

***Yaşar Qarayev***

***Açar sözlər:*** *ədəbiyyat, tədris, dərslik, Səməd Vurğun, şeir, poema, azərbaycançılıq*

Azərbaycan ədəbiyyatı tarixində “Azərbaycan”, “azərbaycançılıq” ideyalarının poetik tərənnümçüsü, “sovet epoxası”nın sayılan-seçilən şairlərindən olan Səməd Vurğun rəngarəng və çoxşaxəli yaradıcılığa malik bir sənətkar olmuşdur. Əsrin birinci yarısında yaşayıb-yaradan şairin mühiti və dövrü ictimai-siyasi keşməkeşlərlə, ədəbi ziddiyyətlərlə dolu bir dövr olmuşdur.

Şairin əsərləri hələ sağlığında dərsliklərə də yol almış, şeirləri, poemaları, dram əsərləri tədris materialı kimi ümumtəhsil məktəblərinin ədəbiyyat fənn proqramlarına və dərs kitablarına daxil edilmişdir. Bu əsərlər sovet dövründə yazılmasına baxmayaraq, xalqın milli-mənəvi dəyərlərini, düşüncə tərzini, bədii təfəkkürünü, adət-ənənələrini, başlıcası, Vətən sevgisini aydın, şirin, oynaq bir dillə çatdıran nəğmə kimi bu gün də bədii-estetik dəyərini qoruyub saxlayır.

***Н.А.Абдуллазаде***

## ТВОРЧЕСТВО САМЕДА ВУРГУНА В УЧЕБНИКАХ ЛИТЕРАТУРЫ СРЕДНЕЙ ШКОЛЫ

***Ключевые слова:*** *литература, преподавание, учебник, Самед Вургун, поэзия, поэма, азербайджанство*

Поэтический выразитель идей «Азербайджана» и «азербайджанства» в истории азербайджанской литературы Самед Вургун один из самых выдающихся поэтов «советской эпохи», был мастером с красочным и многогранным творчеством. Окружение и эпоха, в которой жил и творил поэт в первой половине века, были периодом, полным общественно-политических потрясений и литературных противоречий.

Произведения поэта вошли в учебники еще при его жизни, а его стихотворения, поэмы и драмы были включены в программы по литературе и учебники общеобразовательных школ в качестве учебного материала. Несмотря на то, что эти произведения были написаны в советское время, они и сегодня хранят свою художественную и эстетическую ценность как песни, передающие ясным, ласковым и игривым языком национальные и духовные ценности народа, его образ мышления, художественное мышление, обычаи и традиции, а главное – любовь к Родине.

***N.A.Abdullazade***

**SAMAD VURGUN'S CREATIVITY IN SECONDARY SCHOOL LITERATURE TEXTBOOKS**

***Keywords:*** *literature, teaching, textbook, Samad Vurgun, poetry, poem, azerbaijaniness*

The poetic exponent of the ideas of "Azerbaijan" and "Azerbaijaniness" in the history of Azerbaijani literature, Samad Vurgun, one of the most outstanding poets of the "Soviet era", was a master with colorful and multifaceted creativity. The environment and era in which the poet lived and worked in the first half of the century were a period full of socio-political upheavals and literary contradictions. The poet's works were included in textbooks during his lifetime, and his poems, poems and dramas were included in literature programs and textbooks of comprehensive schools as educational material. Despite the fact that these works were written in Soviet times, they still retain their artistic and aesthetic value as songs that convey in a clear, gentle and playful language the national and spiritual values of the people, their way of thinking, artistic thinking, customs and traditions, and most importantly - love for the Motherland.

## Giriş

XX əsrin əvvəlləri “sovet ədəbiyyatının mövqeyi möhkəmləndikcə Azərbaycanın demokratik sənətkarları sıxışdırılır, ya sürgün edilir, həbs olunur, işgəncələrə məruz qalır, ya da mühacirətə gedirlər. ...Müasir Azərbaycan ədəbiyyatının sənətkarlıq baxımından ən qüdrətli əsərləri, heç şübhəsiz, sovet həyat tərzinin gözəlliyinə həsr olunsa da, “sovet ədəbiyyatı” adı altında kifayət qədər çox antiədəbiyyat, “boz əsərlər” də yaranmışdır. Sonuncuların əksəriyyəti 30-cu, 50-ci illərə aiddir ki, həmin illərdə yazıçıdan sovet hakimiyyətinə daha çox şəxsi sədaqət, açıq siyasi platforma tələb

edilirdi. Bununla belə, qeyd etmək lazımdır ki, məhz 20-30-cu illərdən başlayaraq Azərbaycan, azərbaycançılıq ideyaları da güclü bir şəkildə təbliğ olunurdu" [12, s.8].

Bu mənada "möhtəşəm" sovet ədəbiyyatının bir qolunun – Azərbaycan sovet ədəbiyyatının və sovet dövrünün poeziya yaradıcıları sırasında Səməd Vurğunun adı elə-belə çəkilmir. Vətənpərvərlik, xalqlar dostluğu, beynəlmiləlçilik, "kommunist" ideologiyasına sədaqət və ehtiram şairin əsərlərinin ana xəttini təşkil edirdi və bu bizə onun yaradıcılığının gizli nöqtələrini anlamağa, ruhunu duymağa, mənəvi-milli saflığını və vətənpərvərliyini təqdim etməyə mane olmur. Təsadüfi deyil ki, azərbaycançılıq ideologiyasının formalaşmasında müstəsna xidmətləri olan Ümummilli Lider Heydər Əliyev Səməd Vurğunun yaradıcılığına yüksək qiymət verirdi. Onun əzəmət və qürur dolu səslə əzbər dediyi misralar yalnız özünü deyil, bu gün də o ifanı dinləyən hər kəsi kövrəldir:

*El bilir ki, sən mənisən,*
*Yurdum, yuvam, məskənimsəm.*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan?*
*Azərbaycan! Azərbaycan!*

Akad. Nizami Cəfərov yazır: "...Ümummilli Lider dəfələrlə göstərmişdir ki, milli mənəvi-ideoloji irsin, tarixi təfəkkürün, ictimai-fəlsəfi yaddaşın bir fenomeni də Səməd Vurğun yaradıcılığıdır. Bu yalnız bədii yaradıcılıq və ya ədəbi-estetik hadisə deyil, bütöv bir dünyagörüşü, milli ideologiya və ya fəlsəfənin tarixi təzahürüdür ki, bir xalqın (millət) "kommunizmin tərənnümçüsüdür" deyib üzərindən keçmək qəbahət olardı [10, s.52]. Həqiqətən də, zaman və tarix nə hökmlər verir versin, "Azərbaycan" deyəndə ilk xatırlanan "El bilir ki, sən mənimsən", "Ayrılarmı könül candan" misraları olur.

**Əsas hissə**

S.Vurğun yaradıcılığı mövzu baxımından o qədər rəngarəng və çoxçeşidlidir ki, burada dünyanın hər bucağından, hər irqdən insanlara, dünyada baş verən ictimai-siyasi hadisələrə, keçmişə və gələcəyə, olum və ölümə rast gəlinir. Lakin nədən yazır-yazsın, hər sətrin altında şairin "vətən" ritmli döyünən ürəyini, Azərbaycan adlı məmləkəti və xalqın varlığını duyursan.

S.Vurğun yaradıcılığı məzmununa görə zəngin idi; zəmanəsinin elə mövzusu yox idi ki, şair ona toxunmasın, tarix, beynəlxalq aləm, müasir dövr, əmək və əməkçi insan, keçmiş, gələcək onun əsərlərində sadə, axıcı və oynaq bir dildə danışır. Sovet şairi partiyanı, sovet cəmiyyətini də vəsf edirdi və bu, normal yanaşma idi. Bəlkə buna görədir ki, əsərləri hələ sağlığında dərsliklərə də yol almış, şeirləri, poemaları, dram əsərləri tədris materialı kimi

ümumtəhsil məktəblərinin ədəbiyyat fənn proqramlarına və dərs kitablarına daxil edilmişdir. Bu əsərlər sovet dövründə yazılmasına baxmayaraq, xalqın milli-mənəvi dəyərlərini, düşüncə tərzini, bədii təfəkkürünü, adət-ənənələrini, başlıcası, Vətən sevgisini aydın, şirin, oynaq bir dillə çatdıran nəğmə kimi bu gün də bədii-estetik dəyərini qoruyub saxlayır.

1930-cu illərdə müxtəlif siniflər üçün ədəbiyyat dərslikləri nəşr olunub istifadəyə verilir. 5-ci sinif ədəbiyyatdan "Gənc zərbəçi" iş kitabı (1932, H.Əfəndiyev, Kazımzadə, S.Rəhman) Xalq Maarifi Tədris metod sektoru tərəfindən təsdiq edilir. Dərslik, adından göründüyü kimi, o dövrdə fəaliyyət göstərən əmək məktəbləri üçün nəzərdə tutulduğundan orada verilən ədəbi nümunələr də proletar ruhlu, proletar məzmunlu idi. Dərsliyin "Azərbaycan proletar və proletar-kolxoz ədəbiyyatı şura yazıçıları" adlanan bölməsində S.Vurğunun "Fatma xala" oçerki yer alır.

Bu illərdə S.Vurğunun həyatı və yaradıcılığı da icmal mövzu olaraq dərsliklərdə əksini tapmış, ədəbiyyat nəzəriyyəsi üzrə biliklərin öyrədilməsində şeirləri bədii nümunələr kimi seçilmişdir. Hələ sağlığında, 1930-40-cı illər V, VII sinifdə şairin həyatı və yaradıcılıq xüsusiyyətləri "Səməd Vurğun Vəkilov" başlığı altında [3, s.22-23; 4, s.57-67; 26, 90-93] öyrədilir. 1940-cı il natamam və orta məktəblər üçün ədəbiyyat proqramına şairin həyatı mövzu olaraq daxil edilir.

"Yuxarı tipli kombinatlar" (əmək məktəbləri üçün) üçün H.Heydər, İ.Qaryağdı və F.Qasımzadənin birgə müəllifliyi ilə "Ədəbiyyatdan iş kitabı" müqəddimə və 10 bölmədən ibarət idi. Müqəddimədə MK-nın ibtidai və orta məktəblər haqqında 5 sentyabr tarixli qərarına əsasən yeddiillik məktəblərin 5-6 və 7-ci qrupları (sinifləri) üçün tərtib edilmiş proqramda nəzərdə tutulan ədəbi materialların müasir proletar inqilabı, rus ədəbiyyatı və inqilabdan əvvəlki Azərbaycan mülkədar, burjua və xırda burjua şairlərin əsərlərindən götürüldüyü qeyd edilir. Müqəddimədən sonra dərslikdə Leninin (proletariatın rəhbəri) 1905-ci ildə yazdığı və "Новая жизнь" ("Yeni həyat") qəzetinin 13 noyabr 12-ci sayında nəşr olunmuş "Firqəçi təşkilat və firqəçi ədəbiyyat" məqaləsi verilirdi. İstər müqəddimədə, istərsə də məqalədə verilənlər müəyyən mənada öz təsdiqini dərsliyin bölmələrində və bədii nümunələrdə tapır; kolxoz, neft buruqları, sovet insanının əməyini və s. tərənnüm edən əsərlərdən təlim materialları içərisində S.Vurğunun da şeirləri, [bax: 19, s.3] yer alır. VII sinif üçün Ədəbiyyat müntəxəbatında isə şairin "Komsomol" poemasından "Təslim", "Kənddə teatr" və "Qanlı çadır" hissələri verilir [27, s.163-168].

1937-ci ildən ədəbiyyatın tədrisində dönüş dövrü başlayır. Proqramlar, dərs kitabları, metodik ədəbiyyatlar yenilənir. Azərbaycan ədəbiyyatının tarixi keçmişi, söz sənətkarları özünə qaytarılır. Yuxarı siniflər üçün "Ədəbiyyat" dərslikləri yaranır. 1945-ci ildə Azərbaycan ədəbiyyatı tarixinin

söykəndiyi mənbə də bu dərsliklər olur. N.Gəncəvi, M.Füzuli, İ.Nəsimi, M.P.Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, C.Cabbarlı kimi sənətkarlar sırasında S.Vurğunun da yaradıcılığı dərsliklərə yol alır.

"Böyük Vətən müharibəsi illərində Stalinin "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı Azərbaycan şair və yazıçılarını da yeni əsərlər yazmağa ruhlandırır. Müharibə ədəbiyyata yeni mövzular gətirir və dərinləşdirir. Bu dövrdə Azərbaycan ədəbiyyatının tədrisi ciddi problemlərlə qarşılaşır. Sovet insanının cəbhədə qəhrəmanlığı, beynəlmiləlçilik, xalqlar dostluğu, vətənpərvərlik kimi məsələlər ədəbiyyat dərslərində sınaq, nümunə dərslərinə çevrilir. Ədəbiyyat kitablarına rəşadət, qəhrəmanlıq təbliğ edən əsərlər salınır, düşmən üzərində qələbə sovet insanının igidliyi, mətinliyi, yorulmazlığı üzərində əsaslandırılırdı" [1, s.63]. 1944-cü ildə "Kommunist" qəzetində S.Vurğunun "Balalarımız üçün gözəl əsərlər yaradaq" məqaləsinin məzmunu da bu istiqamətə – ədəbiyyatın tədrisinin yaxşılaşdırılmasına hədəflənmişdi. Ədəbi nümunələr Böyük Vətən müharibəsində Azərbaycan xalqının iştirakını və sovet adamlarının obrazını, vəzifələrinin həyata keçirilməsi uğrunda mübarizəsini əks etdirirdi. S.Vurğun da şair dostları kimi, bu illərdə silaha (qələmə) sarılır; vətənpərvərlik, qardaşlıq, mərdlik, sədaqət ruhunda, müxtəlif millətlərdən olan xalqların birliyi ruhunda şeirləri ilə sovet ədəbiyyatının öndərlərindən olur. Lakin şairin müharibə və qələbəyə inam mövzusunda "Ananın öyüdü", "Şəfqət bacısı" şeirləri deyil, "Stalin", "Səadət nəğməsi" şeirləri oxu materialı kimi dərsliklərdə verilir.

Müharibədən sonrakı quruculuq illərində mətbuatda bir çox sənətkarların, ilk növbədə S.Vurğun, S.Rüstəm, R.Rza və S.Rəhmanın ədəbiyyat və incəsənət haqqında partiyanın tarixi göstərişlərindən lazımi nəticə çıxarmadıqları, öz yaradıcılıq işlərini bu göstərişlərə uyğun surətdə yenidən qurmadıqları və müasir mövzularda az-çox əhəmiyyətli əsərlər yaratmadıqları fikri irəli sürülür [18, s.1]. Sosialist realizmi nəyi yox, necə yazmağı da diqtə edirdi. Bu illərdə S.Vurğun 1944-45-ci illərdə yazdığı "Şair, nə tez qocaldın sən?" şeirini uzun müddət üzə çıxara bilməmiş, bir neçə ildən sonra "Bilirəm ki, deməyəcək, bir sevgilim, bir də Vətən", – Şair, nə tez qocaldın sən?" misralarını əlavə etməklə özünü təhlükədən qoruya bilmişdi.

1949-cu ildə ədəbiyyat kitablarında şairin bir neçə əsəri tədris materialı kimi verilir; V siniflər üçün "Ədəbi qiraət" dərsliyində şagirdlər "Azərbaycan" (qısaldılmış şəkildə), "Ananın öyüdü", "Rəhbərə salam", "Qafqaz" və "Bakı" ("Bakının dastanı"ndan) şeirləri ilə tanış olurlar [3, s.23-28].

VI sinif üçün "Ədəbi qiraət" dərsliyi (III nəşr) Sovet İttifaqının himni ilə başlayırdı. Dərsliyin ilk səhifələrində Lenin və Stalinin şəkilləri, şəkillərin altında isə S.Rüstəmin inqilab rəhbərinə (Leninə) həsr olunmuş "Günəş" və S.Vurğunun "Zəfər bayramı" (Stalinə həsr etdiyi) şeirləri verilir. Hər iki

şeirdə rus istila rəhbərləri, kommunizm ideoloqlarının bəşəriyyətə günəş kimi işıq verdiyi, birlik, sədaqət gətirdikləri tərənnüm edilir. Lenin isimli insanın şimaldan dünyaya günəş kimi doğduğu, 1941-45-ci illər Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbə Stalinin zəfəri kimi təriflənir, hər iki "rəhbərə" xalqın sonsuz məhəbbəti və pərəstişi ifadə olunurdu. Dövrün digər ədəbi qüvvələri (R.Rza, M.Rahim, Ə.Cəmil, M.Hüseyn və b.) kimi, S.Vurğun da "zəmanəsinin" şərtlərinə cavab verir, bu şərtlər kontekstində milli ruhundan, mənəvi bağından, səmimiyyətindən ayrıla bilmirdi. Bəlkə də o illərdə qatı millətçi kimi ittiham olunan S.Vurğunun 37-ci ilin tufanından salamat çıxa bilməyi də elə bu "mədhiyyəçilik", içindəkini gizlədib hadisələrdən daha ayıq baş çıxara bilmək bacarığında idi.

1950-ci illərdə sovet ədəbiyyatı artıq çoxmillətli bir xalqın ədəbiyyatı idi. Sovet yazıçılarının II Ümumittifaq qurultayının qətnaməsində deyilirdi: "Sovet yazıçıları sosializm quruculuğunun pafosunu, sovet xalqının Böyük Vətən müharibəsi illərindəki unudulmaz vətənpərvər qəhrəmanlığını, müharibədən sonra təsərrüfatın bərpa edilməsi uğrundakı mübarizədə göstərdiyi əmək qəhrəmanlığını, bütün dünyada sülh uğrunda apardığı mübarizəni doğru əks etdirən bədii əsərlər yaratmışlar" [18, s.292]. 1951-ci il proqramında X sinifdə SSRİ xalqları ədəbiyyatı adı altında ancaq sovet ədəbiyyatının keçilməsi nəzərdə tutulurdu. Yenə də icmal mövzulara çox vaxt ayrılması, nəzəri materialların çoxluğu, bədii təhlilə ötəri yanaşma başlıca nöqsan olaraq qalırdı. Bunlar 1953-cü ildən sonrakı proqram və dərsliklərdə yavaş-yavaş aradan qaldırıldı. Bu illərdə ədəbiyyatın mübahisəli problemlərini həll etməklə S.Vurğun, M.İbrahimov, M.Hüseyn, M.Arif məşğul olurdular.

Bu illər dərsliklərində proletariatın rəhbəri Lenin, kommunizmin ideoloqu Stalinə pərəstiş yenə də aparıcı mövqedə idi. Dərsliyin ilk səhifələrində S.Rüstəmin Leninə həsr etdiyi "Günəş", S.Vurğunun "Stalin" şeiri ilə şagirdlər "iki böyük insanla" tanış olur, onlara dinc quruluş, azad səhər, xoşbəxt gələcək vəd edən "rəhbərlər"i yaxından tanıyırlar. Tədris materialı kimi S.Vurğunun "Şairin ölümü" (Vaqifə həsr olunmuş), "Böyük şairin şərəfinə", "Zəfər bayramı", "Rəhbərə salam", "Mingəçevir qəhrəmanları", "Bakı" və "Ziyafət" şeirləri [bax: 22, s.46-51; 21] azsavadlılar üçün qiraət kitabında isə "Tarla nəğməsi" və "Azərbaycan" şeirləri verilir [25, s.4, 10] verilir. "Rəhbərə salam" şeirində şair doğma şəhəri Bakını, onun çadrasız qızlarını, günəşli gündüzünü, aylı axşamlarını vəsf edir, hər kəlməsi ilə vətənin tərənnümünü göz önündə canlandırır. Bakının qəhrəmanlıq tarixindən söz açan şair onu ana vətənə şöhrət, qoca Şərqə yol göstərən günəşə bənzədir:

*Bakının sayrışan ulduzlarından,*
*Çadrasız, boyasız şən qızlarından,*

*Uçan durnaların xoş avazından,*
*Bizim aşıqların simli sazından,*
*Şərqin qapısında yanan bir şamdan,*
*Günəşli gündüzdən, aylı axşamdan,*
*Azad sənətimdən, azad dilimdən,*
*Mənə könül verən öz sevgilimdən*
*Salam gətirmişəm hüzuruna mən!*

Bəlkə də doğma Bakını, xalqının saz-söz sənətini, “azad” dilini vəsf etdiyindəndir ki, sonrakı illər nəşrlərində şairin “Bakı” şeiri dərslikdən çıxarılır.

1965-ci ildə C.Hacıyev və M.A.Dadaşzadənin birgə müəllifliyi ilə orta məktəbin X-XI sinifləri üçün “Sovet ədəbiyyatı” dərsliyi (XII nəşri) istifadəyə verilir. Adında olduğu kimi, məzmunca da sovet ruhu, ab-havası ilə zəngin dərslikdə Azərbaycan ədəbiyyatı sovet ədəbiyyatının bir hissəsi olaraq təqdim edilir. “Sosializm cəmiyyətinin qurulması dövrü” bölməsində S.Vurğunun həyat və yaradıcılığına təlim materialı kimi bir neçə saat ayrılır, “Zamanın bayraqdarı”, “Zəncinin arzuları” poemaları və “Vaqif” dramından parçalar verilirdi. Sovet epoxasının tanınmış şairinin ən yaxşı lirik şeirlərinin belə “partiyalılığı, yüksək ideyalılığı” ilə fərqləndiyi öyrədilirdi. “Zamanın bayraqdarı” poemasında sosialist inqilabından sonra ölkəmizdə insanın azad olduğu və zamanın bayraqdarı Kommunist Partiyasının bütün bəşəriyyətə azadlıq yolu göstərdiyi azərbaycanlı balalara qürurla aşılanırdı. Şairin dövrünə görə “siyasi cəhətdən dolğun, şeiriyyət cəhətdən qüvvətli əsərlərindən” sayılan “Partiyamızdır” şeiri uzun illər dərsliklərdə yer almış, pafosla əzbərlənmişdir:

*Bəşərin vicdanı, eşqi, ürəyi,*
*Zehni, düşüncəsi, fikri, diləyi,*
*Böyük Yer üzünün xoş gələcəyi*
*Hər zövqü səfası partiyamızdır.*

1967-ci ildə 7-ci sinif üçün (H.Əfəndiyev, 19-cu nəşr) tərtib edilən “Ədəbiyyat” dərslik-müntəxəbatda Azərbaycan sovet ədəbiyyatının nümayəndəsi kimi tədris olunan şairin “26-lar” poeması da sovet ideologiyasının məfkurəsinə uyğun seçilmişdi. Sovetlərin qələbəsi uğrunda canlarından keçən Bakı komissarları, sosialist cəmiyyətinin uğurlarını gözü götürməyən düşmənlərin ifşası mövzuları şagirdlərdə Azərbaycan sovet ədəbiyyatının ideya istiqamətini formalaşdırmaq məqsədi daşısa da, şairin mürəkkəb tarixi mərhələdə hadisələrə ayıq baxmaq, zəmanəsinin vətəndaşı kimi ictimai məsuliyyətini dərk etmək borcu kimi qiymətləndirilməlidir.

Sovet təhsil sistemində ibtidai təhsil üçillik idi, IV sinifdən artıq şagirdlər ədəbiyyat, tarix və digər fənləri keçirdilər. Sovet ədəbiyyatının “şanlı şairi”nin əsərləri “Sosialist Vətənimiz”, “Sovet ədəbiyyatı”

bölmələrində oxu materialı kimi yer alır. 8-9-cu siniflər istisna olmaqla, bütün siniflərdə S.Vurğunun “sosialist vətəni”, xalqlar dostluğu, beynəlmiləlçiliyi tərənnüm edən şeirləri ilə yanaşı, azərbaycançılığı, xalqın tarixi keçmişini, mənəvi dəyərləri aşılayan və ideologiyadan deyil, qəlbindən, içindən gələn hisslərin tərcümanı olan əsərləri də yer alır. “Azərbaycan”, “Ceyran”, “Ayın əfsanəsi”, “Ananın öyüdü”, “Dağlar” kimi təbiətin gözəllikləri, vətən, vətənpərvərlik, qəhrəmanlıq, tarixi mövzuda şeirlərlə yanaşı, “formaca milli”, məzmunca sosialist ədəbiyyatının prinsiplərinə uyğun olaraq, quruculuq işlərinə, sülhə, azadlığa, xalqlar dostluğuna həsr olunan “Oktyabr”, “Qızıl şahinlər”, “Moskva”, “Yeni şəhər” kimi şeirlər də daxil edilir [bax: 24; 7]. 1960-1970-ci illər dərsliklərində S.Vurğunun “Partiyamızdır” (“Zamanın bayraqdarı” poemasından) şeiri ilə S.Rüstəmin “Mərkəzi Komitə” şeiri aparıcı mövzulardan olur. Şeirdə Kommunist Partiyasının güclü olması, onun xalq kütlələri ilə möhkəm polad zəncirlə bağlı olması, xalq mənafeyinə xidmət etməsi tərənnüm olunur.

1980-ci illər Azərbaycanda təhsil sistemi sovet təhsilinin ən güclü və tənzimlənmiş sistemlərindən biri sayılırdı. Bu illərdə təhsilin əsas məqsədi sosializm ideologiyasını yaymaq, siyasi baxımdan uyğun və elmi biliklərə malik vətəndaşlar yetişdirmək idi. 80-ci illərdə dərslik müəllifləri şairin təkcə lirik şeirlərinə deyil, lirik-epik, dramatik əsərlərinə də müraciət edərək “Azərbaycan”, “Moskva”, “Pioner marşı”, “Dağlar” şeirləri və “Vaqif” dramını tədris materialı kimi dərsliklərə daxil edirlər. 1937-ci ildə qələmə aldığı, onu yetişdirən, kökləyən və mənən qidalandıran Molla Pənah Vaqifə həsr etdiyi “Vaqif” dramı ilə XVIII əsrdən sovet rejiminə gətirdiyi şairi Vurğun nə qədər müasirləşdirdisə, “Vaqif də Səməd Vurğunu o qədər tarixiləşdirdi” (N.Cəfərov). Hələ yazıldığı dövrdə böyük ictimai-siyasi xadim M.Rəsulzadə əsərlə bağlı demişdi: “Vaqif” XVIII yüzillikdə yaşamış məşhur Azərbaycan şairi Molla Pənah Vaqifin həyat və əsərlərindən ilham almaqla yazılmışdır... Azərbaycan vətənpərvərliyinə rəvac verən bu pyes çağdaş Azərbaycan səhnəsinin ən uğurlu əsəri sayılır”.

S.Vurğunun “Azərbaycan” şeiri və “Vaqif” pyesi uzun illər dərsliklərdə yer almışdır. Akad. N.Cəfərov yazır: “Səməd Vurğunun Vaqifə xüsusi önəm verməsi bir tərəfdən onun ruhundan doğulması ilə bağlı idisə, digər tərəfdən, ədəbi-estetik ideallarını təsdiq etməsilə əlaqədar idi. ...Onun poetik üslubu kifayət qədər mötəbər köklərə malikdir ki, bunun da birincisi Vaqifin yaradıcılığıdır” [11, s.19]. B.Vahabzadəyə görə, “S.Vurğun ...yalnız müasir mövzuda deyil, tarixi mövzuda yazdığı əsərlərində də həmişə müasir olmuş, tarixi mövzuları da zamanın tələbləri baxımından işləmiş, bunlara bu günün (öz dövrünün – N.A.) gözü ilə baxmağı bacarmışdır. “Vaqif” pyesi və pyesdə yaradılan İbrahim xan, Qacar, Eldar və s. obrazlar şairin sovet partiyasının

tələbləri baxımından yaratdığı, lakin dərin qatlarda kökünü-soyunu, əslini unutmayan obrazlar idi.

Şairin lirik şeirləri ilə yanaşı, “Bəsti”, “Muğan”, “Zəncinin arzuları”, “Aygün”, “26-lar” poemaları da müxtəlif illərdə [bax: 23; 17; 5; 6] sovet dövrü dərsliklərində yer almışdır. 1940-cı illərin sonunda S.Vurğun mədəniyyət xadimləri nümayəndə heyətinin tərkibində bir sıra ölkələrdə beynəlxalq konfranslarda olmuş, kapitalizm dünyasının ziddiyyətlərinin şahidi olmuşdur. Kongreslərdən birində bir zəncinin çıxışını dinləyən şair insanın vətənsiz, dilsiz bir heç olduğundan təsirlənmiş və “Zəncinin arzuları” poemasını qələmə almışdır. Kürsüyə sinə gərmiş, vətəndə vətənsiz qalmış qara zəncinin susqun görkəmi, çatılmış qara qaşları şairə “dilsiz bir vüqarı” xatırladır, onun “qəm dastanı varaq-varaq açıldıqca”, əslindən-kökündən danışdıqca üzü günəş kimi parlayır. Poema 80-ci illərə qədər sovet dövrü dərsliklərində tədris materialı kimi verilmişdir.

Nəğmələr şəklində yazdığı “Muğan” poemasında şair susuz səhralara həyat gəldiyini alqışlayır, ana təbiətin gülzara dönməsi qəlbini dağa döndərir. Dərslikdə deyilir: “Üç min il bundan əvvəl keçmişimizlə bu günümüzü birləşdirən, ulu babalarımızdan bizə miras qalan Vətən eşqidir. Şair babalarımızla həm fəxr edir, həm də “*yazıq babalar!*” – deyə onların dözdükləri məhrumiyyətlərə acıyır. Ona görə fəxr edir ki, Vətənimizi zülmət boğanda (qara qüvvələr ona yürüş edəndə) babalarımız “*at sürüb, ox atıb, qılınc çalardılar”.* Şair babalarımıza ona görə yazıqlar olsun deyir ki, onlar geniş düzənlərə səpələnərək onun quraqlığına, istisinə, sükutuna da dözmüşlər, sellər-sular daşıb səhranı ağzına götürəndə onun faciəsinə də sinə gərmişlər. Şair ona görə fəxr edir ki, analarımız igid olmuşlar, at oynadan şahlara Kür kənarında divan tutmuşlar. Lakin “yazıq” deyib kədərlənir ona görə ki, təbiətin kor qüvvəsi qarşısında aciz olan analarımız dəli Kürün götürüb apardığı Muğan qızına ağı deyib ağlamışlar; bu nakam gözəllərin nişanlısı özlərini azğın sellərə atmışlar.

Şairin nəzərində babalarımızın nəcib qanı indiki gəncliyimizin qanında axır, babalarımızın bütün məhrumiyyəti uzaq keçmişdə qalmışdır, babalarımızın arzusu zəmanəmizdə gül açmışdır. Bizi daha nurlu sabah gözləyir” [5, s.130]. Təbii, şairi susuz səhraların yerində şəhərlər salınması sevindirdiyi kimi, oxucunu da şairin əsərlərinin dilinin xəlqiliyi, oxunaqlığı, təsirliliyi cəlb edir. Şagirdlər S.Vurğunun dilində ana dilinin şirinliyinin, zənginliyinin, ifadəliliyinin bir daha şahidi olurlar.

Əsərlərinin dil və üslub xüsusiyyətlərinə görə S.Vurğunun əsərlərinə rus məktəblərinin Azərbaycan dili dərsliklərinin müəllifləri də müraciət etmiş, IX sinifdə “Səadət nəğməsi” və “Stalin” şeirlərini [16, s.110-114], X sinifdə “Muğan”, “Zəncinin arzuları” poemalarından parçalar “Moskva” [2, s.18-19, s.19-20, s.21-24], şeirlərini oxu materialı kimi vermişlər.

**Nəticə**

Yeni nəsil dərsliklər və ədəbiyyat fənn proqramına şairin "Azərbaycan" (V sinif), "Mən tələsmirəm", "Körpünün həsrəti" (IX sinif), "Vaqif" dramı və həyatı, yaradıcılığı (XI sinif) daxil edilmişdir. Bu əsərlər dərsliklərdə daha çox humanizm, millətsevərlik, vətənə məhəbbət, həmçinin ictimai və mənəvi dəyərləri əks etdirən mövzularla əlaqələndirilir. Əsərlərin təhlili, şairin həyatı və yaradıcılıq yolu, onun dövrünə və ideyalarına dair müzakirələr interaktiv şəkildə təqdim edilir.

Bütün bunlar bir daha Səməd Vurğun yaradıcılığının illər keçsə də bütün dövrlər üçün aktuallığını deməyə əsas verir. Bu gün düşünmədən böyük şairin poetik dünyasını, poeziyasının ruhunu və xəlqiliyini duymadan milli kimliyin, mənəvi zövqün və azərbaycançılığın formalaşmasında xidmətlərini danmaq ədəbiyyat tarixinin sovet dövrü mərhələsinə kölgə salmaq deməkdir. TARİX və ZAMAN artıq öz möhürünü Səməd Vurğuna vurmuş, onun qiymətini vermişdir. Şair özü demişkən:

*Günəşi örtsə də qara buludlar,*
*Yenə Günəş adlı bir qüdrəti var.*

**ƏDƏBİYYAT**


1. *Abdullazadə N.* Azərbaycan ədəbiyyatının tədrisi tarixi. Bakı: Müəllim, 2024, 342 s.
2. *Axundov A.* Azərbaycan dili: qiraət və qrammatika materialları. Rus məktəbinin X sinfi üçün. Bakı, 1964, 293 s.
3. *Araslı H.* Ədəbi qiraət: yeddiillik və orta məktəbin V sinfi üçün. Bakı: Azərnəşr, 1948, 204 s.
4. *Arif M.* Ədəbiyyat müntəxəbatı: orta məktəbin 10-cu sinfi üçün. Bakı: Azərnəşr. 1939, 518 s.
5. *Arif M., Xəlilov P.* Ədəbiyyat: 10-cu sinif üçün. Bakı: Maarif. 1977, 255 s.
6. *Arif M.* Ədəbiyyat: natamam və orta məktəbin 7-ci sinfi üçün. Bakı,1984, 240 s.
7. *Babayev A., Əhmədov C.* Ədəbiyyat (oxu kitabı): 6-cı sinif. Bakı: Maarif, 1977, 263 s.
8. *Babayev A., Nəbiyev B.* Ədəbiyyat (oxu kitabı): 5-ci sinif. Bakı: Maarif. 1977, 307 s.
9. *Bağırov B.* Orta məktəbdə Səməd Vurğunun həyat və yaradıcılığının tədrisi. Bakı: Maarif, 1970, 123 s.
10. Biblioqrafiya. Səməd Vurğun / tərtib edən: M.Vəliyeva və b. Bakı: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası, 2016, 584 s.
11. *Cəfərov, N.* Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004, 272 s.

12. *Cəfərov, N.* Böyük şairin biblioqrafiyasına ön söz / Biblioqrafiya. Səməd Vurğun. Tərtib edən: M.Vəliyeva və b. Bakı: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası. 2016, 584 s.
13. Ədəbi qiraət kitabı: Natamam və orta məktəbin 7-ci sinfi üçün. Bakı: Azərnəşr, 1944, 293 s.
14. Ədəbiyyat qəzeti, 1948, 28 avqust, № 24 (530), s.1
15. Ədəbiyyat: 6-cı sinif üçün dərslik-müntəxəbat / tərtib edən: İ.Babayev. Bakı: Maarif, 1972, 139 s.
16. Ədəbiyyat xrestomatiyası: Azərbaycan dilində olmayan məktəblərin IX sinfi üçün. Bakı: 1937, 293 s.
17. *Əfəndiyev H., Əliyeva Z.* Ədəbiyyat: oxu kitabı. Bakı: Maarif, 1973, 303 s.
18. *Əliyeva, N.* Sovet dövrü Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013, 292 s.
19. *Heydər H., Qaryagin İ., Qasımzadə F.* Ədəbiyyatdan iş kitabı: yuxarı tipli kombinatlar üçün. Bakı, 1932, 185 s.
20. *Hüseynova, S.* Orta məktəbdə Səməd Vurğunun tədrisi: Metodik vəsait. Bakı: ADPU, 2002, 95 s.
21. *Musayev, Q.* Ədəbiyyat: yeddiillik və orta məktəbin 5-ci sinfi üçün. Bakı: Azərnəşr, 1951, 291 s.
22. *Rzaquluzadə, M.* Ədəbi qiraət: yeddiillik və orta məktəbin 6-cı sinfi üçün. Bakı: Azərnəşr. 1951, 403 s.
23. *Rzaquluzadə M.* Ədəbi qiraət: yeddiillik və orta məktəbin 6-cı sinfi üçün. Bakı: Azərnəşr, 1954, 180 s.
24. *Rzaquluzadə M., Mikayılov Ş.* Ədəbiyyat (oxu kitabı): 4-cü sinif üçün. Bakı: Maarif, 1979, 269 s.
25. *Səfiyev S.* Ana dili: azsavadlılar üçün qiraət kitabı. Bakı, 1958, 258 s.
26. *Səmədzadə H., Əfəndiyev H.* Ədəbiyyat kitabı: natamam və orta məktəbin 7-ci sinfi üçün. Bakı: Azərnəşr. 1939, 199 s.
27. *Sultanlı, Ə.* Ədəbiyyat müntəxəbatı: orta məktəbin 7-ci sinfi üçün. Bakı, 1936, 293 s.

Redaksiyaya daxil olub 04.03.2025

***УДК 81***

***М.Ч.Агазаде***
*Азербайджанский университет языков*
*maleyka91@gmail.com*

# ОСОБЕННОСТИ ЯЗЫКОВОЙ РЕПРЕЗЕНТАЦИИ КОНЦЕПТА «КРАСОТА» НА МАТЕРИАЛЕ ФРАНЦУЗСКИХ РЕКЛАМНЫХ ТЕКСТОВ

https://doi.org/10.30546/170899876.72.01.2025.0012

***Ключевые слова****: рекламные тексты, концепт, красота, индивидуальность, лингвистика*

Данная статья исследует использование концепта красоты во французской рекламе парфюмерно-косметической продукции. Автор обращает внимание на лингвистические способы представления этого концепта в рекламных текстах и его связь с элегантностью и индивидуальностью. Анализ показывает, что концепт «красота» в рекламе часто связан с идеалами и стандартами красоты. Для создания образа идеальной красоты активно используются метафоры. При этом рекламные тексты обращаются к уникальности потребителей, утверждая, что каждый заслуживает лучшего. Концепт красоты в рекламе часто переплетается с понятием здоровья, подчеркивая, что продукт помогает достичь не только красоты, но и здоровья. Язык в рекламе играет важную роль в привлечении потребителей и создании образа идеальной красоты.

***M.Ç.Ağazadə***

# "GÖZƏLLİK" KONSEPTİNİN FRANSIZ REKLAM MƏTNLƏRİNİN MATERİALLARI ƏSASINDA LİNQVİSTİK İFADƏ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *reklam mətnləri, konsept, gözəllik, fərdilik, dilçilik*

Məqalədə fransız parfümeriya və kosmetika məhsullarının reklam mətnlərində "gözəllik" konseptinin istifadəsi araşdırılır. Müəllif bu anlayışı reklam mətnlərində təqdim etməyin linqvistik yollarına, onun zəriflik və fərdiliklə bağlılığına diqqət çəkir. Təhlil göstərir ki, reklamda "gözəllik" anlayışı çox vaxt gözəllik idealları və standartları ilə əlaqələndirilir. İdeal gözəllik obrazını yaratmaq üçün metaforalardan fəal şəkildə istifadə olunur. Eyni zamanda, reklam mətnləri hər kəsin ən yaxşısına layiq olduğunu iddia edərək, istehlakçıların unikallığına müraciət edir. Reklamda gözəllik anlayışı çox vaxt sağlamlıq anlayışı ilə qarışır, məhsulun təkcə gözəlliyə deyil, həm də sağlamlığa nail olmağa kömək etdiyini vurğulayır. Reklamda dil istehlakçıları cəlb etmək və ideal gözəllik obrazının yaradılmasında mühüm rol oynayır.

**M.Ch.Aghazade**

**FEATURES OF THE LINGUISTIC REPRESENTATION OF THE CONCEPT OF "BEAUTY" BASED ON FRENCH ADVERTISING TEXTS**

***Keywords:*** *advertising texts, concept, beauty, individuality, linguistics*

This article examines the use of the concept of beauty in French advertising of perfumes and cosmetics. The author draws attention to the linguistic ways of presenting this concept in advertising texts and its connection with elegance and individuality. The analysis shows that the concept of "beauty" in advertising is often associated with ideals and standards of beauty. Metaphors are actively used to create an image of ideal beauty. At the same time, advertising texts appeal to the uniqueness of consumers, claiming that everyone deserves the best. The concept of beauty in advertising is often intertwined with the concept of health, emphasizing that the product helps to achieve not only beauty, but also health. Language in advertising plays an important role in attracting consumers and creating an image of ideal beauty.

**Введение**

Красота является одним из наиболее популярных концептов в рекламе. Она может быть использована для продвижения различных товаров и услуг, от косметики до автомобилей. Красота – это часто используемый и эффективный способ привлечения внимания потребителей и создания имиджа бренда. Красота, как концепт, занимает центральное место в мире рекламы, играя ключевую роль в продвижении различных товаров и услуг, начиная от косметики и заканчивая автомобилями. В данной статье мы рассмотрим, как используется концепт красоты в рекламе и какими лингвистическими способами он может быть представлен во французских рекламных текстах.

**Термин «концепт».** В современной лингвистике есть несколько определений термина «концепт».

Так, например, согласно определению С.Г.Воркачева, концепт, как правило, соотносится более чем с одной лексической единицей, и логическим завершением подобного подхода является его соотнесение с планом выражения всей совокупности разнородных синонимических (собственно лексических, фразеологических и афористических) средств, описывающих его в языке, т.е. в конечном итоге концепт соотносим с планом выражения лексико-семантической парадигмы [1, с.67].

Ю.С.Степанов считает, что концепт существует в ментальном мире человека не в виде четких понятий, а как «пучок» представлений, понятий, знаний, ассоциаций, переживаний, сопровождающих слово. По

его утверждению, вся культура понимается как своего рода комплекс концептов и связей между ними. [3, с.51]

Лингвистический подход в вопросе природы концепта представлен также В.Н.Телия, которая понимает концепт как весь потенциал значения слова вместе с его коннотативным элементом [4, с.96].

Тем не менее, все лингвисты сходятся во мнении, что концепт – это мысленное образование, замещающее нам в процессе мысли неопределенное множество предметов одного и того же рода. Различные лингвистические определения термина "концепт" подчеркивают его сложность и многогранность. Концепт несет в себе не только лексическое значение, но и ассоциации.

Концепт «красота» является одним из базовых концептов. Он наиболее широко представлен в рекламных текстах парфюмерно-косметической продукции. Этот концепт используется для того, чтобы обеспечить потенциального покупателя уверенностью в том, что использование продукта приведет к улучшению его внешнего вида. В рекламах Vichy и Yves Saint Laurent, "красота" выражается через образность, метафоры и чувство прекрасного.

**Задачи рекламы**

Реклама всегда была одним из самых эффективных каналов социологической пропаганды. Она умышленно игнорирует непривлекательные стороны жизни и стремится создавать идеализированные образы жизни. В основе ее – идея благополучия, благоустроенный быт, счастливая семья. При сравнении образов жизни человек может самостоятельно сделать вывод о преимуществах того или иного социального строя и ориентироваться на его ценности [2, с.8].

Задача рекламы – привлечь внимание к рекламируемому товару. Эффективность рекламы достигается способом воздействия. Процесс приобщения потребителя к товарам начинается с получения первичной информации о продукте [2, с.67-68].

Разработка рекламного сообщения требует наличия как можно более полной информации о том, что представляет собой товар как в действительности, так и в восприятии потенциальных потребителей. Реклама используется для того, чтобы иллюстрировать только положительные свойства товара [2, с.71].

Язык в рекламе играет важную роль, поскольку его целью является привлечь потребителя и мотивировать его купить конкретный продукт среди прочих в одной сфере [5, с.4].

Реклама, как социокультурный инструмент, стремится создавать идеализированные образы, подчеркивая благополучие и счастье. Задача

рекламы заключается в привлечении внимания и воздействии на потребителя, подчеркивая только положительные качества продукта.

**Способы выражения концепта «красота»**

Концепт «красота» является одним из наиболее распространенных в рекламных текстах парфюмерно-косметической продукции. Рекламные кампании брендов, таких как Vichy и Yves Saint Laurent, используют образность и метафоры, чтобы подчеркнуть связь между продуктом и достижением красоты.

Данный концепт служит для предоставления потенциальному покупателю уверенности в том, что именно с помощью рекламируемого товара потребитель станет красивее: Vichy. Votre peau idéale (Vichy. Ваша идеальная кожа); Yves Saint Laurent. Sublimez votre beauté avec nos produits maquillage (Ив Сен Лорен. Подчеркните свою красоту с помощью нашей косметики).

Для рекламного дискурса парфюмерно-косметической продукции характерны образность, метафоричность, чувство прекрасного. Самые распространенные прилагательные, выражающие концепт красоты – разглаженный, ровный, молодой, сияющий. Примеры рекламных сообщений от Dior, L'Oréal и Chanel демонстрируют, каким образом этот концепт передается в текстах, создавая образ идеальной красоты.

***Unifié et lissé****, le teint voit sa qualité améliorée (тон лица улучшается, становится* ***разглаженным и ровным****).* (Dior Forever Couture Perfect Cushion);

*Le Sérum Anti-Rides pour une peau repulpée, souple et visiblement plus* ***jeune*** *(сыворотка против морщин для упругой и заметно более* ***молодой*** *кожи).* (L'Oréal Revitalift Filler Sérum);

*Sa formule, finement nacrée et enrichie d'un actif hydratant de rose et de jasmin, laisse la peau* ***souple, douce, et éclatante*** *(Его формула с мелким жемчугом, обогащенная увлажняющими активными ингредиентами розы и жасмина, делает кожу* ***эластичной, мягкой и сияющей****).* (Chanel)

**Особенности репрезентации концепта «красота»**

Одной из особенностей репрезентации концепта «красота» во французских рекламных тестах является то, что он часто связывается с понятием элегантности, создавая образ шика и элегантности по-французски. Во многих рекламах для продуктов красоты, красота и элегантность являются синонимами.

*L'Eau de Parfum Intense La Petite Robe Noire représente le chic et* ***l'élégance*** *à la française (Туалетная вода La Petite Robe Noire представляет собой шик и* ***элегантность*** *по-французски*) (Guerlain).

Еще одной характерной особенностью языковой репрезентации концепта «красота» во французских рекламных тестах является акцент на индивидуальности. Вместо того чтобы продавать идеал красоты, реклама часто пытается привлечь внимание потенциальных покупателей, обращаясь к их уникальности и индивидуальности. Акцент на индивидуальности также выделяется как характерная черта, подчеркивая уникальность каждого потенциального покупателя. Это может проявляться в использовании таких фраз, как «вы – уникальны» или «вы заслуживаете лучшего»:

*Chanel Allure: Allure parce que* ***vous êtes unique*** *(Chanel Очарование: Очарование, потому что* ***вы уникальны****).*

***Vous méritez le meilleur*** *pour vos cheveux! (Ваши волосы* ***заслуживают самого лучшего****). (Laboratoire D.Plantes)*

Современные тенденции в рекламе красоты также отражают стремление к устойчивости и натуральности. Рекламные тексты могут акцентировать использование натуральных ингредиентов, экологическую безопасность продукции, что соответствует изменяющимся предпочтениям потребителей в направлении более осознанного потребления.

Кроме того, в рекламных тестах французского языка часто используются метафоры, чтобы описать красоту. Например, красивые волосы могут быть описаны как «шелковистые», а гладкая кожа может быть названа «мраморной». Эти метафоры помогают создать образ идеальной красоты и убедить потенциальных покупателей, что продукт поможет им достичь этого идеала.

*Des cheveux* ***doux*** *et* ***soyeux*** *(****Мягкие*** *и* ***шелковистые*** *волосы).* (JoliʹEssence)

Son illərdə Azərbaycanda bu müsbət tendensiyanın güclənməsinə baxmayaraq, bunu bütün tədris müəssisələrinə şamil etmək olmaz. Tədris prosesində mahnı oxumaq və dinləmək ölkəmizdə əsasən məktəbəqədər təhsil müəssisələrində və orta məktəblərin aşağı siniflərində rast gəlinən haldır. Avropa ölkələrində sözügedən təcrübə uzun müddətdən bəri geniş yayılıb. Hesab edilir ki, "orijinal sənəd olan mahnılar 1970-ci illərdə dilin tədrisinə daxil olmuşdur. O vaxtdan etibarən onun dil sinfində istifadəsi bir çox imkanlar açıb" [6, s.5]. Ali məktəblərdə də istər fonetika, istər dil bacarıqları dərslərində, istər qrammatikanı öyrədərkən mahnılardan yararlanmaq məqsədəuyğundur. Mahnıların sayəsində tələffüzün yaxşılaşması ilə dilin məxsus olduğu sivilizasiyaya məxsus ən müxtəlif ifadələrlə tanış olmaqla bərabər, tələbələr dilini öyrəndikləri xalqın mədəniyyətinin də bir hissəsi ilə tanış olmaq imkan əldə edirlər. Yəni, nəğmələr əyləndirməkdən, zövq verməkdən əlavə, bir xalqın, bir ölkənin mədəniyyətini və sivilizasiyasını da tanımaqda yaxşı bir bələdçi ola bilir. Mahnılar da "bir ölkənin tarixi abidələri kimi sosial-mədəni irsinin bir hissəsidir" [1, s.48].

Mahnıların sözləri çox vaxt hər sahəyə aid sözlərlə, söz birləşmələri ilə, idiomatik ifadələrlə zəngindir və bu da öyrənənlərin lüğət bazasını hər sahəyə aid olan söz və ifadələrlə zənginləşdirir. Dərs zamanı mahnılardan istifadə fiziki və psixoloji gərginliyin zəiflədilməsi, yəni relaxopedia – təhsil məlumatlarının mənimsənilməsinin aktiv üsulu kimi xarakterizə olunur. "Relaksopediyanın tərəfdarları hesab edirlər ki, bu cür tədris metodlarından sistemli istifadə təhsil məlumatlarının həcmini artırmağa imkan verir və bununla da tədris prosesini intensivləşdirir" [3, s.62].

Beləliklə, tədris prosesində mahnılardan istifadə ona görə lazımdır ki, onlar:

- dil öyrənənlərdə dinləyib anlama və şifahi nitq vərdişləri formalaşdırır, düzgün tələffüz bacarıq və vərdişləri aşılayır;
- öyrənənlərin marağını artırmağa, dərsdə fəal iştirakına, dərslərin daha maraqlı və canlı olmasına xidmət edir;
- öyrənənlərin diqqətinin daha yaxşı cəmlənməsinə, keçilmiş materialın yaxşı qavranılmasına kömək edir; öyrənilən materialın əylənərək

mənimsənilməsini və yadda saxlanılmasını asanlaşdırır, əldə edilmiş biliyin möhkəmlənməsinə və dərinləşməsinə yardımçı olur;

- dil daşıyıcıları ilə təmasda olmaqla hədəf dilin musiqisi ilə, o cümlədən bir xalqın, bir ölkənin mədəniyyətinin və sivilizasiyasının müəyyən bir qismi ilə tanış olmaq imkanı verir:
- dərsdə xoş atmosfer yaradır.

Tədris məqsədi ilə mahnıları necə seçmək olar?

Əvvəla, yaxşı olar ki, müəllim mahnıları şagirdlərin iştirakı ilə seçsin.

- ilk növbədə nəğmələrin mətni öyrənilən mövzuya uyğun seçilməlidir;
- mahnıların məzmunu məsələsində auditoriyanın yaşına, mentalitetinə və intellektinə xüsusi diqqət verilməlidir;
- sözlər mümkün qədər öyrənənlərin lüğət bazası çərçivəsində olmalıdır, yəni şagirdlərin və tələbələrin bilik səviyyəsi nəzərə alınmalıdır;
- mahnıların melodiyası ürəyəyatımlı və dinləyənlərin zövqünə uyğun olmalıdır. Əks halda, sinfi həvəsləndirmək və auditoriyada lazımi aura və motivasiya yaratmaq çətin olacaq;
- mahnılar seçilərkən onların sözlərinin aydın tələffüz edilib-edilməməsinə diqqət yetirilməlidir. Bu, əlbəttə, mühüm şərtdir. Demək olmaz ki, ilk dinləmədə bütün sözləri başa düşmək olur. Hətta ana dilində belə bu həmişə mümkün olmur. Bəzən nəğmənin mətnini iki dəfədən artıq dinləmək lazım gəlir. Nəğmələrin melodiyasının ürəyəyatımlı olması həm də ona görə lazımdır ki, təkrar-təkrar dinləmək usandırıcı olmasın.

Mahnıların başa düşülməsini asanlaşdırmaq üçün ən yaxşı musiqi nümunələrini seçmək də vacibdir. Üstəlik, fransız dilində səsləndirilən nəğmələrin yalnız fransız müğənnilərinin ifasında olması şərt deyil. Fransızdilli (frankofon) ölkələrin təmsilçilərinin ifasından da saysız-hesabsız gözəl sənət nümunələrini yardımçı vəsait kimi uğurla istifadə etmək olar. Azərbaycanlı dinləyicilər iyirminci yüzilliyin misilsiz şansonyerləri olan Edit Piafın, Co Dassənin, Patrisiya Kaasın, Lara Fabyanın, Selin Dionun, İndilanın, Zahonun, Zazın və bir çox başqa sənətkarların ifasını çox bəyənirlər. Universitet tələbələri üçün səviyyələrinə uyğun (təbii ki, mövzuya da uyğun) orijinal mahnılar seçmək mümkündür. Fransız dilini öyrənənlər arasında adları sadalanan və sadlanmayan bir çox müğənnilərin populyarlığının səbəbi həm də onların ifalarında səslənən nəğmələrin aydın və anlaşıqlı olamasıdır. Hətta fransız repinin də “müxtəlif sosial mövzulara toxunduğu üçün təsirli” [8] olduğu qənaətində olan araşdırmaçılar da var. NTM və AM kimi qruplar lüğət bazasını və şifahi anlamanı zənginləşdirən qafiyələr təklif edir.

Dil öyrənmək üçün mahnılardan necə istifadə olunmalıdır? Mahnılardan istifadə etməklə keçilən dərs bir neçə yolla qurula bilər:

Mahnının dinlənilməsinə başlamazdan qabaq müəllim ona aid naməlum sözləri təqdim etməlidir. Mahnılar dinlənildikdən və tapşırığı yerinə yetirməyə başlamazdan əvvəl şagirdləri sorğu-sual etməklə onların mətni və ya ayrı-ayrı sözləri başa düşdüklərinə və tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu bildiklərinə əmin olmaq lazımdır. Bütün sözləri bilmək vacib olmasa da, onların mütləq əksəriyyəti tanış sözlər olduqda dil öyrənənlər mətnin ümumi məzmununu başa düşürlər. Müəllim dinlənilən nəğmənin mətninə aid suallar verməklə onun başa düşülüb-düşülməməsini də yoxlaya bilər: Kim oxuyur? Mahnı nə haqqındadır? Özləri bu mahnıya hansı adları verə bilərlər? Müəllim mahnının mənasını açmaq üçün müxtəlif yollar seçə bilər. Təbii ki, dilin hansı seqmentinin öyrədilməsində istifadə olunmasından asılı olaraq, tapşırığın məzmunu da dəyişir:

- Fonetikanı öyrənərkən auditoriya nəğmənin sözlərini müğənnidən sonra bir neçə dəfə təkrarlamalı, yəni tələffüz məşqləri etməlidir. Müəllim auditoriyaya lyezonu (liaison) və enchainement-ı ayırd etmək, ritmik qrupu, burun səslərini müəyyən etmək, ayrı-ayrı sözlərin transkripsiyasını yazmaq kimi tapşırıqlar verə bilər.
- Yazılı-şifahi nitq dərslərində müəllim lüğətin mənimsənilmə səviyyəsini yoxlamaq üçün mətnin yazıldığı vərəqləri payladıqdan sonra mahnını dinlədib nöqtələrin yerinə çatışmayan söz və ifadələri yazmalarını tapşırır. Və ya dinlədikdən sonra müəyyən sözlərin omonim və omofonlarını, sinonim və antonimlərini tapmağı tapşıra bilər; mahnının məzmununu qısa şərh etmək tapşırığı verilə bilər. Yeni sözləri dairəyə alaraq onları cümlələrdə işlətməyi tapşıra bilər.
- Qrammatika dərsində müəllim mahnının sözlərini bir vərəqdə yaza və dinləmə zamanı öyrənənlərin çatışmayan cümlə üzvünü və ya sonluqları müəyyən edib yazması üçün boşluqlar buraxa bilər. Məsələn: fərz edək ki, dərsin mövzusu keçmiş zamandır. Keçmiş zamanın çox işləndiyi bir mahnı seçərək bu zamanda işlənmiş feilləri (və ya sonluqlarını) kağızdakı variantdan çıxararaq həmin feillərin (və ya sonluqlarının) mahnını dinləyərkən müəyyən edilib boşluqlara yazılmasını tapşırmaq olar. Eyni çalışmaları başqa zaman formaları ilə bağlı, feilin müxtəlif şəkilləri ilə bağlı (əmr, arzu, şərt) və ya başqa nitq hissələri ilə etmək olar.

Qeyd: Mahnılarla iş köhnə dərsin soruşulması zamanı və ya yeni dərsin təqdimatı və möhkəmləndirilməsindən sonra aparıla bilər. Bunun dərsin vaxtını çox almamasına da diqqət edilməlidir.

**Nəticə**

Orijinal sənəd olan mahnılarla keçilən dərs təkcə dilin, şifahi nitqin düzgün mənimsənilməsinə imkan vermir eyni zamanda öyrənənlərin fəal,

həvəslə iştirak etdiyi işgüzar bir atmosfer yaradır. Düzgün seçilmiş nəğmə dil öyrənənlərin təkcə linqvistik bacarıqlarının inkişafına kömək etməklə qurtarmır, onların estetik baxışlarının və dünyagörüşlərinin formalaşmasına da müsbət təsir göstərir. Musiqi və şeirin vəhdətindən yaranan nəğmələr incəsənət və ədəbiyyat nümunələri olduğundan, onlarla tanışlıq bir xalqın, bir ölkənin mədəniyyətinin bir hissəsi ilə də tanışlıq deməkdir. Hansı nəğmələri seçmək, onlardan hansı hallarda və hansı şəkildə yararlanmaq məsələsində isə, təbii ki, müəllimlər daha çox müstəqil qərar verirlər. Mahnıların didaktik vasitə kimi istifadəsi hər bir halda qarşıya qoyulan məqsədə çatmağa, tədrisdə uğurlu nəticə əldə etməyə xidmət etməlidir.

## ƏDƏBİYYAT


1. *Orucov M.* Xarici dilin (fransız) tədrisi metodikası. Gəncə, 2021, 308 s.
2. *Китайгородская Г.А.* Интенсивное обучение иностранным языкам. Теория и практика, 2-ое издание. Москва: Высшая школа, 2009, 254 с.
3. *Щукин А.Н.* Современные интенсивные методы и технологии обучения иностранным языкам: Учебное пособие, 2-ое издание Москва: Филоматис, 2010, 475 с.
4. L'utilisation de la chanson française comme support didactique pour développer quelques compétences orales chez les eleves. https://search.shamaa.org/PDF/Articles/EGAsep/AsepNo35P3Y2013/asep_2013_n35-p3_269-328_fre.pdf
5. file:///C:/Users/User/Downloads/la-chanson-_-un-outil-didactique-et-une-activit%C3%A9-ludique-id%C3%A9ale-pour-l%E2%80%99apprentissage-du-fran%C3%A7ais-langue-%C3%A9trang%C3%A8re.pdf
6. https://libstore.ugent.be/fulltxt/RUG01/002/271/928/RUG01-002271928_2016_0001_AC.pdf
7. La chanson et l’enseignement du français. https://gupea.ub.gu.se/bitstream/handle/2077/67198/gupea_2077_67198_1.pdf?sequence=1&isAllowed=y
8. https://cours-legendre.fr/chanson-pour-apprendre-le-francais/


Redaksiyaya daxil olub 05.03.2025

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2025, C.73, №1, s. 47-54
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2025, V.73, №1, pp. 47-54

*UOT 82-09*

***Ş.N.Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*sohret.nesirova24@gmail.com*

## HÜSEYN ARİF VƏ XALQ ƏDƏBİYYATI

https://doi.org/10.30546/170899876.72.01.2025.0030

***Açar sözlər**: poeziya, xalq yaradıcılığı, aşıq ədəbiyyatı, lətifə, rəvayət, əfsanə, bayatı, mərasim folkloru*

Hüseyn Arif müasir Azərbaycan poeziyasının fitri istedadı və xalqa yaxınlığı ilə seçilən ən görkəmli şəxsiyyətlərindəndir. Onun yaradıcı məfkurəsinin əhatələdiyi məzmun bütün parametrlərdə ancaq və ancaq özü ilə müqayisə oluna biləcək bir təsəvvürü formalaşdırır. Yazıçı və folklor problemi son dövr ədəbi-nəzəri fikrin daha çox diqqət yetirdiyi məsələlərdəndir və demək olar, bu istiqamətdə lazımı qədər gərəkli araşdırmalar da atılmışdır. Monoqrafik əsərlər, saysız-hesabsız məqalələr bunun göstəricisidir. N.Gəncəvi, Q.Bürhanəddin, M.Füzuli, Ş.İ.Xətai, M.Əmani, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, Ə.Nəbati, M.Ə.Sabir, A.Səhhət, C.Məmmədquluzadə, C.Cabbarlı, M.Müşfiq, S.Vurğun, O.Sarıvəlli, İ.Şıxlı, İ.Hüseynov, M.Araz, Z.Yaqub və s. sənətkarlarla bağlı araşdırmalar folklordan bəhrələnmənin mahiyyətini aydınlaşdırmaq baxımından müstəsna əhəmiyyət kəsb edir. Bunlar bir istiqamətdə ədəbi prosesin dinamik mənzərəsini və onun geneoloji sistemini faktlaşdırırsa, digər xətdə xalq yaradıcılığının bir qaynaq olaraq funksional məzmununu açıqlayır. Ədəbi-nəzəri fikrin təhlilləri folklorun bazis rolunu üfiqi və şaquli istiqamətlərdə dərkə əsas olur. H.Arifin yaradıcılığı bunun tipik örnəyi olaraq, daha təfərrüatlı təhlillər üçün material verir. Şairin poeziyası, məqalələri, çıxışları və xalq arasında dildən-dilə gəzən söyləmələri, eləcə də aşıqlarla yaxınlığı, el sənətkarlarının ona ünvanladığı şeirlər və s. bunun göstəricisidir. Bütün bunlar müxtəlif istiqamətli təhlillərə, araşdırmalara əsas olmuş və bu gün də olmaqdadır.

***Ш.Н.Мамедова***

## ГУСЕЙН АРИФ И НАРОДНАЯ ЛИТЕРАТУРА

***Ключевые слова:** поэзия, народное творчество, ашугская литература, анекдоты, сказки, легенды, баяты, обрядовый фольклор*

Гусейн Ариф – одна из виднейших фигур современной азербайджанской поэзии, отличающаяся врожденным талантом и близостью к народу. Содержание его творческой идеологии формирует образ, сопоставимый по всем параметрам только с ним самим. Проблема писателей и фольклора относится к числу вопросов, которым литературоведческая и теоретическая мысль уделяет в последнее время наибольшее внимание, и можно сказать, что

в этом направлении проведено достаточное количество необходимых исследований. Об этом свидетельствуют монографические работы и бесчисленные статьи. Исследование творчества таких художников, как Н.Гянджеви, Г.Бурханеддин, М.Физули, Ш.И.Хатаи, М.Амани, М.В.Видади, М.П.Вагиф, Г.Закир, А.Набати, М.А.Сабир, А.Саххат, Дж.Мамедгулузаде, Дж.Джаббарлы, М.Мушфиг, С.Вургун, О.Сарывелли, И.Шихлы, И.Гусейнов, М.Араз, З.Ягуб и других, имеет исключительное значение с точки зрения выяснения сути использования фольклора. С одной стороны, эти факты раскрывают динамический ландшафт литературного процесса и его генеалогическую систему, с другой стороны, они раскрывают функциональное содержание народного творчества как источника. Анализ литературно-теоретической мысли является основой для понимания фундаментальной роли фольклора в горизонтальном и вертикальном направлениях. Творчество Х.Арифа, как типичный пример, дает материал для более детального анализа. Об этом свидетельствуют поэзия поэта, его статьи, речи и изречения, передаваемые из уст в уста в народе, а также его близость к ашугам, стихи, адресованные ему народными мастерами и т. д. Все это было и остается основой для различных анализов и исследований.

***Sh.N.Mammadova***

## HUSEYN ARIF AND FOLK LITERATURE

***Keywords:*** *poetry, folk creativity, ashug literature, anecdote, tale, legend, bayati, ceremonial folklore*

Huseyn Arif is one of the most prominent figures of modern Azerbaijani poetry, distinguished by his innate talent and closeness to the people. The content encompassed by his creative ideology forms an image that can only be compared to himself in all parameters. The problem of the writer and folklore is one of the issues that literary and theoretical thought has paid more attention to in recent times, and it can be said that a sufficient amount of necessary research has been carried out in this direction. Monographic works and countless articles are an indication of this. Studies on N.Ganjavi, G.Burhaneddin, M.Fuzuli, Sh.I.Khatai, M.Amani, M.V.Vidadi, M.P.Vagif, G.Zakir, A.Nabati, M.A.Sabir, A.Sahhat, J.Mammadguluzadeh, J.Jabbarli, M.Mushfig, S.Vurgun, O.Sarivelli, I.Shikhlili, I.Huseynov, M.Araz, Z.Yaqub and other artists are of exceptional importance in terms of clarifying the essence of benefiting from folklore. If, on the one hand, they factify the dynamic picture of the literary process and its genealogical system, on the other hand, they explain the functional content of folk creativity as a source. Analyses of literary-theoretical thought become the basis for understanding the basic role of folklore in horizontal and vertical directions. H.Arif's work, as a typical example of this, provides material for more detailed analyses. This is evidenced by the poet's poetry, his articles, speeches and sayings, passed from mouth to mouth among the people, as well as his closeness to the ashughs, poems addressed to him by folk masters, etc.

All this has been the basis for various analyses and researches and continues to be so today.

**Giriş**. Xalqa yaxınlığı ilə seçilən və ruhu, varlığı ilə düşüncəsində geniş kütlənin iç dünyasını təqdimə köklənən H.Arif yaradıcılığı öz janr və məzmun potensiyası ilə bir əlçatmazlıq sərgiləyir. Dünya ədəbiyyatının görkəmli sənətkarları əvəzsiz əsərlərini məhz xalq ədəbiyyatının zənginlikləri əsasında cilalamaqla ölməzlik qazanmışlar. Etnosun mədəniyyət, ədəbiyyat təsəvvürləri, dünyagörüşü, həyat fəlsəfəsi müxtəlif səviyyə və formalarda bir etnoenerji olaraq qəlibləşməklə gələcəyə ötürülmüşdür. Nəğmə, bayatı, layla, atalar sözü, məsəl, tapmaca, nağıl, əfsanə, yanıltmac, dastan və s. min illərin gəlinən yoluna işıq tutmaqla həm də gediləcək yolun dinamikasını konsept olaraq diktə etmişdir. H.Arif poeziyasında özünü göstərən çeşidlilik, etnoqrafik atlasın möhtəşəmliyi, təbiətin ecazkar panoraması, milli təsəvvürdə qəlibləşmiş davranış modelləri, arxaik dünyagörüşünə bağlanan normativlər və onun kutsallığı bütün incəlikləri ilə yaradıcı istedadın özünüifadə formuludur. Epos məfkurəsində, ozan qopuzunun tellərində səslənən əsrarəngizliklər müxtəlif formalarda topluma çatdırılma məqsədinə yüklənir.

**H.Arif yaradıcılığının folklor qaynaqları**. Keçən əsrin 50-60-cı illərinin zənginliyində öz üslubu, yazı manerası ilə ədəbi-nəzəri fikrin diqqətini çəkən H.Arif yaradıcılığı boyu xalq həyatını, etnoqrafik zənginliyin ecazkarlığını yüksək sənət intelleksiyası ilə əks etdirməyə xüsusi həssaslıq göstərmişdir. Nağıldan, bayatıdan, musiqi həzinliyindən, nəğmədən, ozan söyləməsindən qaynaqlanaraq ortaya çıxan hər bir bədii nümunə sözün məna yükü, mətn fenomenliyi, janr məzmunu ilə bir fövqəlzamanlığı faktlaşdırır. Ümumiyyətlə, "xalq yaradıcılığının H.Arif poeziyasına təsiri əsasən iki istiqamətdə görünür. Bunlardan birincisi və daha üzdə görünəni zəngin milli folklorumuzun ayrı-ayrı janrlarından, süjet və bədii formalarından metaforik tərzdə istifadə üsuludur. İkinci istiqamət şairin poetik üslubunda, şeiriyyətin ruhunda duyulan mahiyyət təsiridir.

Xalq yaradıcılığındakı mövcud süjet və bədii formaların yazılı ədəbiyyata gəlişi yazıçı və folklor faktında ən üzdə görünən məsələdir. Bu H.Arif yaradıcılığında əsas xətt kimi nəzərə çarpır" (3, s.34). Geneoloji sistemi isə çox dərinliklərə, arxaik qatdan gələnlərə bağlanır və bütünlükdə etnoqrafik zənginliyin xronotoplarını təbii olan kimi açıqlayır. Ayrı-ayrı şeirləri və məqalələri timsalında müşahidə olunan özünəməxsusluq təbii axarda əvvəldən axıra qədər eyni hal, yaradıcılıq konsepti olaraq spesifikləşir. "Xalqıma", "Qonşular", "Şair", "Unudularmı", "Arzu", "O necə şairdir", "Boranda bərkiyib boran qardaşım", "Qızılvəng qəbiristanlığında düşüncələr", "Deyirlər Göyçədə bir gözəl olub", "Bir ovuc torpaq", "Baxın,

balalarım", "Sellər itirərmiş, sellər taparmış", "Atamın yaşıdları", "Arifə məktub", "Uşaqlıq", "Mirzə hanı dedilər", "Kəpəz", "Babalar", "Bənzər", "Bağlıdır", "Ata", "Torpaq eşqi", "Qızıl öküz", "Babam söndürmədi", "Nənəmin söylədikləri", "Gülnaz nənə" və s. şeirləri söz-söz, misra-misra H.Arif obrazını, şəxsiyyətini, düşüncəsini təqdim etmək, aydınlaşdırmaq baxımından fakta çevrilir.

Baxmayın axşamın qaranlığına,
Baxmayın bürküdür, itib cığır, iz.
Baxmayın çən qonub Kür qırağına,
Baxın, balalarım, bir də baxın siz.

Baxın, balalarım, o yurd yerinə,
Üzülüb son kərpic, qopub son dirək.
O ocaq yerinə, o od yerinə,
Kolları, kosları gətirir külək.

O qüllə adlanan sehrli qala,
Dözür tənhalığa sinə gərərək.
Necə də qərq olub fikrə, xəyala,
Ordusu pozulmuş sərkərdələr tək (4, s.59).

Balalara müraciətlə deyilmiş bu misralar toplumun milli-mənəvi dəyərlərini, etnik sistemin çox dərin qatlara bağlanan düşüncə tərzini, yaşam fəlsəfəsini əhatələmək xüsusiyyəti ilə əvəzsizlik qazanır. Ümumiyyətlə, bütün sənətkarlar xalq yaradıcılığının zənginliklərindən müxtəlif şəkildə bəhrələnmişlər. Tipoloji yanaşmalarda H.Arifin bu möhtəşəm genefondun ortaya qoyduğu mükəmməllikdən bəhrələnməsi daha çox imkanlılıqla özünü nümayiş etdirir və üst qatda olan kimi boy göstərir. Onu da deyək ki, şairin yaradıcılığı bu baxımdan heç kəslə müqayisə olunmayacaq əvəzsizliyi diqqət önünə gətirir. Bu cür bəhrələnmə ilahi bir simpatiyaya, vurğunluğa, həm də istedada bağlanır. Etnoqrafik zənginliyi, etnik mədəniyyətin arxeoloji qatında yaşananları Hüseyn Arif poeziyası qədər əksetdirmə gücündə olan çox az-az sənətkarlar tapıla bilər. Belə bir əvəzsizliyin nümayişi ruh məsələsinə, genetik işarələnmənin arxetip səviyyəsində metamodelləşməsinə bağlanır. Söz, misra, bənd, bütövlükdə poetik nümunə timsalında təqdim olunan mövzu və düşüncə məndəricəsi bütün parametrlərdə fonopoetik, morfopoetik, sintaqmatik polifoniyanın stixial bütövlüyünü yarada bilmək gücü ilə özünü göstərir. Balalara müraciət baxımından deyilmiş bu mülahizələr janr səviyyəsi, fikir və çatdırma unikallığı ilə nümunəyə çevrilir.

Xalq poeziyası, ümumiyyətlə, sənətin formalaşdırdığı təsəvvür nəğmə, bayatı, layla, oxşama, yanıltmac timsalında əsaslı bir mükəmməlliklə ədəbiyyatın yazılı qoluna təsirlə, nümunə olma ilə spesifikləşir. "Folklor yazılı

ədəbiyyatın yaranması və inkişafı üçün əsas mənbələrdən biridir. Azərbaycan ədəbiyyatı çox qədim zamanlardan şifahi xalq ədəbiyyatı ilə bağlı inkişaf etmişdir. Xaqani, Nizami, Nəsimi, Xətai, Füzuli, Məsihi, Vaqif və başqalarının yaradıcılığında bunu aydın görürük. Xalqa yaxın olan sənətkarlar onun yaradıcılığına da biganə qala bilməmiş, folkloru hər cəhətdən faydalı bir qaynaq hesab etmişlər" (2, s.465-466). H.Arifin poeziyası da bu sıradan nümunə rolunu oynayır və xalqın mədəniyyətini, həyat tərzini, etnoqrafik zənginliyini, mərasim folklorunda özünə yer alan ehtişamı əhatələmək gücü və stixiyası ilə diqqət önünə gəlir.

**Arxaik etnik özünüifadənin düşüncə modeli**. Arxaik etnik özünüifadənin düşüncə modeli olaraq əhatələnən sözlü ədəbiyyat etnosun bütünlükdə etnoenerjisini yüksək təfəkkür intelleksiyası ilə nümayiş etdirmək məramına yüklənir. "Arifə məktub" şeiri bu baxımdan tipik bir mənzərəni sərgiləyir və tərbiyə, əxlaq anlamında əsaslı bir mənzərəni açıqlayır:

Xəbər alırsan, oğul
Məni gətirib yada,
-Ata darıxmadınmı
Təkcə Ağstafada?
Mənim eşqim, ümidim,
Gücüm, dirəyim oğul.
Qocalan ürəyimin
Yerində çiçəkləyən
Təzə ürəyim oğul (4, s.68).

H.Arif poeziyası çeşidli məzmun qatı və hadisə-əhvalatları əksetdirmə üsulları ilə orijinallıq sərgiləməklə də diqqət önünə gəlir. Burada mətn informasiyası və onun janr konstruksiyası ata-oğul söhbəti timsalında əsaslı bir təsəvvürü, etnik düşüncənin spesifikasına dayanan mədəniyyət platformasını ortaya qoyur. Belə ki, şairin yurd, torpaq, el-oba sevgisi baxımından diqqət önünə gələn bağlılıq, yaşam tərzi bir istiqamət olaraq bədii mətndə özünün əksini tapmaqla faktlaşırsa, onun digər tərəfində övladın ata sevgisi və tək qalma nigarançılığı olduqca maraqlı tərzdə, yüksək ustalıqla nümunəyə çevrilir. H.Arif yaradıcılığı bütün kontekstlərdə mövzunun dərki, təqdimi və ifadəliliyi baxımından əvəzsizlik sərgiləyir. Ədəbi-nəzəri fikrin görkəmli nümayəndələri vurğulayırlar ki, "şeir bədii ədəbiyyatın ən incə və zərif bir şəklidir. Şeir ruhun məchul səsini böyük bir qüvvə ilə ifadə edən, insanın xarici və daxili aləmi ilə bərabər bütün varlığı ilə nağıl edən bir şəkildir. Əsl şeir böyük fikirlər və böyük ideallar deməkdir, onun kiçik bir misrasında bəzən böyük bir roman olur" (1, s.41). H.Arif poeziyası öz sənət ampulası və sərgilədiyi izahı axıra qədər mümkün olmayan emosiyası, təfəkkür intelleksiyası ilə bunun parlaq nümunəsidir. "Kəhər at", "İsgəndər", "Amandır, durnaya güllə atmayın", "Qartalla söhbət", "Qədim kənd", "Qəribə

adam", "Darıxmasın babaların", "Görünməz", "Bir də xatırladım", "Qoca xidmətçi", "İlk müəllimim", "Biz iki uşaqdıq", "Qoruya bilsək" və s. şeirləri hər birisi mətn və düşüncə fenomenliyi ilə H.Arif yaradıcılığının mahiyyətində olanları sərgiləyir.

Arıq bir kişiydi – qıvraq, mehriban,
Xətri hamı üçün çox əziz idi.
Məktəbə gedirdim, yaşım o zaman
Ya yeddi olardı, ya səkkiz idi.

Kiçik kənd məktəbi, yolun qırağı,
Ağaclar həyətə kölgə salırdı.
Üfüq qızaranda hər səhər çağı,
O qoca xidmətçi zəngi çalırdı (4, s.68).

H.Arif poeziyasında qayğısız, şən, qaynar, ucu-bucağı görünməyən fantaziyalarla dolu bir keçmiş, uşaqlıq xatirələri var. Şair sanki qeyri-adi rəssam əli ilə həmin keçmişi rəngarəng boyalarla vərəqə köçürür və gələcəyə örnək olaraq ötürmək məqsədini bu nümunələrlə reallaşdırır. Və budur mənim yaşadığım keçmiş, sirlə, sehrlə dolu uşaqlıq illərim, - deyir. Nümunə verilən şeirdə diqqətçəkici bir məqam şairin yaddaşında özünə yer alan obrazlaşma, təsəvvürlə bağlı olan tərəfdir. "Adını yazmağı bilməyən qoca "kitabdan kitaba səslərdi bizi" deyimi ilə xalq müdrikliyini və əxlaq, mənəviyyat zənginliyinin əski təsəvvürdən bu yana olanlar timsalında yaşam prinsipi, nümunə olaraq açıqlayır. Məlum olduğu kimi, "sözün ifadəliliyi yalnız onun ifadə etdiyi məzmundan yox, həm də onun stilistik siqlətindən, eləcə də sözün akustik çalarından tutmuş assosiativ-emosional çalarına qədər başqa sözlərlə müxtəlif əlaqələrindən də asılıdır" (7, s.61). Ruhu, düşüncəsi və təsəvvürləri ilə xalqa bağlı olan H.Arif yaradıcılığının ana qaynağını qopuzdan, sazdan, nəğmədən, layladan, elat söyləmələrindən gələnlər təşkil edir. "Zınqrov", "Nənəmin söylədikləri", "Gülnaz nənə", "Babam haqqında" və s. şeirləri bunun bir başqa örnəyi, uşaqlıq təsəvvürü kimi yaşananlar, əziz olanlardı. "Nənəm qaynanasından tez-tez söhbət açardı" aspektində yazılmış şeirlər maraqlı tarix kimi, həm də tərbiyə faktı səciyyəsi daşıyır.

Əslini, nəslini dərindən tanı,
Köhlənli, qalxanlı, qılınclı getdi.
Bir oğul toyunda bir oğul qanı,
Şənlik süfrəsinə qarışdı getdi.

Kim düşüb-düşməyib biz düşən hala,
Göyün göz yaşıdır o ələnən qar,
Taleyin hökmüdür, ay şair bala,
Kimə bahar gülər, kimə qış ağlar (5, s.524).

"Qar bizim dağlara yağmaq üçündür" şeirindən verdiyimiz nümunə yuxuda nənəsinin söylədikləri timsalında yaşanan tarixi öz içinə alır və həm də reallıq olaraq yüksək sənət imkanları ilə təqdimə köklənir. Xalq yazıçısı İ.Şıxlı "Elə bağlı sənətkar" məqaləsində H.Arif istedadını və xalq ruhunu özündə ehtiva etmək imkanlarını xüsusi aydınlıqla diqqət önünə gətirir. "Hüseyn Arif fitrən lirik şairdir. O, hətta epik səpkili poemalarında da lirik şair olaraq qalır. Onun lirik ricətləri, təbiət və insan psixologiyasının təsvirindəki lirizm təsdiq edir ki, bu cəhət şairin yaradıcılığında əsas, aparıcı amildir və onun bütün əsərlərinin ruhuna hopmuşdur. Hüseyn Arif hər yerdə, hər zaman, qələmə almaq istədiyi hər kiçik lövhədə belə şeiriyyət axtarır və bunu bir şair həssaslığı ilə duyub tapır. Bütün bunlar Hüseyn Arifin təsvirində əyilməzliyin, qürurun, mərdliyin, saflığın, paklığın və nəticə etibarilə Vətənin rəmzinə çevrilir" (6, s.7). H.Arif şeirinin hər sözü, hər misrası, hər bəndi Vətən müqəddəsliyinin, ecazkarlığının, vurğunluğunun nümunəsi və ifadəsidir. Bütünlükdə arxaik qatdan süzülüb gələn üzdə və alt qatda işarələnən şərəfli, həm də örnək olacaq tarixdir.

Ondan hər söz düşəndə,
Bir mahnı düşər yada.
Naməlum bir aşıqdan,
Nişanədir dünyada (4, s.304).

Etnik özünüifadənin modeli H.Arif yaradıcılığında dünyanın o başından günümüzə qədər olanları bir bazis, alt qatdakı təhtəlşüur səviyyəsində əhatələmək imkanları ilə səciyyələnir. Metamif, metamodel sxemlərindəki qəlibləşmələr və dərk olunma xarakteri şairin ədəbi irsini bir bütöv olaraq öz içinə almaqla əvəzsizlik qazanır. Xalq şairi N.Xəzri "Sənətdən söhbət düşəndə" məqaləsində H.Arif haqqında deyir: "Ən uzaq mənzilini əvvəlcədən təyin edən sənətkar inamlı olar. Sən ona görə də inamla addımlamısan. Gurultulu şan-şöhrətdən uzaq. Dəbdəbəli, boğazdan yuxarı təriflərdən uzaq. Bəli, bu keyfiyyətlərdən uzaq olanlar həmişə xalqına daha yaxın olurlar" (4, s.5). H.Arif zəngin yaradıcılığı, haqqında danışılan xatirə-əhvalat, lətifə-hekayətlərlə xalqa yaxın olmanın nümunəsidir. Bütün bunlar həm də digər istiqamətdə yaratdıqları ilə əbədiyaşarlıq qazanmanın ən parlaq yaşam modeli, örnəyidir.

**Nəticə**

Xalq yaradıcılığının, eləcə də etnik ruhun ifadə nümunəsi olaraq əlçatmazlıq sərgiləyən Hüseyn Arif poeziyası təkcə göz açıb öyrəndikləri timsalında olanlarla məhdudlaşmır, bunun alt qatında genetik kod olaraq işarələnmənin funksional rolu vardır. Şanlı-şərəfli keçmiş, əsrarəngizlik sərgiləyən elat həyat tərzi, dağ-aran köçləri, etnoqrafik zənginliyin mükəmməllik fakturası, yurd, torpaq, el-oba sevgisi, arxetip səviyyəsində qəlibləşmiş kutsal dəyərlər, əxlaq, mənəviyyat kodeksi bütün aspektləri ilə

şairin poeziyasında nümunə olmaqla özünü nümayiş etdirir. H.Arifin poeziyası bütün parametrlərdə xalqın dili və ruhunun nümayişidir və onun qaynağını isə etnosun ucu-bucağı görünməyən zəngin həyat tərzi, folklor yaddaşı təşkil edir. Xalqın qəlbində, ruhunda, yaddaşında yaşarılıq qazanmanın ən mükəmməl və parlaq nümunəsi budur.

**ƏDƏBİYYAT**


1. *Ağayev Ə.* Əsrin tərənnümü. Bakı: Gənclik, 1980, 231 s.
2. *Əfəndiyev P.* Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.
3. *Əliyeva S.* Müasir Azərbaycan ədəbiyyatının aktual problemləri və folklor (H.Arifin yaradıcılığı üzrə). Bakı: ADPU, 2006, 146 s.
4. *Hüseyn A.* Ömür gözləsə. Bakı: Gənclik, 1978, 350 s.
5. *Hüseyn A.* Seçilmiş əsərləri. Bakı: Meqa print, 2011, 618 s.
6. *Şıxlı İ.* Elə bağlı sənətkar. Hüseyn A. Seçilmiş əsərləri. Bakı: Meqa print, 2011, s.7-12.
7. *Шмелев Д.Н.* Слово и образ. Москва: Наука, 1964, 120 с.


Redaksiyaya daxil olub 18.02.2025

*UOT 821.512.161*

***A.B.Şeydayeva***
*ADPU Quba filialı*
*aysel.sheydayeva@quba.adpu.edu.az*

# TÜRKİYƏ POEZİYASINDA ƏNƏNƏ VƏ NOVATORLUQ PROBLEMİ (1920-1960-cı illər)

https://doi.org/10.30546/170899876.72.01.2025.0035

***Açar sözlər:*** *Türkiyə, poeziya, ənənə, novatorluq, modernizm*

Məqalə türk şeirində ənənə və novatorluq kimi aktual məsələyə həsr edilmişdir. Türkiyə poeziyasında ənənə və novatorluq mövzusu, zəngin ədəbiyyat tarixinin müxtəlif dövrlərini və şairlərin şeirə fərqli yanaşmalarını əks etdirir. Ədəbiyyatda həm ənənəvi dəyərləri qoruyub saxlaması, həm də yeniliklərin tətbiqi həmin dövr üçün xarakterik idi. Bu iki proses ümumi olaraq türk poeziyasının inkişafında mühüm rol oynamışdır. Türkiyənin ənənəvi poeziyasında, xüsusilə XIX və XX əsrin əvvəllərində, daha çox klassik şeir formaları və mövzuları üstünlük təşkil edirdi. Ənənə, türk poeziyasının tarixi inkişafında və ədəbiyyatın formalaşmasında əhəmiyyətli rol oynamışdır. Novatorluq isə hər şeydən əvvəl, şeirin daxili əlamətlərində, mövzuya münasibətdən, ideya istiqamətindən tutmuş yeni və özünəməxsus obrazlı ifadə vasitələrində və əlbəttə ki, həm də forma xüsussiyyətlərində təzahür edən geniş və çoxtərəfli bir ədəbi anlayış kimi qəbul edilməlidir. Ənənəvi formalarda qələmə alınan bədii parçalar yeni və orijinal poetik obrazlarla zənginləşdikdə həmin formanın özü də yeni mahiyyət kəsb edir. Nəticədə poeziya bütövlükdə inkişaf edib zənginləşir.

***А.Б.Шейдаева***

## ПРОБЛЕМА ТРАДИЦИИ И НОВАТОРСТВА В ТУРЕЦКОЙ ПОЭЗИИ (1920-1960)

***Ключевые слова:*** *Турция, поэзия, традиция, новаторство, модернизм*

Статья посвящена вопросу традиции и новаторства в турецкой поэзии. Тема традиций и новаторства в турецкой поэзии отражает разные периоды богатой литературной истории и разные подходы писателей. Для этого периода были характерны сохранение традиционных ценностей и создание новшеств в литературе. Эти два процесса сыграли важную роль в развитии турецкой поэзии. В традиционной турецкой поэзии, особенно в XIX и начале XX веков, преобладали более классические формы и темы. Традиция играет важную роль в историческом развитии турецкой поэзии и формировании литературы. Новаторство более явно проявляется во внутренних особенностях стихотворения. Новаторство проявляется в новых и уникальных

образных средствах выражения в поэзии. В результате поэзия в целом развивается и становится богаче.

***A.B.Sheydayeva***

## THE PROBLEM OF TRADITION AND INNOVATION IN TURKISH POETRY (1920-1960)

***Keywords:*** *Turkey, poetry, tradition, innovation, modernism*

The article is dedicated to the issue of tradition and innovation in Turkish poetry. The theme of tradition and innovation in Turkish poetry reflects different periods of rich literary history and different approaches of writers. The preservation of traditional values and the creation of innovations in literature were characteristic of that period. These two processes played an important role in the development of Turkish poetry. Traditional Turkish poetry, especially in the 19th and early 20th centuries, was dominated by more classical forms and themes. Tradition is important in the historical development of Turkish poetry and the formation of literature. Innovation is more evident in the internal features of the poem. Innovation is manifested in new and unique figurative means of expression in poetry. As a result, poetry as a whole develops and becomes richer.

Türkiyə poeziyası haqqında tədqiqatlardan aydın olur ki, XIX əsrin sonları, XX əsrin əvvəllərində şeirdə yeni ruhlu və ideya-bədii cəsarəti ilə seçilən nümunələr yaranmışdır. Artıq obrazlı təfəkkür tərzinə qovuşmağa başlayan poeziyada təsvirçiliyin daha çox insanın mənəvi aləmindən qidalanan bədii çalarlarla, poetik tərənnümlə əvəz edilməsi prosesi get-gedə artmağa başladı. Bu isə ənənəvi şeirin yerini novator xüsusiyyətlərə verməsinə və poeziyada yeni yanaşmaların yaranmasına səbəb oldu. Dövrün ictimai mənzərəsinə diqqət etdikdə yeni meyillərin poeziyada müşahidə edilməsi də təbii idi. Türkiyə türk ədəbiyyatının ən məhsuldar, lakin məhsuldar olduğu qədər də ziddiyyətli və çətin dövrü XIX-XX əsrlər olmuşdur. Məlumdur ki, ictimai-siyasi proseslərdən bu və ya digər dərəcədə kənarda ədəbiyyat yoxdur. Demək olar ki, bu dövr poeziyası bir sıra orijinal və maraqlı xüsusiyyətləri ilə diqqəti cəlb edir [4, s.11]. Rəcaizadə Mahmud Əkrəm (1847-1914), Əbdülhəq Hamid Tarxan (1852-1937), Məhmət Akif Ərsoy (1873-1936), Ziya Göyalp (1876-1924), Ömər Seyfəddin (1884-1920), Yəhya Kamal Bayatlı(1884-1958), Rəşad Nuri Güntəkin (1889-1956), Əhməd Hamdi Tanpınar (1901-1962), Nazim Hikmət (1902-1963), Ziya Osman Saba (1910-1957), Yaşar Nəbi Nayır(1908–1981), Orxan Vəli Qanıq (1914-1950), Ali Oktay Rifat (1914-1988), Cahid Qulebi (Mahmud Cahid Erencan-1917-1997), Əziz Nesin (1915-1995), Necati Cumali (1921-2001), Ahmet Sezai Karakoç (1933-2021), Nihad Sâmi Banarlı (1907-1974) və b. şair və yazıçıların əsərlərində yeni formaların tətbiqi ilə yanaşı, ictimai

mahiyyət kəsb edən mövzuların yer alması diqqəti cəlb edən başlıca xüsusiyyət idi. Poeziyada məzmun və keyfiyyət yenilikləri ilə yanaşı, yeni şeir şəkillərinin təşəkkül tapması bu dövrün ən diqqətçəkən məqamlarındandır. Klassik ədəbiyyatın ənənəvi formaları ilə yanaşı, poeziyada sərbəst şeirin getdikcə aparıcı rola yiyələnməsi bədii fikrin daha intensiv şəkildə ifadə olunması zərurətindən irəli gəlirdi. Məhz bu baxımdan istər Azərbaycan, istərsə də türk ədəbiyyatında yeni şeir şəkli ilə mükəmməl poetik əsərlər yaradan onlarla şair yetişdi. Türkiyə poeziyasının inkişafı və transfermasiyası baxımından ənənə və novatorluq anlayışları olduqca əhəmiyyətlidir. Novatorluq əslində hər zaman ənənənin tənqidini və ya yenilik axtarışını bildirsə də, təkcə şeirin zahiri əlamətlərində özünü göstərmir. Yenilik daha çox mövzuya münasibətdən, ideya istiqamətindən və yeni forma xüsusiyyətlərində əksini tapan ədəbi anlayış kimi qəbul edilir. Ənənəvi poeziya formaları isə poeziyadakı ənənəvi və klassik xüsusiyyətlər, divan ədəbiyyatına daha çox əsaslanırdı. Təbii ki, divan poeziya formaları, rədif, qafiyə, beyt və misra kimi quruluşlarda yazılan şeirlər bu ənənənin təməlini təşkil edirdi. Həmin dövr üçün ənənəvi mövzuların təkrarı da xarakterik sayılırdı. Poeziyada mövzular adətən iki aşiq, sevgili münasibətləri, fəlsəfi düşüncələr, dünyaya və təbiətə sevgi, həmçinin insanın mənəvi dünyası üzərində qurulurdu. Bu mövzular zamanla heç bir novatorluq gətirilmədən təkrarlanırdı. Divan ədəbiyyatı dili əsasən ərəb və fars dili və şeirinin təsiri ilə formalaşan bir dil idi. Ənənəvi poeziyada yaradılan əsərlər zamanla bütün xalq kütləsi tərəfindən başa düşülə bilməsə də, poetik dəyəri bütün dövrlərdə yüksək olub.

Novatorluq anlayışı Türkiyə poeziyasındakı əvvəlki ənənələri sarsıtmış bir yanaşmadır. Poeziyada yayılmağa başlayan novatorluğun əsas xüsusiyyətləri yeni şeir formalarının yaranmasını da şərtləndirirdi. Novator üslubda yazan şairlər, ənənəvi formalarda deyil, yeni üsullar və sərbəst şeir formalarında yazırdılar. Novator şeirin dili əvvəlki saray və aristokrat mədəniyyətinin təsirindən uzaqlaşmaq, daha müasir və demokratik bir üslub yaratmaq məqsədini güdürdü. Bu üslubda yazan modernist şairlər, yeniliklər və modern tendensiyalarla öz yaradıcılıqlarını zənginləşdirmək cəhdində olmuşlar. Bu zaman Avropa ədəbiyyatının təsirindən bəhrələnərək poeziyanın sərhədlərini genişləndirmişlər.

Ənənə və novatorluq anlayışlarına müxtəlif yanaşma mövcud idi. Bir çox şair və yazıçılar öz yaradıcılıqlarında bu istiqamətə daha çox köklənir, bir qrup isə kəskin qarşı çıxır, ənənəyə üstünlük verirdi. Məsələn, sırf milli şair kimi tanınan Mehmet Akif Ərsoy (1873-1936) Qərb imperialistlərinin "mədəniyyət" adı ilə sırımağa çalışdıqları yenilikləri təxribat kimi qəbul edir və kəskin etiraz edirdi:

Qərbin afaqını sarmışsa dəmir zirehli divar;

Mənim iman dolu köksüm kimi sərhəddim var.
Ulusum, qorxma! Necə belə bir imanı boğar
"Mədəniyyət" dediyim tək dişi qalmış canavar? [10, s 15].

Onun ən məşhur əsəri olan *"İstiqlal Marşı"* Türkiyənin milli himni kimi qəbul edildi. Burada vətən sevgisi, milli birlik və istiqlal uğrunda mübarizə ön plandadır. O, poeziyanı bir növ xalqın ruhunu oyatmaq üçün bir vasitəyə çevirdi. Məhmət Akif Ərsoy poeziyaya gətirdiyi bu yeniliklərlə yalnız ədəbi sahədə deyil, eyni zamanda milli şüurun formalaşmasında da mühüm rol oynayıb. Onun şeirləri təkcə estetik zövq üçün deyil, həm də xalqı oyatmaq, cəmiyyətin problemlərinə diqqət çəkmək məqsədilə yazılmışdı. Bu baxımdan o, Osmanlıdan müasir Türkiyəyə keçid dövrünün ən böyük novator şairlərindən biri sayılır. Akifin həm fərdi, həm də ictimai problemlərdən bəhs edərkən şeirlərində işlətdiyi ifadələr oxucuya dərin məna çıxarmaq imkanı verir. Akif "İstiqlal marşı" kimi əsərlərində azadlıq və istiqlal məfhumlarından poetik dildə, metafora və simvollardan istifadə edir. Türk millətinin müqavimətini simvolizə etməklə yanaşı, "Korkma, sönməz, bu şəfəqlərdə dalğalanan qırmızı bayraq" misrasında olduğu kimi, dilinin gücünü də ortaya qoyur. Akifin şeirlərində həm fərdi, həm də ictimai mesajlar var. O, novator yanaşma ilə yazdığı şeirlərində ayrı-ayrı duyğuların bir-birinə qarışdığı bir ifadə tərzi inkişaf etdirmişdir. İstər fərdi iztirablar, istərsə də ictimai bərabərsizliklər onun şeirlərində vahid bir bütöv kimi formalaşır.

Akif təkcə fərdi duyğulara müraciət etmir, həm də cəmiyyətin əhval-ruhiyyəsini araşdırmağı bacarır. Bu texnika onun poeziyasını həm fərdi, həm də ictimai səviyyədə güclü edir. Mehmet Akifin dilində həm sadə, həm də dərin mənalar var. Onun dili kifayət qədər zəngin və ədəbidir, lakin başa düşülənlikdən heç vaxt güzəştə getmir. Akif Ərsoyun işlətdiyi dil vasitəsilə həm ictimaiyyətlə, həm də ziyalılarla əlaqə qura bilməsi onun ədəbi uğurunun açarıdır. O, şeirlərində köhnə türk şeiri ilə əlaqə qurur və müasir türk poeziyasına da öz töhfəsini verir. O, şeirlərində türk xalqının mədəni irsini əks etdirməklə yanaşı, azadlıq, ədalət kimi ümumbəşəri mövzulardan da bəhs edir. Mehmet Akif Ərsoyun şeirlərindəki texniki mükəmməllik onun ədəbi gücünü ortaya qoyan ünsürlərdən biridir. Akif qafiyə və vəzni, məna dərinliyi, məcazları, dil zənginliyi və ictimai tənqidi ilə türk şeirində iz qoyan bir ada çevrilmişdir. Onun şeirləri həm forma, həm də məzmun baxımından böyük ustalıqla yazılmış, hər oxunduqda müxtəlif mənalar daşıyan mətnlərdir. Akif texniki cəhətdən mükəmməl bir şair kimi ədəbiyyat aləmində dərin izlər qoyub.

Dört kıta

Beşerin tapdığı bir kendisinin heykelidir
Dinlemem etse de Allaha bütün gün takdis

Ben bu melun putun altında geberdim, hala
Kabaran kopmuş içimdən: Yaşasın nefsi nefis

Seni bir nura çıkarsam diye koştum durdum
Ey bütün dalgalı ömrümdə hayat arkadaşım
Dağmıdır karşı gelen, taşmı, hep aşdım, lakin
Buruşuk alnıma çarpan bu sefer kendi taşım

Lamekanlardamısın, nerdesin ey qaip İlah?
Dönerim enfüsü afaki ezelden beridir
Serpilib kubbene dolmuş o işık damlaları
Seni yer-yer arayan yaşlarımın izleridir
Tek hakikat var, evet bellediğin dünyadan,
50-60 sene gezdimse de şaşkın-şaşkın
Hepimiz kendimizin bağrı yanıq aşığıyız
Sade ilanı çekilmez bu acaip aşkın.

Mehmet Akif Ərsoyun "Dörd qitə" şeiri onun ədəbi dünyasında mühüm yer tutur və dərin məna qatlarına malikdir. Şeir xüsusilə insanın daxili konfliktlərindən, ekzistensial suallardan və metafizik axtarışlardan bəhs edir. Şair həm fərdi, həm də ictimai müstəvidə mühüm suallar verir, insan ruhunun dərinliklərinə varmağa çalışır. Şeirin ədəbi təhlilini apararkən aşağıdakı elementləri nəzərə ala bilərik: Şeir insanın daxili aləmində yaşadığı ziddiyyətlərdən, Tanrı axtarışlarından dərindən bəhs edir. Birinci beytdən insanın "bütlərlə" və "nəfslə" savaşı təsvir edilir. Mehmet Akif insanın içindəki şərlə mübarizəsindən və bu mübarizənin necə "özünü ələ salmaq" savaşına çevrilməsindən bəhs edir. "Bu, bəşəriyyətin sitayiş etdiyi özünə bir heykəldir". Bu xətt insanın əslində öz "bütinə" sitayiş etməsinin simvoludur. İnsan öz nəfsinin, dünyəvi nəfsinin qulu olub. Burada Akif insanın nəfsini aşmağa çağırış edir. Şeirdə insanların həyat yolunda qarşılaşdıqları maneələr və bu maneələri aşmaq uğrunda apardıqları mübarizə simvolizmlə təsvir edilmişdir. "Qarşı çıxan dağdırmı, həmişə aşaram" sətirləri həyatın çətinliklərini, bu çətinliklərə qarşı hiss olunan müqaviməti simvollaşdırır. Akif həyatın çətinlikləri qarşısında təslim olmayan bir insanı təsvir edir.

– Bu dəfə qırışmış alnıma dəyən öz daşım oldu....

Bu sətir fərdin öz daxili problemləri və mübarizələri ilə üzləşməsini təsvir edir. Burada Akif nəzərdə tutur ki, insanın həyatındakı əngəllər bəzən onun öz daxili münaqişələrindən yaranır. Şeir həm də insanların axtardığı reallıqdan və onu tapmaq üçün göstərdiyi səylərdən bəhs edir. Akif insanların axtardığı yeganə həqiqətin Allah olduğu fikrini vurğulayır. Gerçək

olan yeganə şey onun varlığıdır, qalan hər şey bu reallıqla müqayisədə müvəqqətidir. "Yalnız bir həqiqət var, bəli, xatırladığın dünyadan" Bu bənd insanın dünyada qarşılaşdığı hər şeyin müvəqqəti olduğunu və əsl həqiqətin ancaq Allahda ola biləcəyini ifadə edir. Akif insanları dünyəvi şeylərdən uzaqlaşmağa, mənəvi dəyərlərə üz tutmağa çağırır. Şeir həm də sevginin həm dünyəvi, həm də mənəvi ölçülərindən bəhs edir. Akif insanın özünü "aşiqi" dedikdə, bu sevginin həm fərdi sevgi, həm də Allaha mənəvi sevgi olduğunu nəzərdə tutur. İnsan sevgini, hüzuru kənarda deyil, öz daxilində axtarır. Tək bir əsərinə diqqət etmək kifayət edir ki, Məhmət Akif Ərsoy haqqında fikir söyləmək mümkün olsun. Mehmet Akif Ərsoy türk ədəbiyyatında və mədəniyyətində çox böyük bir yerə sahib olan, milli şair və yazıçıdır. Akifin şeir və yazıları, xalqın mübarizə ruhunu və milli kimliyini simvollaşdırır, həm də onun dövrünün sosial və mədəni problemlərinə dair dərin düşüncələr təqdim edir.

Həmin dövrdə yazıb-yaradan şair və yazıçılar yaxşı anlayırdılar ki, yeniliklər üçün müəyyən mübarizə əzmi lazımdır və öz yaradıcılıqlarında bu əzmi dövrün siyasi mənzərəsi fonunda verməyi bacarırdılar. Bu səbəbdən də 1920-1960-cı illərdə yeni yaranan şeirlərin əsasında həmin dövrün poeziya mənzərəsini anlamaq mümkündür. Məsələn, həmin dövr şairlərin yaradıcılığına diqqət etdikdə Vətən obrazının lirik qəhrəman kimi çıxış etməsi və yeni duyğular və yeni baxış formasına nümunə idi. Onun şeirlərində sosial mövzular, daha çox Türk milliyyətinin tarixini, kimliyini və mədəniyyətini izah etmək üçün istifadə edilir. Yəhya Kamalın milliyyətçilik anlayışında əsas olan, onun şeirindəki milli dəyərlərdir. O, həm türk ədəbiyyatına böyük töhfələr vermiş, həm də türk kimliyini şeirində təcəssüm etdirmişdir.

Yəhya Kamalın (1884-1958) "Bir başqa təpədən" şeirinə baxaq:

Sənə dünən təpədən baxdım, əziz İstanbul
Görmədiyim, gəzmədiyim, sevmədyim heç bir yer.
Ömrüm olduqca könül taxtıma keyfincə qurul!
Sadə bir səmtini sevmək belə bir ömrə dəyər.

Neçə rövnəqli şəhərlər görünür dünyada,
Lakin əfsunlu gözəllikləri sənsən yaradan.
Yaşamışdır deyərəm, ən xoş və ən uzun röyada
Səndə çox yaşayan, səndə ölən, səndə yatan.

Bayatlı həmçinin yenilikçi bir şairdir. O, modernizm axınının tələblərinə uyğun olaraq poeziyasını istifadə etdiyi məzmunda və dilin istifadə tərzində yeniləyir. Bayatlı öz dilini təmizləmək və sadələşdirmək

adına təcrübələr etmiş, ənənəvi poeziyanın sərhədlərini aşmağa çalışmışdır. Onun şeirlərində simvolizm, mistik təfəkkür və azad ifadə kimi yenilikçi elementlər öz yerini tapır.

Yəhya Kamal Bayatlının şeirlərindəki ən mühüm xüsusiyyətlərdən biri də onun hissiyyat və müasirlik anlayışını klassik üslubla birləşdirməsidir. Bu həm əslən ənənəvi, həm də müasir bir şair olduğunu göstərir. O, həm qədim şeir üslublarını, həm də təzə ədəbi cərəyanları əsərlərində birləşdirərək, zəngin və dərin mənalar yaratmışdır. Ümumiyyətlə, Yəhya Kamal Bayatlının şeirlərinin əsas ideyasını, onun əsərlərindəki "millilik" və "modernizm" anlayışları arasındakı uyğunluğu yaratması təşkil edir. O, Qərb mədəniyyətindən aldığı ilhamla öz milli kimliyini inkişaf etdirərək, türk ədəbiyyatının modernləşdirilməsi prosesində müstəsna rol oynamışdır. Yəhya Kamal Bayatlı ədəbiyyatında və dünyagörüşündə Qərb mədəniyyətindən təsirlənərək, ancaq onu öz milli dəyərləri ilə birləşdirərək müstəsna bir sənət dünyası yaratmışdır. O, 1903-cü ildə Parisə getdiyində bir Qərb heyranı və Jön Türklük hərəkatının tərəfdarı idi, lakin zamanla, xüsusilə 1912-ci ildən sonra, öz Türk kimliyini daha dərindən dərk etmiş və bunu şeirlərində daha çox ifadə etməyə başlamışdır. Yəhya Kamalın şeirindəki əsas ideya, Qərbdən əldə etdiyi təcrübə və metodları istifadə edərək, türk xalqının mədəniyyətini, tarixini və kimliyini möhkəmləndirmək və bunları bədii şəkildə ifadə etmək olmuşdur. Yəhya Kamalın şeirlərində milli düşüncə və millətçilik anlayışı çox önəmlidir. O, Türk tarixini və mədəniyyətini öz şeirinin mərkəzinə qoymuş, bu milli kimliyi qorumaq və inkişaf etdirmək məqsədilə tarix, coğrafiya və xalqın simvollarını işləmişdir. Onun milliyyətçilik anlayışında ideal milliyyətçilik yerinə real bir yanaşma var. Yəhya Kamalın anlayışında türk milliyyəti əvvəlcə tarixi və coğrafi bir reallıq olaraq mövcuddur və bu reallıq əsasında formalaşan bir millətin varlığını davam etdirmək lazımdır. Yəhya Kamalın şeirində türk tarixi əsas yer tutur. O, türk milliyyətini, bir çox başqa şairlərdən fərqli olaraq, yalnız romantik bir anlayışla deyil, daha obyektiv və yerli bir şəkildə şərh edir. Türk tarixinin parlaq dövrləri, ən mühüm və qiymətli miras olaraq, milli kimliyin qurulmasında böyük rol oynayır. Yəhya Kamal türk tarixini "qəbl ət-tarix" olaraq qəbul edərək, 1071-ci ildən sonra Anadoluda yaranan bir millətin həyatını və mədəniyyətini tərənnüm edir. Bu yanaşma həmçinin türk milliyyətinin coğrafi hədlərini də özündə birləşdirir. Yəhya Kamalın milliyyətçilik anlayışı həm də coğrafi reallıqla bağlıdır. O, Ziya Gökalpın idealist Turan milliyyətçiliyinə qarşı olaraq, real bir milliyyətçilik anlayışını qəbul etmişdir. Yəni o, türk milliyyətinin yalnız Anatoliya coğrafiyasında formalaşan real bir quruluş olduğunu qəbul edir və bununla bağlı şeirlərində bu reallığı tərənnüm edir. Türk milliyyəti və mədəniyyəti bu coğrafiyada, xüsusən də 1071-ci ildən sonra yaranan tarix və

mədəniyyətin nəticəsi olaraq varlığını davam etdirmişdir. Yəhya Kamal Parisdəki təhsili və Qərb mədəniyyətinə olan heyranlığı ilə tanınır, lakin zamanla o, Qərbdən aldığı bilik və təcrübəni yalnız bir vasitə olaraq istifadə etməyi qərara almışdır. Qərb şairləri və ədəbiyyat cərəyanlarından, məsələn, parnasizm və romantizmdən ilham alaraq öz şeirində bu təsirləri milli bir xarakterə bürüyüb. Parnasizmdən şeir formalarını və ölçülərini götürərək, o, türk xalqının duyğularını, tarixini və özünü bu şeirlərdə ifadə etməyə çalışmışdır. Yəhya Kamalın şeirlərində sosial və iqtisadi mövzular çox az yer alır. O, xalqın yoxsulluğu kimi sosial məsələləri digər marksist şairlərdən fərqli olaraq geniş şəkildə işləməyib. Bunun yerinə, o, milli və mədəni mövzuları daha çox tərənnüm etmişdir. Onun şeirlərində sosial mövzular, daha çox türk milliyyətinin tarixini, kimliyini və mədəniyyətini izah etmək üçün istifadə edilir.

1920-1960-cı illərdə türk şeiri bir sıra yeni cəhətlərlə səciyyəvidir. Bu da, hər şeydən əvvəl, həmin dövrdə yazıb-yaradan şairlərin insana, dünyaya, cəmiyyətə münasibəti ilə meydana çıxır. Həmin dövrün tipik ictimai-siyasi, mədəni-mənəvi mənzərəsinə baxış şeirdə müxtəlif formalarda öz əksini tapırdı. Yeni yaranan şeirlərdə obrazlı poetik təsəvvürlərin təsir dairəsi genişlənsə də, bir çox şeirlərdə bu cəhət ya ritorik pafos, ya da sırf tərənnüm səviyyəsində özünü göstərirdi. Nümunə olaraq, Cahit Sidqi Tarancının (1910-1956) şeirlərinə diqqət etsək, həmin dövr üçün xarakterik olan və cəmiyyətdə hökm sürən rahat psixoloji durumun sanki obrazlarda inikası hiss edilir. Cahit Sıtkı Tarancı türk ədəbiyyatının önəmli şairlərindəndir və müasir türk poeziyasının önəmli adlarından sayılır. Onun şeirlərində həm müasir, həm də ənənəvi elementlər var. Tarancı şeirlərində, ümumiyyətlə, həyatın keçiciliyi, insan tənhalığı, sevgi, ölüm və varlıq kimi ümumbəşəri mövzulara diqqət yetirməklə yanaşı, ənənəvi türk poeziyasının da izlərini daşıyır. Şairin "Məmləkət istəyirəm" şeirində Vətən obrazı daha aydın və işıqlı görünür, insana hüzur vəd edir:

Məmləkət istəyirəm
Göy mavi, budaq yaşıl, tarla sarı olsun,
Quşların, çiçəklərin diyarı olsun.
Məmləkət istəyirəm
Nə başda dərd, nə könüldə həsrət olsun;
Qardaş qardaşının dayağı olsun.
Məmləkət istəyirəm
Yaşamaq və sevmək kimi könüldən olsun;
Olursa tək şikayət ölümdən olsun.

Şeirdə çox sayda simvol və obrazdan istifadə edilmişdir. Göy, yaşıl, sarı rənglər təbiətin və həyatın gözəlliyini simvollaşdırır. Hər rəng həyatın müxtəlif aspektlərini – səmanın azadlığını, ağacların və təbiətin bəsləyici

gücünü və torpağın məhsuldarlığını təmsil edir. Şeirin tonunda ümid, sevgi və arzu var. Şairin arzusu olan vətən, mübarək və sülh dolu bir yer kimi təsvir edilir. Hər bir cümlə, ümumiyyətlə, dərin bir ümid və arzu ifadəsidir. Şair öz doğma yurdunun yalnız təbiətinin deyil, eyni zamanda sosial və emosional vəziyyətinin də mükəmməl olmasını istəyir. Tarancı sadə, lakin təsirli bir dil istifadə etmişdir. Şairin hər bir sətrindəki sözlər, düşündürmə və oxucuya təsir etmə qabiliyyətinə malikdir. Rənglərin və təbiətin təsvirindəki canlı dil oxucunu vətənin gözəlliyi və harmoniyası ilə əlaqələndirir. Cahit Sıtkı Tarancı'nın "Məmləkət istəyirəm" şeiri vətənə olan dərindən bağlılıq və idealizm ilə doludur. Şeir vətənin yalnız coğrafi bir yer olmadığını, həm də insanların münasibətlərinin, həyat şəraitinin və qarşılıqlı sevgisinin bir yeri olduğunu təsvir edir. Şairin yaratdığı bu ideal vətən obrazı həm gözəl təbiət, həm də insanların arasında olan harmoniyaya vurğu edir.

Ümumilikdə onun şeirləri, həm poetik həssaslıq, həm də insanın daxili aləmi ilə bağlı dərindən düşünməyi əks etdirir. Tarancı varlıq, ölüm, zaman, tənhalıq, sevgi və vətən mövzularını işləyib. O, şeirlərində daha çox insanın daxili aləmini, psixoloji durumunu və həyatın mənasını araşdırmışdır. Şairin şeirlərində romantizm və modernizm elementləri bir arada görünür.

Novatorluq meyilləri şairlərin yaradıcılıqlarında diqqət çəksə də, ənənədən bəhrələnmə də eyni dərəcədə özünü göstərirdi. Lakin həmin dövr üçün ənənəvi üsullarda yazılan ədəbiyyat nümunələrində yaradıcı yanaşma daha çox diqqəti çəkir. Məsələn, Sezai Karakoç (1933-2021) klassik ədəbiyyatı sevməsi, ənənəyə bağlılığı ilə diqqət çəksə də, yaradıcılığına özünəməxsus üslub xüsusiyyətləri ilə yeni nəfəs gətirməyi bacarmışdır:

Gözəl ayaqlarım ipəklə bağlı
Mən onun sılası, özümün qürbətiyəm.
Mən Məryəmin yanağındakı tükəm.
Mənim gözlərim yaşıldır, onun gözləri qara..
Mən günah qədər bəyazam, o tövbə kimi qara [1, s 8].

Türkiyə poeziyasında ənənə və novatorluq arasındakı dialoq davam edən bir proses olmuşdur. Şairlər həm keçmişin zəngin ədəbiyyat dəyərlərini qoruyub saxlamaq, həm də modernist üslublara müraciət etməklə Türkiyə poeziyasını həm milli, həm də beynəlxalq səviyyədə önəmli bir sənət sahəsi halına gətirmişdir. Bu gün də Türkiyə poeziyasında ənənə ilə novatorluq arasındakı qarşıdurma və harmoniya davam edir. Müasir şairlər, həm yeni tərzləri, həm də klassik formaları birləşdirərək fərqli poetik təcrübələr yaradırlar. Ənənəvi poeziyanın mövzuları və strukturuna yenilikçi yanaşmalar gətirilir, sosial və fəlsəfi məsələlər daha aktual bir şəkildə şeirə çevrilir. Qısacası, ənənə və novatorluq anlayışları ilə xarakterizə edilən 1920-1960-cı illər Türkiyə poeziyasını müxtəlif ideologiyaların və

təcrübələrin qarşılaşdığı bir mərhələni xarakterizə edir. Həmin dövr üçün poeziyasını yeniliklərlə şərtləndirən və xarakterik olan bəzi mühüm cəhətlərdən biri də Cümhuriyyətin qurulması və sosial dəyişikliklər idi. 1920-ci illər Türkiyənin müasir dövlətə çevrildiyi, cəmiyyətin yenidən qurulmağa başlandığı bir dövrdür. Osmanlı İmperiyasının dağılması yeni türk kimliyinin, dilinin və mədəniyyətinin formalaşmasına yol açdı. Bu dəyişikliklər poeziyaya da təsir etdi. Məsələn, Cümhuriyyət dönəminin ilk ədəbi qrupu “Yeddi məşalə”çilərdir. 1928-ci ildə nəşr etdirdikləri “Yeddi məşalə” adlı dərginin adı ilə adlanan bu qrupa daxil olanlar - Muammer Lütfi Bahşi (1903-1947), Kenan Hülusi Koray(1906-1943) Sabri Esat Siyavuşgil(1907-1968),Ziya Osman Saba(1910-1957), Yaşar Nabi Nayır(1908-1981), Vasfi Mahir Kocatürk (1907-1961), Cövdət Qüdrət Solok (1907-1992), “Beş hecaçıların” şeirinə qarşı çıxaraq, türk şeirinə yeni üfüqlər açmağın vaxtı gəldiyini yazırdılar. Avropaya meyilli olmaqla yanaşı, fransız şeirindən bəhrələnən bu gənc sənətkarların əsas məqsədi şeirdə yenilik yaratmaq olmuşdur.

Həmin dövr üçün xarakterik olan cəhətlərdən biri də ənənədən yaradıcı şəkildə bəhrələnmək idi. Bu həm də məlum xalq şeiri motivlərinə, klassik məzmun və süjetlərə müraciət etməklə, onları eyni səviyyədə müasirləşdirmək və ya daha zəif şəkildə təkrarlamaq olmayıb, onlara istər məzmun, istərsə də forma baxımından nə isə əlavə etməklə zənginləşdirmək demək idi. Bu klassik formalara münasibətdə də özünü göstərir. Ənənəvi formalarda qələmə alınan bədii parçalar yeni və orijinal poetik obrazlarla zənginləşdikdə həmin formanın özü də yeni mahiyyət kəsb edir. Nəticədə poeziya bütövlükdə bir janr kimi inkişaf edib zənginləşir. Qeyd edək ki, novator poeziya oxucunu düşündürür, ənənələri sındırır və yeni bədii üfüqlər açır, müasir şeir ənənəsi Türkiyə poeziyasında yeni forma və mövzuların tətbiqini zəruri edirdi. Bu səbəbdən də həmin dövrdə yazıb-yaratmış şairlərin əsərlərində yaranan yeni meyil və tendensiyaların təhlilinə daha çox diqqət etmək, ənənəvi şeirlə müasir şeir arasında əlaqə, yaxınlıq və fərqləri araşdırmaq lazımdır.

## ƏDƏBİYYAT


1. *Babayeva O.E.* Müasir Türkiyə, türk poeziyasında ənənə və novatorluq: fil. üzrə fəls. ... avtoref. Bakı, AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2017, 26 s.
2. *Əliyeva J.* Çağdaş türk şeirinin poetikası. Bakı: Elm, 2000, 91 s.
3. *Quliyev E.H.* Türkiyə türk ədəbiyyatı (XIX-XX əsrlər) Bakı: Elm və təhsil, 2003, 125 s.
4. *Quliyev E.H.* Türk xalqları ədəbiyyatı: Dərslik. Bakı: Elm və təhsil, 2017, 631 s.

5. *Əhmədli B.* XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Qanun, 2024, 583 s.
6. *Əliyev M.İ* Böyük yolun davamı (Türk xalqları ədəbiyyatına dair araşdırmalar), I kitab, Bakı: Elm və təhsil, 2019, 512 s.
7. *Osmanova B.* Türk poeziyasında "Qarip" şeir cərəyanı. // Şərq filologiyası məsələləri, VI bur., Bakı, 2012, s.427-441
8. *Tağısoy N.* Poetik tərcümə. Bakı: Maarif, 2001, 245 s.
9. Türk xalqları ədəbiyyatı antologiyası: 3 cilddə, III c., Bakı, 2013, 464 s.
10. *Ərsoy M.A* Seçilmiş şiirleri. Türksoy. Ankara, 2023, 139 s.
11. *Ərsoy M.A.* Safahat. İstanbul: Timaş yayınları, 2018, 560 s.
12. Türk dünyası - Şiir Güldestesi 13. İstanbul, 2022, 260 s.
13. *Kolcu A.İ.* Tenzimat edebiyyatı I. İstanbul: Salkımköylü yayınları, 2005, 407 s.
14. *Köprülü F.* Türk edebiyyatı tarihi, VI baskı. Ankara: Akçağı, 2004, 446 s
15. *Yıldız S.* Tanzimat dönemi edebiyyatı. İstanbul: Nobel yayınları, 2006, 258 s.

Redaksiyaya daxil olub 15.02.2025

# İctimai elmlər

*UOT 94*

***Z.M.Qəniyeva***
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*zehra.qeniyeva@mail.ru*

## XVIII ƏSR AZƏRBAYCAN QADINLARININ CƏMİYYƏTDƏKİ YERİ

https://doi.org/10.30546/170899876.72.01.2025.0040

***Açar sözlər:*** *qadın, xanlıq, nikah diplomatiyası, maarif, siyasi fəaliyyət*

XVIII əsrdə yadelli işğalçılara qarşı mübarizədə Azərbaycan qadınlarının göstərdikləri misilsiz qəhrəmanlıq xalqın döyüş tarixinin parlaq səhifələrindən birini təşkil edir. Məqalədə XVIII əsr qadınlarından Tutu Bikə, Xədicə Bikə, Pəricahan xanımın həyatı, siyasi fəaliyyəti, onların idarəetmədə rolundan bəhs olunmuşdur. Qubalı Fətəli xanın arvadı Tutu Bikəni gözəlliyi və intellekti ilə seçilən, dövlət idarəçiliyini bilən zirək qadın kimi təqdim edirlər. Tuti Bikə həmçinin Azərbaycanın vahid bir dövlət ətrafında birləşdirilməsi naminə fikirlər irəli sürən, bu uğurdakı mübarizəni inadla sona qədər davam etdirməkdə Fətəli xanı ruhlandıran bir qadın olmuşdur. Qubalı Fətəli xanın bacısı Xədicə Bikənin başçılığı ilə üsyanın dəf olunması onun idarəetmədə yüksək dühasından, mərd və qoçaqlığından xəbər verir. XVIII əsrin son rübündə siyasi həyatda fəal rol oynamış hökmdar qadınlardan biri Pəricahan xanım haqqında da məlumat verilmişdir.

***З.М.Ганиева***

## СОЦИАЛЬНО-ПРАВОВОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНСКИХ ЖЕНЩИН В XVIII ВЕКЕ

***Ключевые слова:*** *женщина, ханство, брачная дипломатия, просвещение, политическая деятельность*

Беспримерный героизм азербайджанских женщин в борьбе с иноземными захватчиками в XVIII веке является одной из ярких страниц военной истории страны. В статье обсуждаются жизнь, политическая деятельность и их роль в управлении женщин XVIII века Туту Бика, Хадиджа Бика и Париджахан. Туту Бике, жена Губали Фатали-хана, представлена как проницательная женщина, известная своей красотой и умом, умеющая управлять государством. Тути Бика была также женщиной, выдвинувшей идеи объединения Азербайджана вокруг единого государства и вдохновившей

Фатали-хана упорно продолжать борьбу за этот успех до конца. Подавление восстания под руководством Хадиджи Бики, сестры Губали Фатали-хана, показывает ее высокий гений в управлении, мужество и отвагу. Также была предоставлена информация о Париджахан-ханум, одной из правящих женщин, игравшей активную роль в политической жизни последней четверти XVIII века.

***Z.M.Ganiyeva***

## SOCIAL AND LEGAL STATUS OF AZERBAIJAN WOMEN IN THE 18th CENTURY

***Keywords:*** *woman, khanate, marriage diplomacy, enlightenment, political activity*

The unparalleled heroism shown by Azerbaijani women in the struggle against foreign invaders in the 18th century is one of the brightest pages in the people's war history. The article discusses the lives, political activities, and roles of 18th century women Tutu Bike, Khadija Bike, and Parijahan Khanum in governance. Tutu Bike, the wife of Fatali Khan of Guba, is presented as a smart woman distinguished by her beauty and intellect, who knew how to govern. Tutu Bike was also a woman who put forward ideas for the unification of Azerbaijan around a single state and inspired Fatali Khan to continue the struggle for this success until the end. The suppression of the rebellion led by Fatali Khan of Guba's sister Khadija Bike testifies to her high genius in governance, courage, and bravery. Information is also provided about Parijahan Khanum, one of the ruling women who played an active role in political life in the last quarter of the 18th century.

### Giriş

Tarixin qəhrəmanlıq səhifələrinə nəzər saldıqda görürük ki, Azərbaycan qadınının şöhrəti və şərəfli yeri vardır. “Kitabi-Dədə Qorqud” dastanının qəhrəmanı igid Buğaca süd verən ana, Koroğlunun sadiq Nigarı, Qaçaq Nəbinin silahdaşı qoçaq Həcər – Azərbaycan xalqının iftixarıdır. Məğrur, əyilməz bir qızın şərəfinə Bakıda möhtəşəm qala ucaldılmışdır. Azərbaycan xalqı Vətən torpağının ən füsunkar guşələrinə Qızbənövşə yaylağı, Qırx qız bulağı, Gəlin qayası və s. adlar verib.

Tariximizin həssas məqamlarında Azərbaycan xanımlarının göstərdiyi sarsılmaz iradə, əvəzsiz fədakarlıq, sonsuz vətənpərvərlik əsrlər ərzində ənənəyə çevrilmiş və milli dəyərimiz səviyyəsinə yüksəlmişdir. Müasir dövlət quruculuğumuzda, cəmiyyətimizin siyasi-iqtisadi, mənəvi-sosial inkişafının müxtəlif sahələrində yorulmadan çalışan Azərbaycan qadını bu milli dəyərimizə sadiqliyini bu gün də nümayiş etdirməkdədir.

Erkən tarixi dövrlərdə, xüsusilə də, ibtidai insanların sürü halında yaşadığı mərhələlərdə Azərbaycan sakinlərinin mənəvi aləmi haqqında məlumat demək olar ki, çox azdır. Bunları öyrənmək üçün əldə olan hər bir

tarixi tapıntını dəyərləndiririk. Qadın keyfiyyətləri əsasən bizə gəlib çatmış qəbir daşlarının üstündəki yazılarda həkk olunub: “Mömin, pak, təvazökar”. Qədim zamanlardan qadının həyat tərzi haqqında bütöv mənzərə barədə yazılı abidələr də bu silsilədən olan tapıntıdır. Bundan başqa məzar daşlarındakı rəsmlər, ev əşyaları, ev əşyalarının üstündə, evin divar və tavanındakı yazılar vasitəsilə az da olsa, bu haqda təsəvvür yaratmaq mümkündür [2, s.65].

Azərbaycan qadını maarifləndirir, zərifdir, güclüdür, zadəgandır, yaradıcıdır, şəfqətlidir, əzəmətlidir, qürurludur, müdrikdir!

Heydər Əliyev daim qadınlarımıza dəyər vermiş və yüksək qiymətləndirmişdir. İstər sənətdə, istər dövlət işlərində işləyən, istərsə də evdar qadınların mənafeyini həmişə müdafiə etmişdir.

Ailə, qadın və evlilik mövzuları tarixin hər dövründə maraqla qarşılanmış və araşdırılmışdır. Çünki ailə institutu bəşəriyyətin ilk dövrlərindən bu günə qədər olan müddətdə müxtəlif dəyişikliklərə məruz qalaraq varlığını davam etdirmişdir. Ailənin qurulmasının əvəzsiz şərti olan evlilik də tarixin hər dövründə insanların paylaşmasını ön planda tutan və cəmiyyətlərin davamını təmin edən sosial sistemdir.

XVIII əsrin birinci yarısında yadellilərin basqınları, Azərbaycan ərazisində gedən feodal ara müharibələri nəticəsində ölkənin təsərrüfat-ticarət və mədəni həyatı pozulmuşdu. Bu, şübhəsiz ki, maarifın inkişafına da mənfı təsir göstərirdi. Maarif müəssisələrinə bağışlanmış vəqf torpaqları acgöz məmurlar və yerli feodallar tərəfindən zəbt olunurdu. XVIII əsrdə Azərbaycanda elm sahəsində elə bir ciddi irəliləyiş baş verməmişdir. Coğrafiyaşünas alimlər Hacı Zeynalabdin Şirvani və onun kiçik qardaşı Hacı Məhəmmədəli Şirvani, habelə tarixçi Əbdürrəzzaq bəy o dövrün tanınmış şəxsiyyətlərindən idi [1, s.420].

Yadelli işğalçılara qarşı Azərbaycan xalqının öz azadlığı uğrunda uzun illər boyu inadlı və qəhrəmancasına mübarizəsi nəticəsində Azərbaycan xalqı XVIII əsrin ortalarına yaxın istiqlaliyyət qazanmışdı. 1747-ci ildə Nadir şahın vəfatından sonra, Azərbaycan şah hakimiyyətindən xilas olmuş və bir çox yerli xanlıqlara bölünmüşdü. Lakin Azərbaycan xanları xalq kütlələrinin iradəsinə zidd olaraq hakimiyyət üstündə bir-biri ilə qanlı feodal müharibələri aparırdılar. Bu müharibələr ölkənin məhsuldar qüvvələrinin inkişafına olduqca mənfi təsir edir və zəhmətkeş camaatın vəziyyətini son dərəcə ağırlaşdırdı. Azərbaycanda xanlıqlar və qəbilələr arasındakı müharibələrin qanlı faciələrinə son qoymaq üçün ölkənin feodal dağınıqlığını aradan qaldırmaq və onu siyasi cəhətdən birləşdirmək lazım idi. Azərbaycanı vahid bir dövlət daxilində birləşdirmək təşəbbüsünü Quba xanı Fətəli xan öhdəsinə götürdü. Fətəli xan (1735-1739-cu illər) XVIII əsrdə Azərbaycanda ağıllı, qoçaq, alim bir adam və mahir siyasi xadim idi. Fətəli

xan Azərbaycanı birləşdirmək uğrunda 30 il yorulmadan mübarizə aparmışdır. Bu mübarizədə Fətəli xanın mərd və qoçaq arvadı Tuti Bikə ona böyük kömək etmişdir. Bir çox tarixi mənbələrdən aydın görünür ki, Tuti Bikə Azərbaycanın vahid bir dövlət ətrafında birləşdirilməsini özünün ən yüksək idealı hesab etmiş, həyatının mənasını bu arzunun yerinə yetirilməsində görmüş və bu uğurdakı mübarizəni inadla sona qədər davam etdirməkdə Fətəli xanı ruhlandırmışdır [4, s.21].

**Əsas hissə**

Tarixin müxtəlif dövrlərində dövlətlərin siyasi münasibətlərində mühüm xidmətləri olmuş hökmdar qadınların adlarına rast gəlinir. Bəhs edilən dövrdə belə bir fikir irəli sürülmüşdür ki, XVIII əsr Rusiyada qadın hökmranlığı kimi tarixə məlumdur. Azərbaycanda isə bu dövrdə qadınların dövlət idarəçiliyi ilə əlaqədar maraqlı faktlar mövcuddur.

Qadın hərəkatının tarixinə nəzər saldıqda, mücərrəd "qadın" kateqoriyasından konkret "qadın" anlayışına yönələn bir mübarizənin var olduğunu görürük. Qadın mübarizəsinin tarixi çox qədimlərə gedib çıxsa da, görünən odur ki, daimi və ciddi səylər XVIII əsrdən başlamışdır. Hər mədəniyyətdə qadının vəziyyətinin ən mühüm göstəricisi; qadınların iqtisadi həyatda iştirakı, onların əmlak üzərində nəzarəti və hansı məhsullar istehsal etməsindən gedir.

Qadınlar da müəyyən istedadları ilə saraydakı rəqibləri arasında seçilmək, şahları heyran etmək üçün özlərini daim hər sahədə inkişaf etdirirdilər. Saray xacələri arasından seçilən müəllimlərdən təhsil almış qadınlar, xüsusilə fiqh, yazı yazmağı, müxtəlif oyun və bacarıqları öyrənmişdilər [6, s.227].

XVIII əsr ziyalı, müdrik qadınlarından biri də Qubalı Fətəli xanın bacısı Xədicə Bikə idi. O, 1740-ci illərin ortalarında Quba şəhərində anadan olmuşdur. Digər xan qızları kimi onun uşaqlığı və gəncliyi haqqında da heç bir məlumat qalmamışdır. Bütün mənbələr onun çox ağıllı, gözəl, iradəli qadın olduğunu göstərir. Ona görə də, Qafqazın bir çox xanları onunla evlənmək təşəbbüsündə olmuşdular. 1765-ci ildə Şimali Qafqazın güclü xanlıqlarından olan Qaraqaytağın usmisi Əmir Həmzə bacısı Tutu Bikəni Qubalı Fətəli xana o şərtlə ərə verir ki, o da əvəzində Xədicə Bikə ilə evlənməsinə razılıq versin. Ancaq Fətəli xan sözündən dönür və bacısını Məlik Məhəmməd xana verib Bakını özündən asılı vəziyyətə salmışdır. Cəsur, siyasətçi, müdrik qadın olan Xədicə Bikə az bir vaxtda Bakı xanlığının əsas idarəedici simasına çevrilir. Bakı xanı o qədər ürəyiyumşaq, təmiz, dindar, sakit biri idi ki, bununla razılaşırdı. Hətta Xan həyat yoldaşına o qədər çox arxayın idi ki, Məkkəyə, ondan sonra isə Kərbəla ziyarətinə gedərkən xanlığın idarəsini məhz Xədicə Bikəyə tapşırır. Tarixi faktlara əsasən, xan 1779-cu ildə qaynı Fətəli xanla Qarabağ xanı arasındakı

ziddiyyəti aradan qaldırmaq məqsədi ilə Şuşaya gedir. Qarabağlı İbrahimxəlil xan onu həbs etdirir. Onun Şuşa zindanında olduğu iki il ərzində də xanlığı yenə Xadicə Bikə idarə edir. Bu haqda həmin dövrdə Bakıda olmuş rus səyyahları Burnaşov və Qmelin də məlumat verir [8].

1780-ci ildə Rusiya hökumətinin İrana səfir təyin etdiyi Tumanovski yolüstü Bakıda olmuş və öz səfər gündəliyində belə qeyd aparmışdır: "Hazırda Bakıda hakimiyyət xanın arvadına məxsusdur və dövləti xanın adından idarə edir. Xədicə Bikənin təkidi ilə Bakının qala divarları xeyli qüvvətləndirilir və onun divarları üzərinə 40 top qoyulur". Samuel Qotlib Qmelin isə belə yazır: *"Xanın indi yaşadığı ürəkaçan bağı olan ev dənizin lap yaxınlığında, başqa binalardan aralı yerləşirdi. Mən orada olarkən xan iki arvadı ilə o evdə yaşayırdı".* Burnaşovun verdiyi məlumata əsasən isə Məlik Məhəmməd 1774-cü ildə Fətəli xan tərəfindən Şamaxı yaxınlığında döyüşərkən Usmi Əmir Həmzə Bakıya hücum edir. Lakin çox güman ki, Xədicə Bikənin başçılığı ilə bakılılar hücumu dəf edirlər. Xədicə Bikənin xahişinə əsasən, Fətəli xan Bakını pul vergisindən azad edir və Saray kəndində hərbi hissə yerləşdirir. Xədicə Bikənin oğlu Mirzə Məhəmməd 1791-ci ildə əmisinə məğlub olaraq anası ilə birgə Qubaya sürgün edilir. Xədicə Bikənin məsləhəti ilə 1789-cu ildə Mirzə Məhəmməd dayısı qızı, Şeyx Əli xanın bacısı ilə evlənmişdir. O, Şeyx Əli xanın köməyi ilə hakimiyyətini bərpa edir. Lakin 1795-ci ildə o qəti olaraq məğlub olub Qubaya gedir və burada da vəfat edir. Xədicə Bikə də Qubada qalır və siyasətdən tamam uzaqlaşdığı üçün ölüm tarixi dəqiq bilinmir [3, s.7-79]. Xanbikə xanım Azərbaycan xanlıqlar dövründə qısa bir müddət Dərbənd şəhərini idarə etmiş qadın siyasətçilərdən biri olmuşdur. Onun 1770-ci ildə doğulduğu güman edilir.

Türklərdə ailənin, ailə içərisində də qadının böyük yeri və əhəmiyyəti vardır. Türk xalqlarında ailə müasir hüquq anlayışına uyğun olaraq mülki hüquq prinsipləri əsasında qurulmuşdur. Qadınlar və kişilər bərabər hüquqlara malikdirlər. Kişi və qadın bərabərliyinin təmin edilməsi sosial uzlaşmanın ən mühüm şərtlərindən biridir.

Atatürk ailənin cəmiyyətdəki yerini və əhəmiyyətini bu sözlərlə izah edir: "Mədəniyyətin əsası, tərəqqinin və gücün əsası ailə həyatındadır. Bu həyatda fitnə-fəsad mütləq sosial, iqtisadi və siyasi deqradasiyaya səbəb olur.

Osmanlılarda toy və qadınlarla bağlı bəzi ənənələrin uzun əsrlər keçməsinə baxmayaraq, xüsusilə kiçik bölgələrdə və kənd yerlərində müasir dövrdə də davam etdiyinin şahidi oluruq. Məsələn, Manuel Serrano Y.Sanzın 1552-1556-cı illərə aid əsərindəki məsələlərin bu gün də var olduğunu aydın görürük. O dövrün nikah mərasimləri hələ də mövcuddur. Müəllifin ozamankı bəhsinə görə, gəlin öz cehizi ilə kişinin evinə gəlir.

"Ancaq bu çox ehtimal olunan hadisədən əvvəl gəlinin anası ev-ev gəzərək hamını toya dəvət edir. Qarşılama nağara və zurna ilə olur. Ziyafətdən sonra qadınlar gəlinə xına çəkər, gec saatlara qədər çalıb, oynayıb əylənərdilər. Atlı, alətli, çalğılı və qadınlı, kişili qruplar gəlini bəy evinə gətirirlər. Qaranlıq düşən kimi isə geri qayıdarlar". Bu o deməkdir ki, bu qədər müddət keçməsinə baxmayaraq, ənənələri qoruyub saxlamaq mümkün olmuşdur [7, s.90-92].

Azərbaycanda XVIII əsrin son rübündə siyasi həyatda fəal rol oynamış hökmdar qadınlardan biri də Pəricahan xanım idi. O, Quba və Dərbəndin hakiməsi idi. Quba xanı Fətəli xanın siyasətdə fəal iştirak edən övladlarından biri də qızı Pəricahan xanım olmuşdur. Mənbələrdə onun adı həmçinin Pərixan xanım və ya Cahan Pəri kimi də xatırlanır. Onun haqqında ilk məlumata Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində rast gəlinir. Təqribi hesablamalara görə, Pərixan xanım 1770-ci ildə anadan olmuşdur. Lakin başqa xan qızları kimi onun da nə zaman və harada anadan olması, uşaqlıq dövrü haqqında heç bir məlumat qalmayıb. 1796-cı ilin may ayında Fətəli xanın qızı Pəricahan xanım Dərbənd və Qubanın hakiməsi elan olunmuşdur. Pəricahan xanım atasının ölümündən sonra şamxallığa keçmiş Mehdi bəyə ərə gedir. O, Fətəli xan sülaləsinin əsrlər boyu toplamış olduğu malları və qiymətli əşyaları özü ilə apararaq digər vərəsələri bundan məhrum edir. Pəricahan xanım kiçik bacısı Çimnaz xanımı da Şeyx Əli xandan icazəsiz Rüstəm Qadinin oğlu Abdulla bəyə ərə verir. Həsən xan da qardaşının qorxusundan Qaytağa qaçır. Onların anası Hürzat xanım isə övladlarının narazılığına əhəmiyyət verməyib qohumu, məşhur İlisu əmirlərindən olan Usmi Rüstəm xana ərə gedir. Şeyx Əli xan dağlardan enərək boş qalmış evinə dönür. Pəricahan xanım siyasətdən uzaqlaşıb asudə və firavan yaşayır [3, s.81-87].

Qadının ənənəvi rolları haqqındakı mülahizələrə qarşı çıxan tədqiqatçılardan biri məşhur psixoloq, Z.Freydin tələbəsi olmuş Karon Xornidır (1885-1952). Dünya psixoanaliz məktəbinin görkəmli nümayəndələrindən və qadın psixologiyasının tanınmış tədqiqatçılarından olmuş alim hələ 1934-cü ildə yazırdı: *"Qadının müstəqillik əldə etmək, öz maraq və fəaliyyət dairəsini genişləndirmək cəhdləri, hər zaman ənənəvi skeptizmlə qarşılaşmalı olur. Əksəriyyət belə hesab edir ki, bu cəhdlər yalnız iqtisadi zəruriyyət qarşısında edilməlidir, çünki əks təqdirdə həmin səylər qadının daxili mahiyyətini və onun təbii xarakterini təhrif edir. Beləliklə, bütün bu cəhdlər həyati əhəmiyyət kəsb etməyən səylər kimi qiymətləndirilir, qeyd edilir ki, qadının bütün istəyi kişilər və analıq statusu ətrafında cəmləşməlidir* - yəni məşhur Marlen Ditrixin bir mahnısında olduğu kimi: "Mən məhəbbətdən başqa heç nə tanımıram..."

Dünyanın bütün ölkələrində, o cümlədən Azərbaycanda qadına hər zaman birmənalı olaraq böyük hörmət hissi bəslənilmişdir.

Xanlıqlar dövründə Səfəvilərdən fərqli olaraq, qadınların nikah zamanı belə fikri nəzərə alınmırdı. Bu da artıq dövr dəyişdikcə vəziyyətin irəliyə doğru deyil, geriyə getdiyini göstərir. Bu dövrdə qadınların rolu xanlıqlararası siyasi vəziyyətin tənzimlənməsində daha aktual idi. Bu da özünü nikah diplomatiyasında göstərirdi. Bunlardan biri də Quba xanı Fətəlinin həyat yoldaşı Tuti Bikə ilə olan izdivacıdır. Bu izdivac Tuti Bikənin siyasi fəaliyyətinə yol açmışdır. Dövrün qadınlarla bağlı mühüm hadisələrindən biri də Qarabağ xanı İbrahimxəlil xanın müharibənin baş verməməsi üçün qızı Ağabəyim ağanı İran şahı Fətəli şah Qacarla evləndirməsi olmuşdur. Araşdırma əsasında aydın olur ki, Ağabəyim ağanın nikahı yalnız siyasi xarakter daşımışdır.

Bütün Şərqdə ta qədimdən, hətta demokrat yazıçıların dövründən başlayaraq qadın təhsili, qadın azadlığı məsələsi böyük əhəmiyyət daşımışdır. Hətta belə bir aksioma o dövrdə mövcud olmuşdur ki, "Yalnız azad, yüksək təhsil görmüş ana azad vətəndaş yetirə bilər". Ona görə də maarifpərvər insanlar, maarifçilər istər Azərbaycanda, istərsə də Yaxın Şərq ölkələrində daima vurğulamışlar ki, cəmiyyətin inkişafını istəyənlər bu millətin anasını azad etmək və ona yüksək təhsil vermək məsələsini üstün tutmalıdır.

Azərbaycan qadınları tarix boyu müdrik, vətənə, torpağa sədaqətli, cəsur və qorxmaz olmaqla bərabər, bir çox çətin vəziyyətlərdə düzgün yol seçməyi bacarmış, uzaqgörən siyasət yeridərək, kişiləri də bu yola istiqamətləndirmişlər.

XVIII əsrdə Azərbaycanın görkəmli maarifpərvər qadınlarından olan Xəlisə qarını ilk kitabxanaçı qadın hesab etmək olar. Xəlisə qarı dövrün savadlı ziyalılarından olmuş Hacı Bayramın ailəsində dünyaya gəlmiş, uşaq yaşlarından xüsusi istedadı ilə seçilmişdir. Kitaba sonsuz maraq bəslədiyindən yaxınları ona müxtəlif kitablar hədiyyə etmiş və ya qiymətli əsərlərin üzlərini köçürmüşlər. Xəlisə 17 yaşında İstanbulda təhsil almış Məhəmməd adlı şəxslə ailə qurmuşdur. Ərinin savadlı və alicənab olması onun kitabxanasının daha da zənginləşməsinə şərait yaratmışdı. Xəlisə qarı el ədəbiyyatına, xalq yaradıcılığına böyük həvəs göstərmiş, çoxlu miqdarda xalq ədəbiyyatı nümunələri toplamış və yazıya almışdı. Hal-hazırda AMEA Əlyazmalar İnstitutunda saxlanılan iki mindən çox adda əlyazma və qədim çap kitabı, arxeoqrafik sənədlər – orta əsr yazılı abidələri Xəlisə qarının bizə qoyub getdiyi zəngin irsidir. Xəlisə qarı evindəki kitabxananı sonralar ibtidai məktəbə çevirmişdir. O, dərin biliyi və nəcib əxlaqi keyfiyyətləri ilə Şəkidə böyük nüfuz qazanmışdır [9].

Xanlıqlar dövründə ən çox istifadə edilən vasitələrdən biri də Evlilik Diplomatiyası idi. Bu diplomatiyadan istifadə edənlər arasında Qarabağ

xanlığının da olması o dövr üçün təbii idi. Onlar öz məqsədləri üçün daha güclü feodallarla qohumluq əlaqələri yaratmaqda maraqlı idilər [5, s.169]. Bu münasibətlə Xanlıq öz mövqelərini möhkəmləndirdi. Bu evliliklər müttəfiqlik əldə oluna bilməyən dövlətlərə qarşı birlik yaradaraq güc əldə etmələrini təmin etdi. Qarabağ xanlığında siyasi nikahların sayının özünü göstərdiyi dövr Pənahəli xanın ölümündən sonra taxta çıxan İbrahim Xəlil xanın (1759-1806) hakimiyyəti dövrünə təsadüf edir. Azərbaycan sərhədlərindən Kaplankuyuya qədər Qaradağ, Şəki, Şirvan, Gəncə, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və İraqın hakimi olmuşdur [5, s.57].

XVIII əsrdə Şərqdə ziyalı və dahi qadın şəxsiyyət kimi tanınan Qarabağ xanının qızı Ağa Bəyim ağa Tuti həmin dövrdə və Qacar şahı Fətəli şahın hakimiyyəti zamanında nümunəvi simalardan biri idi. Ağabəyim ağa Şah idarəetmə formasının aparıcı qüvvəsi hesab olunurdu.

Azərbaycan qadını öz idarəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynamışdır.

**Nəticə**

XVIII əsrin ikinci yarısında meydana çıxan xanlıqlar dövründə saray xanımları Səfəvilər dövründəki saray xatunları qədər Türk-İslam mədəniyyətinin əsasları üzərində olduğu kimi yetişdirilmişlər. Bu dövrdəki saray xanımları yüksək rəhbər vəzifələrdə olan insanların qız övladları olduqları üçün lazımi təhsil almışdılar. Diplomatik yollarla evlənən qadınlar evləndikdən sonra tapşırdıqları işlərdə öz istedadlarını nümayiş etdirərək uğur qazanmışdılar. Saray xanımları xanlığın içində baş verən bütün ictimai-siyasi fəaliyyətlərdə rol oynayırdılar. Azərbaycan xanlıqlarında belə fəal vəzifələr icra edən qadınların rolu şübhəsiz ki, Quba xanlığında da yüksək səviyyədə olmuşdur. Bu dövrə aid yazılı sənədlərin əksikliyindən dolayı saray xanımlarının təhsil və sosial fəaliyyətlərdə hansı səviyyədə olduqları barədə məlumat əldə etmək mümkün deyil. Əldə edilən məlumatlar daha çox müəyyən xanlıqların saray xanımlarının hərbi xidmətdə iştirakı ilə bağlıdır.

Bu gün Azərbaycanda gender bərabərliyinin təmin edilməsi və qadınların səlahiyyətlərinin genişləndirilməsi ölkə siyasətinin prioritetlərindən birini təşkil edir. Qadınlar üçün uyğun şəraitin yaradılması, ictimai-siyasi, sosial-iqtisadi həyatın müxtəlif sahələrində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm addımlar atılır. Təbii ki, istənilən ölkədə, o cümlədən Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlər qadınların daha azad və xoşbəxt olması, onların cəmiyyətin bütün sahələrində böyük uğurlar qazanması, bunun nəticəsində bəşəriyyətin yüksəlməsi üçündür. Necə ki, vaxtilə Azərbaycan ədəbiyyatının romantizm

cərəyanının əsas nümayəndəsi Hüseyn Cavid demişdir: "Qadın gülərsə, şu issız mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək".

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 clddə, III c. (XIII-XVIII əsrlər), Bakı: Elm. 2007, 592 s.
2. *Ağayeva K.* Azərbaycanda gender məsələləri. Bakı, 2014, 416 s.
3. *Hüseynli A.* Azərbaycanın qadın hökmdarları. Bakı: Nərgiz, 2012, 100 s.
4. *İbrahimov Z.* Azərbaycan qadınlarının qəhrəman keçmişindən. Bakı, 1943, 48 s.
5. Qarabağnamələr: 2 hissədə, I kitab. Bakı: Şərq-Qərb, 2006, 216 s.
6. *Kampfer E.* Sefernâmeyi Kampfer. (K. Cihandari, Çev.) Tahran: İntişarati Harezmî, 1363, 227 s.
7. *Serrana, Manuel y. Sanz.* Türkiye'nin Dört Yılı, (Çeviren: Aysel Kurutluoğlu), İstanbul: Tercüman 1001 Temel Eser, s.90-92
8. *Гмелин С.Г.* Путешествие по России для исследования трех царств: в 3-х частьях, III ч., вторая половина 1785 г. (3), СПб.: Ижд. Имп. Акад. Наук, 336 с.
9. https://science.gov.az/az/news/open/28296


Redaksiyaya daxil olub 03.03.25

*UOT 94(479.24)*

***N.R.Məmmədov***
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*mamedov-n@yahoo.com*

# QUBADLIDA ERMƏNİ SEPARATİZMİ: SOYQIRIMI VƏ REPRESSİYALARA QARŞI XALQ ÜSYANLARI (1920-ci illər)

https://doi.org/10.30546/170899876.72.01.2025.0045

***Açar sözlər:*** *Azərbaycan, erməni vandalizmi, soyqırımı, Qubadlı, xalq üsyanları, repressiya*

1920-ci il 28 aprel istilası Şimali Azərbaycanın müstəqil dövlətçiliyin itirilməsi ilə nəticələndi. Azərbaycan faktiki olaraq yenidən Rusiyanın əyalətinə çevrildi. Bolşevik istilası nəticəsində təkcə müstəqil dövlətçilik deyil, həm də tarixi torpaqlarımız da itirildi. Azərbaycanlılar kütləvi şəkildə qarət və qırğınlara məruz qaldı. Ənənəvi mülkiyyət münasibətlərinə zərbə vuruldu. Bununla barışmayan minlərlə azərbaycanlı ya öldürüldü, ya sürgün olundu, ya da ölkədən mühacirət etməyə məcbur qaldı. Bütün bunlar Qubadlıda açıq silahlı çıxışlara gətirib çıxardı. Lakin bu çıxışlar qan içində boğuldu. Qubadlı üsyanı xalqın istiqlal ideyalarının sönmədiyini nümayiş etdirməklə gələcək nəsillər üçün örnək rolunu oynadı.

***Н.Р.Мамедов***

# АРМЯНСКИЙ СЕПАРАТИЗМ В ГУБАДЛЫ: НАРОДНЫЕ ВОССТАНИЯ ПРОТИВ ГЕНОЦИДА И РЕПРЕССИЙ (1920-е гг.)

***Ключевые слова:*** *Азербайджан, армянский вандализм, геноцид, Губадлы, народные восстания, репрессии*

28 апреля 1920 года привело к потере независимой государственности Северного Азербайджана. Азербайджан фактически снова стал провинцией России. В результате большевистского нашествия не только независимая государственность, но и наши исторические земли подверглись массовым грабежам и резне. Все это привело к открытым вооруженным демонстрациям в Губадлы. Но эти выступления были потоплены в крови. Восстание в Губадлы послужило примером для будущих поколений, продемонстрировав, что идеи независимости народа не угасли.

***N.R.Mammedov***

# ARMENIAN SEPARATISM IN GUBADLI: POPULAR UPRISINGS AGAINST GENOCIDE AND REPRESSION (1920s)

***Keywords:*** *Azerbaijan, Armenian vandalism, genocide, Gubadli, popular uprisings, repressions*

April 28, 1920 led to the end of independent statehood of Northern Azerbaijan. Azerbaijan actually became a province of Russia again. As a result of the Bolshevik invasion, not only independent statehood, but also our historical lands were subjected to mass robberies and massacres. All this led to open armed demonstrations in Gubadli. But these demonstrations were drowned in blood. The uprising in Gubadli serve as an example for future generations, demonstrating that the ideas of independence of the people had not died out.

**Giriş.** Aprel istilasından sonra bolşeviklər Azərbaycan SSR-də tam bir işğal rejimi qurdular. Onlar siyasi rəqibləri ilə yanaşı, hərbçilərə, ziyalılara və din xadimlərinə də amansızlıqla divan tuturdular. 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna qədər sovet cəza orqanları 48 min nəfəri məhv etdi. Onların əksəriyyətini ziyalılar və hərbi kadrlar təşkil edirdi. Milli hökumətin baş naziri Nəsib bəy Yusifbəyli Kürdəmirdə, ilk Baş naziri Fətəli xan Xoyski və Cümhuriyyət Parlamentinin sədr müavini Həsən bəy Ağayev erməni terrorçuları tərəfindən Tiflisdə öldürüldülər. XI Qırmızı Ordunun əsgər və zabitləri azərbaycanlı əhalinin evlərinə soxulur, istədikləri şəxsi həbs edir, hətta güllələyirdilər. Zinət əşyaları, xalçalar, qiymətli qablar, mebellər qatarlara və gəmilərə yüklənib Sovet Rusiyasına göndərilirdi. Bolşeviklərin Azərbaycanda törətdiyi qırğın və talanlar 1918-ci ilin mart hadisələrini xatırladırdı. Bakıda baş verən terror və soyğunçuluq əməlləri Qubadlıda daha ağır formada təkrar olunurdu. Çevrilişdən sonra bolşeviklərlə əlbir olan ermənilər Qubadlıda 10-dan artıq azərbaycanlılar yaşayan kəndi yandırdılar. Bu zaman çoxlu qadın və uşaq öldürüldü. Azərbaycanlı əhali içərisində Sovet hakimiyyətinin nüfuzdan düşməsi haqqında N.Nərimanovun Moskvaya göndərdiyi həyəcan dolu məktublara məhəl qoyan yox idi. Çünki mərkəz Azərbaycanda nələr törədildiyini yaxşı bilirdi. Bütün bunlar çox qısa müddətdə sovet rejiminə qarşı üsyanlara səbəb oldu.

**Qubadlıda Sovet hakimiyyətinin qurulması.** Azərbaycanda işğalçılıq siyasətini həyata keçirən bolşeviklər keçmiş Rusiya imperiyasını bərpa etmək məqsədilə 1920-ci il aprelin 28-də Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının yarandığını elan etdilər [2, s.1, i.78, v.2]. Doğrudur, xalqın narazı olacağından qorxan bolşeviklər öz işğalçılıq siyasətini pərdələmək üçün Azərbaycanı "müstəqil" Sovet Sosialist Respublikası elan etsələr də, əslində aprel çevrilişindən sonra Azərbaycan öz dövlət müstəqilliyini itirdi.

"Müstəqil Azərbaycan Respublikası" şüarı altında bolşeviklərin XI Qırmızı Ordu hissələri qısa bir müddətdə ciddi müqavimətə rast gəlmədən Azərbaycanın əksər ərazilərini öz nəzarəti altına aldılar [1].

1920-ci ilin martında A.İ.Mikoyan Moskvada bir qrup Ermənistan nümayəndəsini qəbul etdi. A.İ.Mikoyan bildirdi ki, əgər sovet qoşunları Bakıya daxil ola bilərsə, onda Ermənistan dövləti də öz məqsədinə çatacaqdır. Bakının asan yolla ələ keçirilməsi üçün burada yerləşən Milli Ordunun çıxarılması tələb olunurdu. Ona görə də daşnak cəlladının göstərişi ilə Qarabağa erməni müdaxiləsi yenidən başlandı. Erməni daşnak hökuməti bildirirdi: "Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq Ermənistan olmalıdır" [18, s.80]. 1920-ci il 22 martda başdan-ayağa silahlanmış güclü, təlim görmüş nizami erməni ordusu Şuşaya daxil olub amansız qırğınlar törətdi. Həmin gün minlərlə dinc əhali daşnak quldurları tərəfindən öldürüldü və təkcə Şuşa şəhərində 1700 bina yandırılmışdı. Şərəf və ləyaqətin tapdalanması, qadına, qocaya, uşağa aman verilmədən qırılması adi hala çevrilmişdi [11, s.1, i.190, v.68]. Qarabağda baş verən bu qırğının qarşısını almaq üçün Azərbaycan Milli Ordu hissələri 1920-ci il aprelin 26-da bölgəyə daxil oldu [13]. Təcavüzkar erməni quldur dəstələri müvəqqəti olaraq ərazidən uzaqlaşdı. Lakin Şimal sərhədlərimizdəki yaranmış boşluqdan istifadə edən XI Ordu hissələri Azərbaycan sərhədlərini keçdi [15, s.2, i.76, v.16].

Mərkəzdə hakimiyyəti ələ keçirən XI Qırmızı Ordu Azərbaycanın bütün ərazisini zəbt etmək üçün 1920-ci il mayın 1-dən respublikanın daxili əyalətlərinə "Zəfər yürüşü"nə başladılar. 1920-ci il mayın 12-də Q.Orconikidzenin başçılığı ilə XI Ordu Şuşaya daxil oldu [3, i.170, v.96]. XI Qırmızı Ordu hissələri Qarabağa daxil olarkən heç bir müqavimətə rast gəlmədi.

1920-ci il mayın 26-da Tağverd kəndində Qarabağ kəndlilərinin X qurultayı çağırıldı. Qurultayda hakimiyyətin Qarabağ İnqilab Komitəsinin əlinə keçdiyi elan edildi. Qarabağ İnqilab Komitəsinin sədri vəzifəsinə Sako Ambarsumyan seçildi [6, i.701, v.29]. Rus və erməni silahlı dəstələrinin köməyi ilə Qarabağın bütün şəhər və kəndlərində qısa bir müddətdə hakimiyyət İnqilab Komitəsinin əlinə keçdi. İnqilab Komitəsi bölgədə yerləşən Müsavat silahlı qüvvələrinin ləğv olunması işinə başladı [12].

1920-ci il iyunun əvvəllərində Qırmızı Ordunun 32-ci diviziyasının ayrı-ayrı hissələri Qubadlı ərazisinə daxil oldu. Komandir Ratnikin süvari əsgərlərinin iştirakı ilə 1920-ci il iyunun 24-də ərazidə Zəngəzur Qəza Bolşevik Komitəsinin katibi Akop Kamari kommunistlərin iclasını çağırdı. Qarabağın və Zəngəzurun Fövqəladə Komissarı Cəmil Vəzirovdan XI Qırmızı Ordunun bölgəyə göndərməsini xahiş etdi. Çünki burada Dro və Nijdenin quldur dəstələri Zəngəzur bölgəsində yerli dinc əhalini güllələyir,

onları qarət edir, bir hissəsini öz tərəfinə çəkir və əsassız ərazi iddiaları irəli sürürdülər. 1920-ci il iyulun 1-də 32-ci süvari diviziyasının hissələri Gorusa daxil oldu. Zəngəzurda yeni Fövqəladə Komissar vəzifəsinə təyin edilmiş Armenak Qaragözov bölgəyə gələrək 1920-ci il iyulun 5-də Zəngəzur Qəza İnqilab Komitəsinin yaradıldığını elan etdi. Qəza İnqilab Komitəsinin tərkibi aşağıdakı kimi müəyyənləşdirildi: Akop Kamari (sədr), Mixail Çalyan (sədrin köməkçisi), Xristofor Mkrtıçyan (katib) və Levon Arustamyan (inqilab komitəsinin üzvü) seçildilər. Onların hamısı köhnə, təcrübəli partiya üzvləri idi.

Bir qədər keçdikdən sonra inqilabi komitənin sədri Ayrapet Tatyan oldu, Akop Komari partiya işinə keçdi. İnqilab komitə yanında aşağıdakı şöbələr yaradılmışdı: daxili idarə, maarif, ictimai təminat və səhiyyə, torpaq, ərzaq, müsadirə, xalq təsərrüfat şurası, rabitə və teleqraf, yol və evlər idarəsi.

Lakin 1920-ci il iyulun 30-da Nijdenin Qafanı, Dronun Gorusu tutması ilə Kommunist rəhbərlərin bir hissəsi Qarabağa, digər bir hissəsi isə Qubadlıya köçdü. Bu zaman bölgədə yerli dinc əhali tərəfindən xilaskar kimi qarşılanan Qırmızı Ordu döyüşçülərinin soyğunçu, quldur, işğalçı hərəkətləri, hakimiyyətdə olanların qarətçilik siyasəti, varlı adamların, o cümlədən ziyalıların evlərində kütləvi şəkildə axtarışlar aparılması, əmlakların müsadirə edilməsi, insan ləyaqətinin tapdalanması və təhqirlər xalqımızın yeni yaranmış hakimiyyətə qarşı narazılığını artırırdı. Qubadlı ərazisində bu hal daha kütləvi xarakter almışdı. Çünki bütün bunlarla yanaşı, Qırmızı Ordunun timsalında mənfur niyyətlərinin böyük qüvvəsini duyan erməni daşnakları 1920-ci ilin ortalarından başlayaraq torpaq iddiası ilə daha da azğınlaşmış və kəndlərin yandırılması, dinc əhalinin güllələnməsi adi hala çevrilmişdir. Qəzəb dalğası xalqın müqavimət hərəkatını yetişdirmişdi.

Azərbaycan İnqilab Komitəsinin əmri ilə əksinqilabçılara, təxribatçılara və alverçiliyə qarşı Qubadlıda Fövqəladə Komissiya (FK) yaradıldı. FK tərəfindən görülən tədbirlərə hökm verilməsi Ali İnqilabi Tribunala həvalə olundu. FK təşkil olunduğu ilk gündən Sovet Rusiyasında olduğu kimi terrorçu bir orqan kimi fəaliyyətə başladı. Bölgədə FK-nın sədri vəzifəsinə Armenak Mkrtiçeviç Qaragözov təyin edildi. O "şübhəli ünsür" adı altında azərbaycanlı imkanlı şəxslərin, mədəniyyət xadimlərinin həbslərinə başladı. Qısa bir müddətdə bölgədə 234 nəfər məsuliyyətə cəlb olunmuşdu [5, i.96, v.16]. Məsuliyyətə cəlb olunanların demək olar ki, hamısı azərbaycanlılar idi. 1920-1921-ci illərdə 200 nəfər azərbaycanlı şahidsiz, sübutsuz ən ağır cəzaya məhkum olmuşlar [5, i.96, v.17]. Təqib olunanların, həbs edilənlərin çoxu milli ayrı-seçkiliklə, milli ədavətlə bağlı məsələlər üstündə mühakimə edilmişlər. FK yerlərdə əhali arasında vahimə yaratmaq məqsədi güdürdü.

Qubadlıda FK ilə yanaşı, XI Ordunun xüsusi şöbələri də geniş fəaliyyət göstərirdi. FK kimi XI Ordunun xüsusi şöbəsi də qəzalara, kəndlərə gedərkən ilk növbədə varlı adamların siyahısını tələb edir, qaçaqçılıqla məşğul olanları arayıb-axtarır, hər bir ailənin keçmişi ilə maraqlanır, təqib olunmaları üçün tədbirlər görürdülər. İstər FK-nın və istərsə də XI Ordunun siyasi şöbəsinin qeyri-məhdud səlahiyyətləri var idi [54, s.14]. Məhz buna görə xalq təsərrüfatının bərpasına keçid dövründə respublikanın hər yerində və xüsusilə Qubadlıda siyasi vəziyyət son dərəcədə gərgin bir halda idi. Əhalinin qarət olunması, təqiblər, insan ləyaqətinin tapdalanması adi bir hala çevrilmişdir. Buna görə Qubadlıdan xeyli imkanlı ailələr İrana, bir qismi isə Türkiyəyə çıxıb getməli oldular. XI Ordunun siyasi şöbəsinin əməkdaşları Qubadlıya daxil olarkən keçmiş qəza rəislərini, pristavları, kəndxudaları, bir çox din xidmətlərini, varlı hampaları, onların ailə üzvlərini, hətta qadınlarını həbs etmiş, bir çox bəy əhalinin gözü qarşısında güllələnmişdir [9, s.1, i.8, v.143]. 1920-ci il 17 oktyabr Qubadlıda Azərbaycan İnqilab Komitəsinə göndərilən gizli məktubda göstərilirdi ki, bu bölgədə daxili "sakitliklə" bağlı bir çox tədbirlər görülmüş, inqilab düşmənlərindən intiqam alınmışdır. Əhali böyük qorxu, ciddi təlaş içərisində idi. Qubadlıdan verilən xəbərlərdən aydın olur ki, son zamanlarda bölgədə yerləşən ordu hissələri əhali arasında iş apararkən əhalinin adət-ənənələrinə, dininə, dilinə hörmət etmir, onlarla vəhşicəsinə rəftar edirlər. Qubadlıda kütləvi həbslər aparılmışdır [8, v.49]. 1921-ci ilin yanvarın 16-da Qubadlıda yeni Qəza Partiya qurultayı keçirildi. Qubadlı Qəza Partiya Komitəsinin tərkibi aşağıdakı qaydada müəyyən edildi: Qubadlı Qəza Partiya Komitəsinin katibi Nəzər Heydərov, üzvlər Hüseyn Abdullayev, Əli Əmiraslanov, Oruc Babayev, Yeqo Qazaryan, Arsen Kyapunts, Savalan Şirinov seçildilər [14, v.12].

1921-ci ilin əvvəllərində Qubadlıdan AK(b)P MK-nə daxil olan məlumatda göstərilirdi ki, bölgədə vəziyyət son vaxtlar daha da ağırlaşıb. Azərbaycanlılar keçmişə daha çox meyillidirlər. Bunun əsas səbəbi heç bir qaydaya sığmayan mal-qaranın, taxılın ot-ələfin müsadirəsi, kəndlilərə qarşı FK-nın repressiyalar tətbiq etməsidir. Ona görə də xalq yenə hakimiyyətə inanmır [7, v.9].

Bəhs olunan dövrdə özlərinin ən "müqəddəs arzu"larını "Böyük Ermənistan" yaratmaq kimi bəd, ədalətsiz niyyəti – praktiki olaraq həyata keçirməyə çalışan erməni daşnakları bölgənin azərbaycanlılar yaşayan kəndlərində dinc əhaliyə qarşı təcavüzkarlıq edir, vahimə salır, qarətçilik və zorakılıqla məşğul olur, onlara ən ağır cəza verməkdən çəkinmir, bütün kəndləri yandıraraq əhalinin yaşadıqları əraziləri tərk etməyə məcbur edirdilər [11, s.1, i.190, v.21]. Aprel faciəsindən sonra özlərinə güclü arxa tapan təcavüzkarların bəd əməlləri daha da artmış, milliyyətcə ermənilərdən ibarət ali hakimiyyət orqanı yaradılmış, onların "sosializm quruculuğu" adı

altında apardıqları siyasət həm mahiyyət cəhətdən, həm də üsul etibarilə yuxarıdan, zorakılıq yolu ilə, şovinist mövqedən yanaşma və ya buna bənzər hallar istər-istəməz xalqımızın kütləvi narazılığına səbəb olurdu. Bu narazılıqlar isə özünü xalq üsyanları şəklində göstərirdi. O dövrdə M.Ə.Rəsulzadə yazırdı: "İstiqlaldan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdi… Xalq təhəmmül etmədi, üsyan etdi" [20]. Həmin vaxt Azərbaycanda olan general Veysəl bəy yazırdı ki, "Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ruslar ikiüzlü siyasət yeridirdilər. Ermənilərə hərtərəfli kömək göstərilirdi. Şüurlu xalq bolşeviklərin şüarları ilə əməlləri arasındakı fərqi tezliklə dərk etməyə başladılar. Xalq hər şeyi dərk etdiyindən müqavimətə başladı" [18, s.85]. Qubadlıda xalq üsyanının baş vermə səbəblərini müəyyənləşdirərkən aşağıdakıları xüsusilə qeyd etmək lazımdır:

**Qubadlı üsyanının baş verməsi səbəbləri**. XX əsrin əvvəllərində ərazi iddiaları məqsədilə xalqımıza qarşı erməni cəlladlarının – Dro və Nijdenin törətdiyi cinayətlər [4, i.27, v.1] – günahsız azərbaycanlıların güllələnməsi, kəndlərin yandırılıb xarabalığa çevrilməsi, kütləvi qarətlər xalqımızın səbir kasasını daşdırmış və Qubadlı üsyanı doğuran əsas səbəblərdən birincisi idi.

– XI Qırmızı Ordu komandanlığının Zaqafqaziyanın üç respublikasındakı vəziyyət haqqında gizli "təlimnaməsində" etiraf olunurdu ki, kommunistlərin keçirdikləri uğursuz təcrübələr, batalyon komandirlərinin səhvləri, torpaq siyasətindəki əyintilər, kəndlilərin dini mərasimlərinə qayğı ilə yanaşılmaması onların etirazlarına, bütün Azərbaycanı bürüyən üsyanlara səbəb olmuşdur [19, s.287].

– Torpaqların müsadirəsi haqqında dekretdən sonra mülkədarlar xalq içərisində Qubadlıda ciddi-cəhdlə şayiələr yaymağa başladılar ki, "Qırmızı Ordu azərbaycanlıları bütövlükdə qırmaq üçün gəlirlər". Deməli mülkiyyəti müsadirə edilənlər xalq içərisində yeni hakimiyyətə qarşı güclü təbliğat aparır və bu hal istər-istəməz üsyanlara səbəb olurdu.

– XI Qırmızı Ordunun Azərbaycana daxil olmasından qabaq əhalinin böyük bir hissəsində belə bir fikir yaranmışdı ki, məhz ruslar Azərbaycanı erməni təcavüzündən və daşnak dəstələrinin təhlükəsindən xilas edəcəkdir. Lakin XI Ordunun dəstələri Zəngəzurda yaşayan azərbaycanlıları tərki-silah etdilər, erməniləri isə silahlandırdılar. 1920-ci ilin ortalarında erməni quldurları bölgədəki azərbaycanlılar yaşayan kəndləri darmadağın etdilər. Tərksilah edilmiş əhali çox ağır məhrumiyyətlərlə üzləşdi. B.Şahtaxtinski həmin dövrü təhlil edərək yazırdı ki, erməni vəhşilikləri o dərəcəyə çatmışdır ki, bəzi qəzalarda, xüsusilə Zəngəzur ərazisində məsələ artıq "müsəlman əhalisinin fiziki mövcudluğundan" gedirdi. Sözsüz ki, Qubadlıda

azərbaycanlılara qarşı bolşeviklərin belə münasibəti haqlı olaraq etiraz dalğasının güclənməsinə gətirib çıxartdı [13].

– Zəngəzur qəzasının əhalisi yerli müsəlmanlardan və gəlmə ermənilərdən ibarət idi. Daşnak quldur dəstələrinin təcavüzü nəticəsində müsəlman kəndləri artıq dəfələrlə dağıdılmış, yandırılmış, müsəlman əhalisinin qalan hissəsi isə Minkənddə və Qubadlı qəzasında sığınacaq tapmışdı. Daşnaklar daim müsəlman kəndlərinə basqın edib onları viran qoyurdular. Qubadlının nümayəndəsi Çingiz İldırım Azərbaycanın Birinci Sovetlər qurultayındakı çıxışında Qubadlı qəzasının mənzərəsini belə səciyyələndirmişdi: "Qubadlı, canlı əhalisi olan qəbiristanlıqdır, insanlar büsbütün çılpaq, ayaqyalın, ac-yalavac, gün şüasından qapqara yanmış vəziyyətdə gəzirdilər, onların, xüsusən qadınların görünüşü deyilməz dərəcədə dəhşətlidir. Hamı bir tikə çörək və çılpaq bədənlərini örtmək üçün parça tapmaq həsrətində idi" [19, s.76]. Xalq bu acınacaqlı vəziyyətlə barışmaq istəmir, silaha sarılaraq müqavimət göstərirdi.

– Qubadlıda Sovet hakimiyyəti qurulduqdan sonra onun rəhbərliyinin ermənilər tərəfindən ələ keçirilməsi və onların "sovet hakimiyyəti" adı altında şovinist mövqe tutaraq anti-Azərbaycan siyasəti yeritməsi, xalqımızın milli mənafelərinin nəzərə alınmaması, xüsusilə onların var-dövlətlərinin müsadirə edilməsi, mülkiyyətdən məhrumetmə və torpaq məsələsinin həllində məkrli siyasət özünü qabarıq şəkildə göstərirdi. Şübhəsiz, bütün bu ayrı-seçkilik isə xalq üsyanlarına zəmin yaradırdı.

– Sovet hakimiyyətinin ilk aylarında təkcə Bakının deyil, bütün Azərbaycanın partiya rəhbərliyində erməni-gürcü-rus təbəqəsi hakim rol oynayırdı və həmin birlik sovet hakimiyyəti adı altında əsasən anti-Azərbaycan siyasəti yeridir, Azərbaycanın milli mənafeyini nəzərə almırdılar. Bu, mülkiyyətdən məhrum etmək, müsadirə aparmaq siyasətində, ərazi mübahisələrinin həllində özünü xüsusilə göstərirdi. Şübhəsiz ki, belə siyasət Qubadlıda və Azərbaycanın başqa rayonlarında antisovet üsyanların baş vermə səbəblərindən biri idi.

– Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Cümhuriyyəti dövründə Qubadlıda hakimiyyətdə olan bəylər və xanlar, xalqımızın görkəmli şəxsiyyətləri, dövlət məmurları, ictimai-siyasi xadimlər və elm adamları, ordu başçıları (sözsüz ki, bunlar azərbaycanlılar idi) həbs edilir, sürgün edilir, çox hallarda isə sorğusuz-sualsız güllələnirdilər. Həmin dövrün mənbələrindən birində göstərilirdi: "ziyalılar və burjuaziya nümayəndələri həbs olunur və güllələnirdilər. Onlar demək olar ki, yalnız müsəlmanlar idilər. Azərbaycan KP MK-nın başı üzərində dayanan güclü erməni qrupu Azərbaycan xalqını başsız qoymaq üçün onun ən yaxşı nümayəndələrini məhv edirdilər" [14, v.7]. Bütün bunlar isə həmin şəxslərin, onların yaxınlarının etirazlarına – xalq hərəkatının canlanmasına təkan verdi.

– Həmin dövrə aid arxiv sənədlərinin birindən oxuyuruq: "Qeyri-azərbaycanlıların nümayəndələrinin daxil edilməsi hesabına tərkibi üç dəfə dəyişmiş "mənzil komissiyası" adı altında Qubadlıda evlər qanunsuz müsadirə edilir, sahiblərini çıxarıb başqalarına verirdilər... Varlıların evlərinə əsasən erməni və rusları köçürürdülər... Varlıların evlərinin, əmlakının müsadirəsi zamanı əxlaqı, etikanı, müsəlman əhalisinin adətlərini saya salmırdılar" [14, v.10]. Yerli əhalinin milli hisslərinə toxunan bu zorakılıq və özbaşınalıq əhalinin narazılığına və üsyanlara gətirib çıxarırdı.

– Qubadlının kəndlərinə münasibətdə müstəmləkəçilik siyasətinin, ordunun mərkəzi və yerli ərzaq orqanlarının kənddən bütün ərzaq ehtiyatlarını daşıyıb aparması nəticəsində sovet hakimiyyətinə qarşı çox böyük narazılıq doğurmuş, yerlərdə kəndlilərin narazılığının artmasına və üsyanlara səbəb olmuşdur [10, s.74, i.122, v.11].

– Daşnak hökumətinin göstərişi ilə erməni qoşun hissələrinin Azərbaycanın Ermənistanla bütün sərhəd rayonlarında təcavüzkar hərəkətləri isə 1920-ci ilin noyabrınadək davam edirdi. Onların azğın təcavüzü Qubadlı ərazilərində daha şiddətli idi. Erməni tədqiqatçılarının yazdıqlarına görə, həmin ərazidə artıq XI ordunun hissələri yerləşirdi və onun tərkibində çoxlu erməni var idi. Hətta XI Ordunun ehtiyat polkunun tərkibində erməni batalyonu mövcud idi [19, s.274]. Həmin batalyon isə Qubadlıdakı qədim Azəri türklərinə qarşı mənfur mövqedən çıxış edir, qarət və qırğınlar törədirdilər. Bütün bunlar əhalinin narazılığına və silahlı müqavimətinə səbəb olurdu.

– XI Ordunun iqtisadi cəhətdən təmin edilməsi Qubadlı əhalisinin çiynində ağır bir yükə çevrilmişdi. Öz ailəsini yarıac dolandıran kəndli üçün – daşnak hücumları ilə əlaqədar torpağın becərilməsi çətin olduğu bir vaxtda, belə bir ödənci vermək olduqca acınacaqlı idi. Hələ bu az imiş kimi, XI Qırmızı Ordu özünü müstəmləkəçi kimi aparır, heç kəslə hesablaşmır, müsadirəçiliklə məşğul olur, xalqımızın milli adət-ənənəsini təhqir edirdi [589]. Ona görə də Azərbaycan İnqilab Komitəsinin icazəsi olmadan XI Ordunun başçıları olan millətçi rus şovinistləri və erməni daşnaklarının özbaşınalıqları Qubadlı camaatının etirazlarına gətirib çıxarırdı.

– Şərq xalqları Fəaliyyət və Təbliğat Şurası Rəyasət Heyətinin rəyində də Azərbaycan kəndlilərinə münasibətdə müstəmləkəçilik siyasətinin, ordunun mərkəzi və yerli ərzaq orqanlarının kənddən bütün ərzaq ehtiyatlarını daşıyıb aparması, bunun sovet hakimiyyətində çox böyük narazılıq doğurması və bır sıra yerlərdə artıq kəndli üsyanlarına səbəb olması barədə xəbər verilirdi [5].

– Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra qərb dövlətləri sosializm quruluşunu məhv etmək və Bakı neftinə yiyələnmək üçün vaxtilə sınaqdan çıxardıqları "parçala və hökm sür" siyasətindən istifadə edərək

Azərbaycanda yaşayan xalqları bir-birinə qarşı qoydular. Bu işdə ermənilər onların karına gəldilər. "Böyük Ermənistan" yaratmaq fikrində olan daşnakları ərzaqla, silah və sursatla təmin edib Azərbaycana qarşı yönəltdilər [10]. Qızışdırılan və hər cür şəraitlə təmin edilən ermənilər Qubadlıda ağlasığmaz fəlakətlər törətdilər. Bu isə xalq üsyanlarına səbəb oldu.

– Bölgədə özlərinə daha çox tərəf toplamaq, ərazidə yaşayan erməniləri öz dəstələrində birləşdirmək məqsədilə erməni daşnakları xüsusi hazırlanmış təbliğatçı dəstələr hazırlayıb Qubadlıya göndərdilər. Onlar "Yeni quruluşun gələcəyinə inamsızlıq", "XI Ordunun tərkibinin Denikin ordusu olması", "Əgər bölgə Ermənistana birləşərsə, ərzaq bolluğu olacaq" və sair boş cəfəng xülyalarla çıxışlar edirdilər [17, s.39]. Bəzi hallarda isə onlar öz məqsədlərinə nail olurdular, bu isə qarşıdurma yaradırdı.

– İngilislərdən hərbi yardım alan daşnak hökuməti Azərbaycana qarşı hərbi əməliyyatları genişləndirir, müqaviləyə əsasən ona verilmiş Culfa dəmir yolunu artıq hərbi qüvvələr vasitəsilə ələ keçirməyə, beləliklə də İrandan ərzaq gətirilməsini və ingilis-şah qoşunları ilə əlaqə yaradılmasını təmin etməyə cəhd göstərirdi. Arxiv sənədlərində göstərilir: "Daşnak hökumətinin Azərbaycanda kommunist pərdəsi altında işləyən agentləri xüsusən Qarabağda, Zəngəzurda və Qazaxda daşnakların hücumuna zəmin yaratmaq üçün fəal hazırlıq görür, yerlərdə sovet hakimiyyətini öz əllərinə keçirir və yerli müsəlman əhalisini çaşdırmağa çalışırlar" [13].

– Rus imperiyası diktaturanın hakimiyyətini möhkəmləndirmək üçün özlərinin tarixi təcrübəsindən istifadə etdilər. Onlar bəhs olunan dövrdə xalqı qorxu içərisində saxlamaq üçün terrorun tətbiqinə başladılar. Qayda-qanunu "pozanları" ağır cəza gözləyirdi. Terroru həyata keçirən FK üzvləri milliyyətcə erməni olduqlarından "şübhəli ünsür" adı altında keçmiş azərbaycanlı sahibkarlar, bəylər, tacirlər, ziyalılar həbs edilir və istintaqsız güllələnirdilər [14, v.10]. Bütün bunlar isə keçmiş mənsəb sahiblərinin etirazlarına səbəb olurdu.

– Erməni kommunistlər bölgənin Azərbaycandan ayrılmaması uğrunda xalq içərisində təbliğat aparırdılar. Vaxtaşırı edilən bu çıxışlar erməni daşnaklarının törətdiyi daşnak terroruna qarşı qırmızı terrorla cavab verilməsi təbliğ edilirdi. Bu isə üsyanın baş verməsi üçün zəmin hazırlayırdı.

– Ermənistanda müxtəlif silahlı dəstələr Azərbaycan SSR-nin sərhədini keçərək Qubadlıda əhalini qarət etmək və qırmaqla məşğul olur, bütöv kəndləri yandırırdılar. Daşnak quldurlarının vəhşiliklərinin yalnız bir məqsədi var idi: azərbaycanlıları əzəli torpaqlarından qovmaq. Ermənistan Azərbaycana qarşı müharibə təhlükəsi ilə üzbəüz dayanmışdı. Daşnaklar kütləri hər vəchlə inandırmağa çalışırdılar ki, Azərbaycanda əsl sovet hakimiyyəti yoxdur və xalqı "Azərbaycana qarşı son damla qanınadək mübarizə aparmağa" çağırırdılar [19]. Bu bir tərəfdən Qubadlı əhalisinin

istiqamətini öz üzərilərindən yayındırmaqdan ibarət olmuşdursa, əsas məqsədləri qüvvələr nisbətini zəiflədərək mənfur "Böyük Ermənistan" ideyasını reallaşdırmaqdan ibarət idi. Bütün bunlar Qubadlı əhalisinin narazılığına və üsyanlara səbəb oldu.

– Yeni hakimiyyətin din əleyhinə davakar hərəkətləri – məscidlərin dağıdılması, din xadimlərinin təhqir edilməsi mollaların, axundların heç bir əsas olmadan ittiham olunaraq kütləvi şəkildə güllələnməsi və sair hallar dindarların antisovet təbliğatına səbəb oldu. Onlar hər yerdə əhalini yeni quruluşa qarşı üsyana çağırırdılar [1].

– Bol suyu, münbit torpaqları, əlverişli iqlim şəraiti, tükənməz sərvəti olan Qubadlıda xalqımızın ehtiyac içərisində yaşamasına onlar dözə bilmədilər. Aprel faciəsindən keçən qısa bir müddətdə bütün Azərbaycan xalqı müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etdiyindən üsyana qalxdı.

– Kommunistlərin keçirdikləri uğursuz təcrübələr, ordu hissələrinin səhvləri, torpaq və vergi siyasətindəki əyintilər, xalqımızın dini mərasimlərinə qayğı ilə yanaşılmaması üsyana səbəb oldu.

**Qubadlı üsyanı**. Aparılan araşdırmalardan məlum olur ki, Azərbaycanın başqa ərazilərindən fərqli olaraq Qubadlıda milli müqavimət hərəkatı təkcə antisovet xarakteri daşımırdı. Buradakı hərəkat həm də erməni daşnaklarının törətdiyi faciələrə, günahsız qırğınlara qarşı yönəldilmişdi. Eyni zamanda, Qubadlı üsyançıları digər bölgələrin üsyançılarından daha yaxşı silahlanmışdılar və üstün döyüş təcrübəsinə malik olmuşdular.

Aprel çevrilişinin ən mühüm nəticəsi Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi oldu. Azərbaycan yenidən Rusiyanın müstəmləkəsinə çevrildi. Bu hadisə isə Qərb dövlətlərini qane etmədi. Həmin dövlətlər "parçala və hökm sür" imperiya siyasəti işlədib Qafqazda müxtəlif fitnə-fəsaddan istifadə edərək burada yaşayan xalqları bir-birinə qarşı qoyurdular. Onlar, "buyruq qulu" olan erməni agentlərinin gücündən istifadə etdilər. Böyük Britaniya, Fransa, Amerika hakim dairələrinin birinci məqsədi yeni ictimai quruluşu məhv etmək idisə, ən başlıca məqsəd Bakı neftini ələ keçirmək olmuşdur. 1920-ci ilin mayında Bakıda 53 nəfər Böyük Britaniya hərbi qulluqçusunun antisovet təbliğatı aparması aşkar edilmişdir. Onlar yeni quruluşu "ümummilli fəlakət" adlandırırdılar. Qubadlıda isə belə şayiə yayırdılar ki, Qızıl Ordu "müsəlmanları bütövlükdə qırmaq üçün gəlir". Ona görə də onları əraziyə buraxmaq olmaz. Digər tərəfdən isə Qərb dövlətləri erməni daşnaklarına "Böyük Ermənistan" yaradılmasına müdafiəçi olacaqlarını vəd etmişdilər. Bu məqsədlə onları ərzaq, silah və sursatla təmin etdilər [8, v.6]. Qubadlıda daşnak erməni dəstələrinin azğınlıqları yenidən başladı.

Bununla yanaşı, yuxarıda göstərdiyimiz kimi, Qırmızı Ordu hissələrinin işğalçılıq hərəkətləri, FK-nın terrorçuluq siyasəti, kütləvi qarətlər, əhalinin milli adət-ənənəsinə, dininə qarşı təhqiramiz hərəkətlər və sair hallar Qubadlıda xalq üsyanlarına səbəb oldu.

Azərbaycanın digər bölgələrindən fərqli olaraq, Qubadlıda xalq üsyanları 1922-ci ilədək davam etmişdi. Bu, hər şeydən öncə bölgənin relyefinin, təbii-coğrafi mövqeyinin müxtəlifliyi və hər yerində baş verməsi ilə bağlı olmuşdur. Qubadlıda antisovet müqavimət hərəkatının rəhbərlərindən Lətif və Kərim Sultanovlar qardaşları, Kərbəlayi Məhəmməd, Bəhlul Əfəndi, Hacı Qasım Çələbinin adlarını xüsusilə qeyd etməliyik. Onların dəstəsində atlı süvarilərin sayı 15 nəfərdən 300 nəfərə qədər çatırdı [8, v.16]. Üsyançılar Həkəri və Bərgüşad çayları boyu hərəkət edir çox hallarda qələbələr əldə edirdilər. ARPİİİSSA-də saxlanılan sənədlərdən birində olan məlumatda göstərilir: “Qubadlı qəzasında Bəhlul Əfəndi adlı bir nəfər qayınatası Qasım Çələbinin müridlərindən 400 atlı ətrafına toplayaraq oktyabrın 18-də Qubadlı qəzasının mərkəzi Xanlıq kəndinə hücum etdi. O, qəzanın hörmətli adamlarına bəyannamə göndərərək, bütün müsəlmanları: sünni və şiələri ümumi düşmənləri kommunistlərə qarşı mübarizəyə çağırdı. 3 saatlıq vuruşmadan sonra üsyançılar kəndi tutdular. Onlar bu kənddən başqa bir neçə kəndi də tutdular. Müridlər Xanlıq kəndində Sovet idarəsini, xüsusilə partiya idarələrini dağıtdılar... Qubadlının yoxsul kəndliləri oktyabrın 19-da silahlanaraq düşməni Xanlıq kəndindən çıxartdılar [10].

Qubadlıda üsyançılara qarşı mübarizə aparmaq olduqca gərgin, çətin və təhlükəli olmuşdur. Azərbaycanı bütövlükdə öz müstəmləkəsinə çevirən Rusiya, artıq daşnakların qarətləri, dağıntıları ilə barışmaq istəmirdi. Odur ki, Qırmızı Ordunun 1-ci, 2-ci, 3-cü, 4-cü, 177-ci, 178-ci polkları və 1-ci Qafqaz korpusu 1921-ci il iyulun 3-də general Nijdenin qoşunlarını məğlub etdilər. Nijde Qafan dağlarına çəkilib Mehridən İrana qaçdı [15, s.2, i.16, v.9]. Daşnak qoşunları məğlub olsa da, ermənilərin məkrli ərazi iddiaları hələ də davam edirdi. Qubadlıda vəziyyət əvvəlki kimi böhranlı olaraq qalırdı.

**Üsyanın məğlubiyyət səbəbləri.** Qubadlıda xalqımızın ərazi bütövlüyü, azadlıq uğrunda apardığı milli-azadlıq mübarizəsi qan içində boğuldu. Azərbaycanlılar yaşayan kəndlər cəhənnəmi xatırladırdı. Bütün evlər yandırılmış və dağıdılmışdır. Xalq üsyanlarının məğlub olması səbəblərini araşdırarkən Azərbaycanın başqa bölgələrindən fərqli olaraq Qubadlıda özünəməxsus xüsusiyyətlərinin olmasını aşkar edirik. Başqa ərazilərdən fərqli olaraq, Qubadlı üsyançıları həm ermənilərə qarşı ərazi bütövlüyü uğrunda, həm də Qırmızı Ordu hissələrinə qarşı azadlıq uğrunda döyüşməli idilər. Bu isə qüvvələr nisbətini zəiflədirdi.

– Üsyanın gedişində milliyyətcə erməni olan kommunistlərin öz silahları ilə birlikdə daşnakların tərəfinə keçməsi faktları aşkar edilmişdir. Məsələn, 1920-ci ilin mayında 1200 erməni kommunisti onlara verilmiş tüfəng və patronları ilə birlikdə Nijdenin dəstəsinə qoşulmuşlar [283]. Bu da qüvvələr nisbətinin erməni və ruslar tərəfdə olmasına şərait yaratmışdır;

– Həm XI Qırmızı Ordu hissələri, həm də Dro, Nijde və Andranikin dəstələri uzun müddətli müharibələr apardıqları üçün böyük döyüş təcrübəsinə malik idilər. Bu isə müharibənin gedişində özünü büruzə verirdi;

– Ordunun texniki cəhətdən təchiz edilməsində də fərqlər müşahidə edilirdi. Adicə Qırmızı Ordu hissələrinin bombardmançı təyyarələrdən istifadə etməsi, döyüşən Milli Ordunu psixoloji cəhətdən ruhdan saldı və məğlub olmasına şərait yaratdı;

– Bəhs edilən dövrdə erməni daşnakları Qubadlı bölgəsinə özlərinin xüsusi hazırladıqları "təbliğatçı dəstələr" göndərdilər. Onlar ərazidə yaşayan erməniləri öz tərəflərinə çəkə bildilər ki, bu da daşnakların qüvvələrini artırırdı. Eyni zamanda 1828-ci ildən Zəngəzura köçürülərək burada yaşayan ermənilər yerli şəraiti yaxşı bilir və daşnaklara bələdçilik edirdilər;

– Özlərinin gizli məqsədləri olan Qərb dövlətləri erməni daşnaklarından bir alət kimi istifadə etməyə başladılar və onları ərzaq, döyüş sursatı və silahla təmin etdilər. Həm də erməni daşnakları həmin dövlətlər tərəfindən beynəlxalq aləmdə dəstəklənirdilər;

– Azərbaycanlılar içərisində də "yeni quruluşun ədalətli gələcəyi"nə inanan qüvvələr var idi ki, onların üsyançıların tərəfində olmaması qüvvələr nisbətini azaldırdı;

– Qubadlıda baş vermiş üsyanın Gəncə, Zaqatala, Qarabağ, Lənkəran, Naxçıvan üsyanları ilə əlaqəinin olmaması bu üsyanların müxtəlif vaxtlarda baş verməsinə, ayrı-ayrılıqda onların hər birisinin Qırmızı Ordu hissələri tərəfindən asanlıqla məğlub edilməsinə səbəb oldu;

– Üsyanı idarə etmək üçün vahid mərkəz yaradılmamışdı. Bu isə öz növbəsində üsyanın müxtəlif vaxtlarda plansız keçirilməsinə və kortəbiiliyin baş verməsinə, son nəticədə isə ümumxalq üsyanına çevrilməməsinə və məğlub olmasına gətirib çıxarmışdır.

**Nəticə.** Qubadlıda baş vermiş olan 1920-ci il xalq üsyanının qan içində boğulmasına baxmayaraq, çox böyük əhəmiyyəti olmuşdur. Belə ki, bu üsyan Qubadlıda yeni hakimiyyətə qarşı milli-azadlıq hərəkatının başlanğıcını qoyaraq onun ilk parlaq səhifəsini təşkil etdi. Eyni zamanda, Qubadlını işğal edən qüvvələr – erməni daşnaklarına və XI Ordu hissələrinə əyani sübut olundu ki, xalqımız öz azadlıq və ləyaqəti uğrunda mübarizə iqtidarına malikdir. Üsyan yeni yaranmış hakimiyyəti sarsıdaraq, xalq hərəkatının gələcəkdə inkişafına təkan verdi. Üsyan nəticəsində bolşevik hakimiyyətinin siyasi böhranı daha da dərinləşdi. Xalqın qəzəbi aşıb daşırdı.

Ermənilərin bolşevik hakimiyyəti ciddi təhlükə altında olduğundan onlar ardıcıl olaraq azərbaycanlılara qarşı repressiyalara əl atdılar. Minlərlə dövlət məmurlarımız, ictimai-siyasi xadimlərimiz, nüfuzlu elm adamlarımız, ümumiyyətlə, bütün namuslu və qeyrətli görkəmli şəxsiyyətlərimizin bir hissəsi həbs edildi, sürgün edildi, istintaqsız və məhkəməsiz güllələndi, digər qismi isə vətənini tərk edib mühacir həyatı keçirməyə məcbur edildilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA). F.379, s.1, i.2483, v.4.
2. ARDA. F.410, s.1, i.2483, v.200.
3. ARDA. F.278, s.1, i.2483, v.4.
4. ARDA. F.1061, s.1, i.27, 37, 69.
5. ARDA. F.27, s.4, i.37, v.10.
6. ARDA. F.17, s.1.
7. ARDA. F.894, s.4, iş 119.
8. ARDA. F.894, s.10, iş 135.
9. ARDA. F.970, s.1, iş 113.
10. ARDA. F.1, s.2, iş 2, v.24.
11. ARDA. F.970, s.4.
12. ARDA. F.456, s.16, iş 129, v.32.
13. ARDA. F.2894 s.2, iş 5, v.57, 72.
14. ARPİİİSSA. F.62, s.2, iş 1, v.7-12.
15. ARPİİİSSA. F.27, s.1, s.2.
16. *Əliyev P.* Qarabağ bolşeviklərinin sovet hakimiyyətinin qələbəsi uğurunda mübarizəsi. Bakı, 1963, 194 s.
17. *Məmmədov N.* Dağlıq Qarabağda may çevrilişi və milli müqavimət hərəkatı. Bakı, 2002, 13 s.
18. *Məmmədov N.* Dağlıq Qarabağ gerçəklikləri: Soyqırımı, terror, deportasiya, işğal. Bakı: Təhsil, 2009, 272 s.
19. *Musayev İ.M.* Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1997, 313 s.
20. *Rəsulzadə M.Ə.* Azərbaycan Cümhuriyyəti // “Azərbaycan” qəz., Bakı, 1990, 7 dekabr, s.4


Redaksiyaya daxil olub 25.02.2025

*UOT 32*

***A.M.Mammadova***
*Azerbaijan University of Languages*
*la.lune.nur@gmail.com*

# THE STRUGGLE OF STATES FOR WATER RESOURCES IN THE CONTEXT OF HUMAN SECURITY

https://doi.org/10.30546/170899876.72.01.2025.0050

***Keywords:*** *transboundary rivers, water conflicts, human security*

In order to exist, people have to continuously provide themselves with air, water and food throughout their lives, and at the same time protect their environment and themselves from the negative impacts of others. Therefore, there have been and are still many conflicts in history where water resources have acted as both a lever for political pressure and a military and economic tool to achieve goals in the national interest.

Seizing control of watersheds, the regime of joint use of the waters of international river basins crossing the borders of two or more states, and the pollution of transboundary rivers usually create tension and lead to the emergence and exacerbation of interstate conflicts. This ultimately endangers human safety. In modern times, the global climate change, the melting of glaciers, the reduction of drinking water resources, the increasing number of the world's population, and the lack of economical use of available resources make this problem even more acute and require finding ways to solve it.

Research methods used to study the struggle for interstate water resources in the context of human security: content analysis, factor analysis, system method, as well as an interdisciplinary approach.

***A.M.Məmmədova***

# DÖVLƏTLƏRİN SU RESURSLARI UĞRUNDA MÜBARİZƏSİ İNSAN TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ

***Açar sözlər:*** *transsərhəd çaylar, su münaqişələri, insan təhlükəsizliyi*

İnsanlar mövcud olmaq üçün bütün həyatı boyu özlərini fasiləsiz olaraq hava, su və qida ilə təmin etmək, eyni zamanda yaşadığı mühiti və özlərini başqalarının mənfi təsirlərindən qorumaq məcburiyyətindədirlər. Buna görə də tarixdə su ehtiyatlarının həm siyasi təzyiq rıçaqı, həm də milli maraqlara cavab verən məqsədlərə nail olmaq üçün hərbi və iqtisadi alət kimi çıxış etdiyi bir çox münaqişələr baş vermiş və hələ də baş verməkdədir.

Su hövzələrinə nəzarətin ələ keçirilməsi, iki və ya daha çox dövlətin sərhədlərini keçən beynəlxalq çay hövzələrinin sularından birgə istifadə olunması

rejimi və transsərhəd çayların çirkləndirilməsi adətən gərginlik yaradır və dövlətlərarası ziddiyyətlərin yaranmasına və kəskinləşməsinə səbəb olur. Bu da son nəticədə insan təhlükəsizliyini təhlükə altına salmış olur. Müasir dövrdə qlobal iqlim dəyişikliyi, buzlaqların ərimısi, içməli su ehtiyatlarının azalması, getdikcə dünya əhalisinin sayının daha da artması, mövcud resurslardan qənaətlə istifadə edilməməsi bu problemi daha da kəskinləşdirir və onun həlli yollarının axtarılmasını labüd edir.

Dövlətlərarası su resursları uğrunda mübarizənin insan təhlükəsizliyi kontekstində tədqiqi üçün istifadə olunan tədqiqat metodları: məzmun analizi, faktor analizi, sistem üsulu, həmçinin fənlərarası yanaşma.

***А.М.Мамедова***

## БОРЬБА ГОСУДАРСТВ ЗА ВОДНЫЕ РЕСУРСЫ В КОНТЕКСТЕ БЕЗОПАСНОСТИ ЧЕЛОВЕКА

***Ключевые слова:*** *трансграничные реки, водные конфликты, безопасность человека*

Чтобы существовать, людям приходится постоянно обеспечивать себя воздухом, водой и пищей на протяжении всей жизни и в то же время защищать окружающую среду и себя от негативного воздействия окружающих. Поэтому в истории было и есть много конфликтов, где водные ресурсы выступали как рычагом политического давления, так и военным и экономическим инструментом для достижения целей в национальных интересах.

Захват контроля над водоемами, режим совместного использования вод международных речных бассейнов, пересекающих границы двух или более государств, и загрязнение трансграничных рек обычно создают напряженность и приводят к возникновению и обострению межгосударственных противоречий. Это в конечном итоге ставит под угрозу безопасность человека. В современное время глобальное изменение климата, таяние ледников, сокращение ресурсов питьевой воды, увеличение численности населения планеты, недостаточное экономное использование имеющихся ресурсов делают эту проблему еще более острой и заставляют искать способы для ее решения.

Методы исследования, используемые для изучения борьбы за межгосударственные водные ресурсы в контексте безопасности человека: анализ содержания, анализ факторов, системный метод, а также междисциплинарный подход.

Water is the second most important substance that humans need for their physical existence after oxygen. Although water itself has no nutritional properties, it is the most important “food product”. This non-equivalent good is the basis of all living organisms. On average, each person

needs 50-100 liters of water for daily consumption and hygiene. The place of water in our lives is very important and can be classified as follows:

1. Physiological and health-improving role: Water accounts for about 60-70% of adult body weight. It performs many important functions such as digesting food, transporting nutrients, removing toxins from our body, regulating body temperature, ensuring the functioning of organs and keeping cells alive (10).

2. The role of nutrition and communal economy: Agriculture currently accounts for 70% of global freshwater desalination and more than 90% of consumption (9, p.9).

3. The role of sanitation and hygiene: hygiene and health; sanitation.

4. Energy role: hydropower; thermal power plants; geothermal energy and nuclear energy. Energy production accounts for between 10 and 15% of global water withdrawals. Water is required in the extraction and conversion of coal, oil and gas (including fracking), and is extensively used for electricity generation, for hydropower and as cooling water for thermal and nuclear power stations (6, p.4)

5. Industry and production role: food industry (in food processing); light industry (in the production of textiles, etc.); construction industry; chemical industry, etc. About 20% of fresh water production in the world falls on industry, 12% - on domestic (or municipal) use. However, these figures vary considerably as a function of a country’s level of economic development, with higher-income countries using more water for industry whilst lower-income countries use 90% (or more) of their water for agricultural irrigation (9, p.1; 5, p.15-42).

6. Ecosystems and environment role: maintaining the ecosystem; climate regulation.

7. The role of socio-economic development: economic growth; social stability.

8. The role in recreation and tourism: beaches and swimming pools; wellness and SPA centers.

9. Cultural and spiritual role: cultural experiences; religious rituals.

Due to all the aforementioned functions and importance, various disputes, conflicts, and even wars over the acquisition and control of water resources have occurred throughout history. Such conflicts and wars continue to this day. Problems related to water supply often exacerbate other conflict situations, such as ethnic and political disagreements, and intertwine with these issues. As a vital resource, water-related conflicts are typically associated with access to freshwater, irrigation flows, and disputes over transboundary rivers. Historical and contemporary examples of water conflicts related to these issues include: the Mesopotamian (Land between

Two Rivers) conflicts; the conflict over the Nile waters (Egypt-Sudan-Ethiopia); the India-Pakistan conflict; the India-China conflicts; conflicts in Central Asia; conflicts in the Middle East; and the Turkey-Iraq-Syria disputes.

Water-related conflicts, depending on their nature, can be both armed and political, and they usually manifest in the following forms:

1) Direct wars over control of water resources;

2) Conflicts arising from agreements and treaties regulating access to water;

3) Conflicts rooted in social issues related to water supply.

These conflicts have occurred throughout history in various regions, particularly in arid areas or places where rivers are shared between bordering countries. According to estimates, there are currently 261 water basins that span across two or more countries on our planet (11).

In many cases, international treaties and agreements have been signed to prevent water conflicts. However, in the modern era, global warming, increasing droughts, melting glaciers, population growth, and the depletion of natural resources further exacerbate the risk of conflicts over water resources.

Currently, the problem of water scarcity is one of the most pressing issues for humanity, with 25 countries experiencing serious water shortages. The problem is more acute in regions with rapid population growth and economic development, including South Asia, Central Asia, the Middle East, and sub-Saharan Africa. In general, these regions are considered hydrostress areas (6, p.10-12).

**The Mesopotamian conflicts** refer to those that occurred in the region between the two rivers, in present-day Iraq, Eastern Syria, and Southeastern Turkey. As early as 2500 BCE, in ancient Mesopotamia, city-states such as Ur and Lagash fought wars to control irrigation systems along the Tigris and Euphrates rivers. As is well known, the Tigris and Euphrates rivers are considered the cradle of the world's earliest civilization and the birthplace of the first artificial irrigation systems (8, p.30-66).

**Egypt-Sudan-Ethiopia conflicts**. The distribution of Nile waters was regulated by treaties in 1902, 1929, and 1959. According to the terms of these treaties, Egypt had the right to veto any project related to the use of Nile waters. The first two versions of the treaty were written by the British, who controlled Egypt and Sudan, and naturally, they were written in a way that aligned with the interests of these countries. The extremely underdeveloped Ethiopia, at the time, could not protest. In 1959, the treaties were extended, and at that time, Ethiopian Emperor Haile Selassie did not dare to confront Egyptian President Jamal Abdul Nasser. Of course, the Nile

treaties were considered discriminatory and humiliating in Ethiopia (3, p.333-336).

After the overthrow of Hosni Mubarak, who had been in power in Egypt for 30 years, in 2011, Ethiopia took advantage of the power vacuum and began construction of the "Haditha" Dam (Grand Renaissance Dam) by altering the course of the Blue Nile. The Ethiopian government stated that its goal was to provide electricity to the country's population, as over 60% of the population lacks access to electricity. Despite strong objections from Egypt and Sudan to the construction of the contentious "Haditha" Dam, Ethiopia completed the dam's construction.

In 2020, Ethiopia began filling the dam without Egypt's consent, and in September 2023, the filling of the reservoir was solemnly completed. Cairo claims that the Nile downstream of the dam will lose 25-60% of its water, and the shallowing will devastate Egypt’s agriculture, potentially destroying 2 million farms. Similar concerns were also raised in Sudan. However, the massive power plant will enable Ethiopia to double its electricity production, develop its economy, and start exporting electricity to neighboring countries (17).

Now that the dam has been completed and the reservoir filled, negotiations between Ethiopia, Egypt, and Sudan have lost their significance. Egypt must either come to terms with the reality or destroy the dam, effectively initiating a large-scale war against Ethiopia. Such a development is difficult to envision for several reasons – the reaction of the international community, the presence of Ethiopia's battle-hardened military, and the inevitable conflict Cairo would face with Sub-Saharan African countries that support Ethiopia. Unlike Egypt, the Sudanese government no longer objects the "Haditha" Dam, on the contrary, supports it. Because, Sudan believes the dam will prevent flooding in the river and hopes to secure its annual water requirement of 18.5 billion cubic meters (14).

**The India-Pakistan water conflict** is a long-standing issue arising against the backdrop of water shortages and overall political instability between India and Pakistan. Both countries control the Indus River and its tributaries, which play a crucial role in the agriculture and water supply of the region. The history of the conflict dates back to 1947, when India and Pakistan gained independence, and disputes over the distribution of the Indus River basin's water began to emerge in various forms. In 1960, the Indus Water Treaty was signed with the mediation of the World Bank to resolve issues related to the distribution of water. According to the treaty, India gained control over the eastern rivers (Ravi, Sutlej, and Beas), while Pakistan took control of the western rivers (Indus, Jhelum, and Chenab).

Despite the agreement, disputes occasionally arise, particularly due to the 9 hydroelectric plants built by India on the western rivers (4, p.48-55; 21; 22).

Despite all the existing problems between the countries – including three full-scale wars after the treaty's signing and ongoing tensions during peacetime – the treaty has remained in effect. However, its future is increasingly uncertain, as the reasons for potential escalation remain unchanged. These include rapid population growth in both India and Pakistan, internal concerns related to economic and agricultural development, industrialization, contemporary challenges, and persistent conflicts over water resources.

In **Central Asia**, water-related conflicts represent a serious and complex issue due to limited water resources and their unequal distribution among states. The region's main water arteries are the Amu Darya and Syr Darya rivers, which flow through the territory of countries such as Kyrgyzstan, Tajikistan, Uzbekistan, Kazakhstan, and Turkmenistan. Kyrgyzstan and Tajikistan possess the largest water resources, as the upper reaches of the rivers are located within their territories. In contrast, the areas with the highest water demand and extensive agricultural activities are Kazakhstan, Uzbekistan, and Turkmenistan. The region's water and energy resources are unevenly distributed. While Kazakhstan, Uzbekistan, and Turkmenistan are rich in energy resources, they have scarce water reserves. The situation is the opposite in Tajikistan and Kyrgyzstan. This disparity gives rise to conflicts among the countries in the region. Kyrgyzstan stores river water in dams during the summer to produce energy in winter, which leads to both droughts and floods in Kazakhstan (1, p.33; 15).

Since 1992, the states of the region have signed various agreements, however, a definitive resolution has not been reached. Given their shared religious and cultural roots, it is expected that Central Asian countries might achieve consensus more quickly.

As is well known, the **Middle East** has historically been considered a region suffering from freshwater scarcity. The central countries of the Middle East, including the Gulf and North Africa, are among the areas experiencing significant freshwater shortages. Damascus province experiences the most severe water problem in the Middle East. The Jordan River, along with several smaller rivers used by Syria, Israel, Palestine, and Jordan, serves as the region's primary water basins. Although the Jordan River is a small river, disputes over its water allocation have led to three wars. For the past 50 years, conflicts surrounding this river have persisted (15).

Since 1953, initiatives have been made to establish a legal framework for water allocation in the region. Although water agreements

were reached at various times between Jordan and Syria, Israel and Jordan, and Israel and Palestine, these efforts were thwarted after Israel's occupation of the Golan Heights, the West Bank, and the Jordan Valley in 1967.

The most recent regional water agreement, focusing on increased water exchange, was signed in 2014 between Israel, Palestine, and Jordan. The Golan Heights, where the Jordan River originates, was occupied by Israel in 1967, and this occupation was officially recognized in 2019 (16).

As conflicts persist in the region, the freshwater crisis is expected to worsen in the coming years, posing an even greater threat.

In the 60s and 70s of the last century, **Turkey** experienced serious political tension with Iraq and Syria over drinking water issues. The GAP project, initiated by Turkey in the 1970s on the Tigris and Euphrates rivers, which originate in Turkish territory, was met with significant discontent from neighboring Iraq and Syria. And this issue remains a subject of dispute to this day (5, p.9-48.).

Another sensitive region experiencing hydrostress is the **China-India** border. The area's 8 rivers serve as a lifeline for 1.8 billion people. Water disputes between China and India continue in a subtle but persistent manner. China's control over dams built on 8 rivers near Tibet, allowing it to open and close the gates at will, significantly harms the agricultural activities of its neighboring country (11).

As India is one of China's main economic rivals in Asia, it is likely that water conflicts between the two countries will continue to arise in the near future.

One of the potential solutions to the global water crisis is the desalination of seawater. However, this requires the development of cost-effective technologies. Until such advancements are achieved, tensions and conflicts over water are likely to persist.

Water, as one of the three interconnected components of the Earth and an integral part of existence. Therefore, it belongs to everyone and all living beings. For this reason, justice and law must work together in its distribution.

As for our homeland, Azerbaijan, approximately 75% of the country's territory falls within the Kura River basin. About 70% of the river water resources originate from neighboring countries, while the remaining portion (local runoff) is formed by internal rivers (20).

Due to the Armenian community’s lack of culture for peaceful coexistence, we have experienced significant water-related problems during 30 years of conflict, and we are still facing them. The blockage of irrigation canals originating from our territories once occupied by Armenians dealt a severe blow to the agriculture of Azerbaijan's foothill regions. During the hot summer months, when the demand for water was highest, they blocked these canals, depriving our lands and, consequently, our people of water.

Conversely, during the autumn and winter months, when there was less need for water, they would open the canal barriers and let the water flow. In addition, Armenia discharges the water used in the Metsamor Nuclear Power Plant into rivers that flow into Azerbaijan (21).

It is crucial for the security of the entire region that the regional states collectively demand the shutdown of the Metsamor Nuclear Power Plant, whose operational lifespan has expired.

Currently, 153 reservoirs are operating in our country to ensure the supply of drinking water to the population. Additionally, the construction of four more reservoirs is ongoing in Aghdam. However, it is still difficult to say that the water-related issues in our country have been completely resolved. The per capita water resources in Azerbaijan are the lowest level compared to neighboring countries. Based on the Presidential Decree of the Republic of Azerbaijan dated July 27, 2020, "On Additional Measures related to ensuring the Efficient Use of Water Resources", the government is gradually implementing the necessary strategy to address water-related issues (20).

Human health directly depends on the environment, as well as the water and food we consume. In the current era, environmental degradation, the reduction, scarcity, and contamination of drinking water, along with excessive use of sugar in most types of food and declining food quality, are all reflected in our overall health. For instance, according to official data, water-related problems occur in China every 2-3 days. Water is either polluted by industrial or other waste, or technological accidents occur in pipelines. Therefore, the country's population frequently suffers from gastrointestinal disorders. India, Pakistan, Nigeria, and the Congo are among other countries facing similar issues (7, p.131-144).

In the modern era, there has been a negative trend in the quality indicators of sustainable human resource development, which is undoubtedly directly linked to environmental conditions, drinking water, and the food we consume. So, there is a problematic trend, not only in the physical health of people, but also in their mental well-being, which should be a matter of concern for everyone. This is reflected in the significant increase in the number of individuals born with autism worldwide, a trend that has grown substantially since the 1980s. Autism has become a global problem, as it is exists in all countries and has risen by 178% since 2000 (23).

Food experts and doctors state that genetically modified foods and unsafe water disrupt the chromosomal balance in the human body. As a result, children with autism and Down syndrome are being born (Founder and leader of the Food Safety Movement, Mahsati Huseynova).

Currently, there is no official public statistic regarding the number of individuals with Autism Spectrum Disorder (ASD) in our country. However, according to statistical research conducted by non-governmental organizations, it is estimated that there are around 6 thousand individuals with ASD in the country (22).

According to statistics obtained on the basis of a written request from the Department of Information and Public Relations of the State Committee for Statistics of the Republic of Azerbaijan, a total of 3,012 children with a diagnosis of childhood autism were registered in the medical institutions of the country by the beginning of 2024 (State Committee for Statistics of the Republic of Azerbaijan, 2024).

In individuals with autism, problems are related to the brain, and since the gastrointestinal system is directly connected to the brain, their digestion process is often weak. As a result, heavy metals accumulate in the body, further worsening their condition and leading to seizures and hysteria. Therefore, ensuring that such individuals have access to ample clean drinking water is of critical importance.

This issue should concern everyone, starting with representatives of the medical sciences, as well as economists, sociologists, cultural experts, and people from all professions, regardless of their specialty. First and foremost, it is about the gradual deterioration and degradation of the human gene pool. The continuation of this process at an accelerating pace does not exlude the possibility of a future collision between individuals with sound minds and those with unsound minds. On the other hand, the formation of such a category of individuals – who are, in the absolute sense of the word, dependent on care and supervision – represents an economic burden for society. It is a blow to the country's qualitative demographic growth. In terms of the cultural appearance of society, it presents a deeply disappointing sight.

The mere habilitation of such individuals does not constitute a solution to the problem. The underlying causes triggering this issue must be addressed. To achieve this, strong and well-coordinated cooperation must be established at national, regional, and global levels. The potential of the student contingent can be utilized at a high level in addressing this problem. To achieve this, mobile assessment tours consisting of professional experts and young student groups should be organized across the country, evaluations should be conducted, and families should be educated. At the same time, long-term observations should be carried out in families where such children are born.

Subsequently, a detailed and accurate database should be created based on these evaluations and observations, and rigorous analyses should be

conducted on the data obtained. Furthermore, it could be proposed to declare the 2025-2026 academic year as the “Year of Autism” at Azerbaijan Medical University, dedicating all course researches to this issue. This could serve as valuable experience for students in their future professional careers, while also benefiting society in the present. Every field of science justifies its existence when it proves to be beneficial to people and society.

It is essential to implement measures in several key areas to solve the fresh water problem in our country. First and foremost, attention should be given to the efficient management of water resources. To prevent water loss, outdated infrastructure must be renovated, and modern monitoring and automation systems should be implemented to reduce leaks in the network. Additionally, the number of reservoirs should be increased to improve the collection of rainwater and river water.

As the second step, attention should be given to the development of alternative water sources. Investments should be made in seawater desalination technologies as an alternative source.

The efficient use of existing water resources is of great importance. As is well known, agriculture is the sector that consumes the most freshwater, and traditional irrigation methods lead to significant wastage. Therefore, if methods such as drip irrigation and rainwater irrigation are implemented in all agricultural regions, a substantial amount of freshwater can be saved.

Additionally, establishing water recycling systems and wastewater treatment facilities in industrial enterprises would also make a significant contribution to solving the issue. To implement these measures, international experience should be utilized, and cooperation with leading countries should be established to bring innovative solutions to the country.

The issue of the ecological cleanliness of transboundary river waters in our country is also a major concern. As is known, among Azerbaijan’s main water sources are transboundary rivers that flow from the territory of Armenia, including the Araz, Tartar, Hakari, Bazarchay (Basitchay), and Okhchuchay. These rivers are crucial for Azerbaijan’s water security. However, Armenia’s occasional interference with their flow, management of water resources, and pollution of these rivers create serious environmental and economic problems for the country. Therefore, cooperation within international organizations and diplomatic negotiations are essential to address transboundary water issues.

In addition to the mentioned measures, special attention should also be given to the household consumption of water resources. Extensive awareness campaigns should be conducted to foster a culture of water conservation among the population. As consumers, the country's population

should adopt the habit of conserving water as much as possible at the household level and minimize the use of chemically-based cleaning agents. To ensure the sustainability of water-saving habits, such educational and promotional efforts should reach even the youngest members of society. The role of mass media and social networks should be actively utilized in the implementation of such initiatives. These measures will help ensure Azerbaijan's water security and contribute to the preservation of sustainable water resources for future generations.

**LITERATURE**


1. *Aaron T.W.* Middle East Water Conflicts and Directions for Conflict Resolution. Washington D.C: International Food Policy Research Institute, 1996, 33 p.
2. *Grandison A.S., Lewis, M.J.* Separation processes in the food and biotechnology industries: Principles and applications. England: Woodhead Publishing, 1996, 287 p.
3. *Michael J. Cohen.* Hydropolitics of Nile Valley // Journal of Middle Eastern Studies, Vol. 18, No 3, 1982, 348 p.
4. *Muhammad Tayyab Sohail, Huang Delin, Aqsa Siddiq, Farwa Idrees, Sidra Arshad, Rehan Muhammad.* Evaluation of Historic Indo-Pak Relations, Water Resource Issues and Its impact on Contemporary Bilateral Affairs / M.T. Sohali, H. Delin, A. Siddiq, F. Idrees, S. Arshad, R. Muhammad // Asia Pacific Journal of Multidisciplinary Research, Vol. 3, No. 1, February 2015, 92 p.
5. *Patrick MacQuarrie.* Water security in the Middle East. Growing conflict over development in the euphratestigris basin. Dublin: Trinity College. 2004, 72 p.
6. UNESCO. The United Nations World Water Development Report 2024. Water for prosperity and peace. Paris: UNESCO, 2024, 153 p.
7. *Гудошникова Л.М., Трощинского П.В.* Современное право Китайской Народной Республики (обзор законодательства 1978-2010 гг.): в 2 частьях, Ч. 2, 2002-2010 гг. Москва: ИДВ РАН, 2012, 192 с.
8. *Дьяконов И.М., Неронова В.Д., Свенцицкая И.С.* История древнего мира: в 3-х томах, Т.1: Ранняя древность. Москва: Наука, 1983, 430 с.
9. ФАО. Продовольственная и сельскохозяйственная организация Объединенных Наций. Преодоление дефицита воды. Рим: ФАО, 2012, 116 с.
10. https://prom-water.ru/articles/voda-i-zdorov-e-cheloveka/
11. https://www.anl.az/down/meqale/525/2013/mart/297461.htm
12. http://www.iimes.ru/?p=6503
13. https://dergipark.org.tr/tr/download/article-file/575632
    https://www.wearewater.org/en/insights/who-owns-the-water-of-the
    the

nile/
15. https://vodabriz.ru/news/voyna_na_blizhnem_vostoke_prichiny_v_vode/
16. https://waterandconflict.web.unc.edu/israel-palestine-and-shared-aquifers/
17. https://dzen.ru/a/ZQm12DLFzyYqSyKd
18. https://russiancouncil.ru/analytics-and-comments/analytics/temna-voda-vo-oblatsekh-problemy-i-perspektivy-ispolzovaniya-vodnykh-resursov-v-pakistane/)
19. https://www.project-syndicate.org/commentary/india-pakistan-indus-waters-treaty-renegotiation-by-brahma-chellaney-2023-02/russian
20. https://static.president.az/upload/Files/2024/10/10/b4d8791ef5cf465d26c81fe7d1393c47_4912150.pdf
21. https://files.preslib.az/projects/conflict/gl1.pdf
22. https://autizmportali.az/faqs
23. https://www.thetreetop.com/statistics/autism-revalence#:~:text=Autism%20prevalence%20has%20increased%20178,boys%20have%20autism%20as%20girls.

Redaksiyaya daxil olub 14.02.2025

***UOT 94(479.24)***

***S.Z.Məmmədova***
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*sema.canfedai@mail.ru*

# AZƏRBAYCAN QADINLARININ SOSİALLAŞMASI VƏ CƏMİYYƏTDƏ ROLU (XX ƏSRİN İLK RÜBÜNDƏ)

https://doi.org/10.30546/170899876.72.01.2025.0055

***Açar sözlər:*** *Azərbaycan qadını, maarifçi qadınlar, xeyriyyə cəmiyyətləri, zəhmətkeş qadınlar*

Məqalədə XX əsrin ilk rübündə Azərbaycan qadınlarının fanatik adətlər, savadsızlıq, qadın sərbəstliyinə etimadsızlığa görə sosial həyatdan kənar qalmasına səbəb olan amillər və bu amillərin aradan qaldırılımasına çalışan ziyalı cəmiyyətin fəaliyyətindən bəhs edilir.

Həmişə qorxu içində yaşayan, lal-dinməz, sükuta qərq olmuş bədbəxt və aciz analar istər evdə, istərsə də məktəbdə təhsil almaq imkanından məhrum müsəlman qadınlar cəmiyyətdə və məişətdə öz borclarını düzgün yerinə yetirə bilmirdilər. Odur ki, qadının sosiallaşması və cəmiyyətdə öz yerini tapması Azərbaycan mətbuatının da baş mövzusuna çevrilmişdir. Azyaşlı qızların ərə verilməsi, onların təhsilə yaxın buraxılmamasını gündəm mövzusu edərək “Molla Nəsrəddin” ,“İşıq”, “Füyuzat” jurnalları ictimaiyyətin diqqətini qadın problemlərinin həllinə yönəltməyə çalışmışlar.

***С.З.Маммадова***

## СОЦИАЛИЗАЦИЯ АЗЕРБАЙДЖАНСКИХ ЖЕНЩИН И ИХ РОЛЬ В ОБЩЕСТВЕ (В ПЕРВОЙ ЧЕТВЕРТИ XX ВЕКА)

***Ключевые слова:*** *азербайджанская женщина, просвещенные женщины, благотворительные общества, трудолюбивые женщины*

В статье рассматриваются факторы, приведшие к исключению азербайджанских женщин из общественной жизни из-за фанатичных обычаев, неграмотности, неверия в женскую свободу в первой четверти XX века, а также деятельность интеллектуального общества, стремившегося устранить эти факторы.

Несчастные и беспомощные матери, всегда жившие в страхе, немые и молчаливые, лишенные возможности учиться дома или в школе, мусульманки не могли должным образом выполнять свои обязанности в обществе и дома. Поэтому социализация женщин и поиск своего места в обществе стали главной темой азербайджанской прессы. Журналы «Молла Насреддин», «Ишык» и «Фюйузат» пытались привлечь внимание

общественности к решению женских проблем, поднимая вопросы замужества несовершеннолетних девушек и воспрепятствуя получению ими образования.

***S.Z.Mammadova***

**SOCIALIZATION OF AZERBAIJANI WOMEN AND THEIR ROLE IN SOCIETY (IN THE FIRST QUARTER OF THE 20$^{th}$ CENTURY)**

***Keywords:*** *Azerbaijani woman, enlightened women, charitable societies, hardworking women*

The article discusses the factors that caused Azerbaijani women to be excluded from social life in the first quarter of the 20th century due to fanatical customs, illiteracy, and distrust of women's freedom, and the activities of the intellectual community that tried to eliminate these factors.

Muslim women, who were always living in fear, mute, and immersed in silence, were deprived of the opportunity to receive education both at home and at school, and were unable to properly fulfill their duties in society and everyday life. Therefore, the socialization of women and finding their place in society had become the main topic of the Azerbaijani press. By making the marriage of underage girls and their lack of education a topic of the agenda, the magazines "Molla Nasreddin", "Işıg", and "Füyuzat" tried to draw public attention to the solution of women's problems.

İstismarçı, demokratik əhval-ruhiyyədən qorxan çarizm xalqı avam, müti şəraitdə saxlayaraq onun dünyəvi mədəniyyətə, təhsilə yiyələnməsinin qarşışını almağa çalışırdı. Çox məharətlə din və adətlərdən istifadə edərək onları qızışdırır, nəticədə dini fanatizm, mövhumata qurşanan xalq siyasət və təhsildən kənar qalırdı.

İstismarçı cəmiyyətin ideologiyası qadının ictimai həyat və fəaliyyətini məhdudlaşdırmış, ailədə və cəmiyyətdə kişinin qadın üzərindəki ağalığını mülki qanun və uydurma dini ehkamlarla dərinləşdirmişdir. Mövhumatçı din xadimləri kişilərin qadınlar üzərində hər cür zülm və hökmranlığına bəraət qazandırmışlar. İctimai həyatdan təcrid edilmiş qadının vəzifəsi ev işləri görmək, təsərrüfatla məşğul olmaqla məhdudlaşırdı.

Azərbaycan qadınlarının maarifdən, ictimai həyatdan təcrid olunması ziyalılarımızı düşündürən problem olmuşdur. Qadının maariflənməsi, mədəni səviyyəsinin yüksəlməsi cəmiyyətin, xalqın tərəqqisi deməkdir. Bunu anlayan, millətinin gələcəyini düşünən ziyalılarımız qadınlarımızın təhsilli olub, avropalı xanımlar kimi ictimaiyyətdə fəal olmalarını arzu edir və bu yolda mübarizə aparırlar. Bu tərəqqipərvər ziyalılarımız qadınların cəhalət girdabından qurtulmalarını maariflənməkdə görmüşlər. Əhalinin maariflənməsi, milli şüurun oyanması, təşəkkülü onların əsas qayəsi idi.

XIX əsrdən başlayaraq bu fikirləri “Əkinçi”, “Ziya”, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül”, “Şərqi-Rus” və b. qəzet və jurnallarda səsləndirməyə başladılar. XX əsrdən başlayaraq isə “Molla Nəsrəddin”, “İşıq”, “Şəlalə”, “Şərq qadını”, “İrşad” kimi dövri mətbuatın başlıca mövzusu qadın məsələsi idi. Çap olunan məqalə və karikaturalarda qadın azadlığı, onların təhsil alması, sosial aktivliyi məsələsini gündəmə gətirmişlər. “İşıq” jurnalının 1911-ci il 8-ci nömrəsində B.Şahtaxtinski həmin dövr Azərbaycan qadınını dövri mətbuatda belə təsvir etmişdir: Həyatın qanunları müsəlman qadınını dəhşətli adətlərlə mübarizəyə sövq edir. Bu adətlər müsəlman qadınının fikir və hisslərini məhdudlaşdırmış, ona insan kimi yaşamağa, xeyirxah bir müsəlman kimi cəmiyyətin üzvü olmağa imkan verməmişdir. Müsəlman qadını heç də digər dünya qadınlarından geridə qalmayan, ağıl, təfəkkür və dünyagörüşünə malikdir. Müsəlman qadını kobud, cahil, cinayətkar insanların anası olmamalıdır [17, s.12] Başqa bir səhifədə kişilərin qadınlara qarşı rəhmsiz, mərhəmətsiz davranışından şikayət edilir, bu davranışın İslam dinində pisləndiyi yazılır. “Bəs lazımdır, öz qüsuratımızı xatirimizə gətirib burasını düşünək ki, Allah-təala bizləri insaniyyətdə müsəvi yaradıbdır. Heç bir zamanda heç bir peyğəmbər gəlib öz iman gətirdiyi qövmün övrətlərinə öz ərləri tərəfindən əziyyət etməyə əmr verməmişdir [1, s.4].

XX əsr Azərbaycan qadınlarının cəmiyyətdəki yeri və rolunu dövrün maarifpərvər ədiblərinin – Ə.Ağayevin, M.Ə.Sabirin, Firudin bəy Köçərlinin, C.Məmmədquluzadənin, Y.V.Çəmənzəminlinin əsərlərindən daha aydın öyrənmək olur. Y.V.Çəmənzəminli “Ana və analıq” əsərində qadının ailədə, cəmiyyətdə, övlad tərbiyəsində rolu kimi öz dövrü üçün vacib məsələlərə toxunaraq evdar qadını dövlət başçısına bənzədirdi. Burada o ananın övlad tərbiyəsində öhdəsinə düşən böyük vəzifələrindən danışır, qadınlarımızı elmli olmağa səsləyirdi [5, s.426].

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycanda ziyalı qadınların ictimai həyatı xeyriyyə təşkilatlarına üzv olmaqla başladı. Qadınlar müxtəlif məsələlər haqqında fikir bildirir, tədbirlər təşkil edir, təşkilatlar yaradaraq gərəkli mövqe tutmağa çalışırdılar. Qadınların ictimai təşkilatlarda iştirakı öz mahiyyətinə görə qadınların sosial-siyasi aktivliyinin önəmli formalarından biri idi. XIX əsrin ikinci yarısında Zaqafqaziyada, o cümlədən Azərbaycanda “Müqəddəs Nina”, “Müqəddəs Ripsime” və başqa xeyriyyə cəmiyyətlərinin məktəbləri vardı. İrəvandakı “Müqəddəs Ripsime” qadın xeyriyyə cəmiyyətinin 7 nəfər üzvü azərbaycanlı qadınlar idi: Mahşərəf xanım Vəzirova, Tövüş Bəyim xanım, Xanımcan xanım, Tükəzban xanım, Xurşid Bəyim xanım, Sara Bəyim xanım, Sona xanım Xocamirova [15, s.76]. Bakıdakı “Müqəddəs Nina” Qadın Xeyriyyə Cəmiyyətinin 50 nəfər üzvündən 17 nəfəri azərbaycanlı idi [15,s.78].

Milli-mənlik şüurunun inkişafına, xalqın maariflənməsinə xidmət edən təşkilatların yaranmasında mühüm rol oynayan mesenatlar dəstəsi yetişdi. Bu prosesə kişilərlə bərabər Azərbaycan qadınları da qoşulmağa başladı. Həmidə Cavanşır, Şəfiqə Əfəndizadə, Nigar Şıxlinskaya, Hənifə Məlikova, Liza Muxtarova, Sofiya Şahtaxtinskaya, Rübabə Qasımova, Xədicə Ağayeva və başqaları müəllim, həkim, sahibkar kimi xeyriyyəçi olaraq bu prosesdə iştirak etmişlər. "Bakı müsəlman xeyriyyə cəmiyyəti", "Nicat", "Nəşri maarif", "Səfa", "Səadət" və digər bu kimi xeyriyyə və mədəni maarif cəmiyyətləri ətrafında birləşərək savadsızlıqdan əziyyət çəkən Azərbaycan xalqının təhsilə olan tələbatını qismən də olsa ödəmək idi məqsədləri. "Nəşri-maarif" cəmiyyəti yarandığı ilk gündən əsas məqsədi milli müəllim kadrlarının hazırlanması idi [14, s.25].

Qız gimnaziya və məktəbləri də bu xeyriyyəçilik təşkilatlarının təşəbbüsü ilə yaranırdı. Belə cəmiyyətlərə tez-tez ianələr edən xeyriyyəçi H.Z.Tağıyev müsəlman qadınını qapalı həyatdan çıxarmağın yeganə yolunu məktəb yaratmaqda görürdü. Onun təşəbbüsü ilə 1901-ci il oktyabrın 9-da Şərqdə müsəlman qızları üçün ilk məktəbin açılışı oldu [9, s.57].

XX əsrin əvvəllərindən artıq Azərbaycanda maarif və mədəniyyət sahəsində onlarca qadın çalışır, azərbaycanlı qızlar arasında iş aparır və onların maariflənməsinə çalışırdı. Yeni açılmış rus-tatar qız məktəblərində dərs deyir, mətbuatda fəallıq göstərir, qadın xeyriyyə cəmiyyətində fəal çalışır, qadınları elmə, mədəniyyətə cəlb edirdi.

Qızlar məktəbinin ilk qadın müəllimlərindən olan Şəfiqə xanım Əfəndizadəni göstərmək olar. Görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov Məmmədəmin Şeyxzadəyə məktub yazaraq ondan qızı Şəfiqə xanım Əfəndizadəni Hacı Zeynalabdin Tağıyevin Bakıda açdığı ilk qızlar məktəbinə dərs deməyə göndərməsini xahiş edir [4, s.475]. Şəfiqə xanım həmin məktəbdə Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadın azadlığına və təhsilinə, sosial, siyasi, mədəni həyatda kişilərlə bərabər hüquqlar əldə edilməsinə çox çalışılmışdır. Bu istiqamətdə görülən tədbirlərdən biri də 1919-cu il iyulun 1-də savadsızlığı ləğv etmək üçün 2 aylıq qısamüddətli pedaqoji kursların açılması haqqında qəbul edilən qərar oldu [10, s.191]. Əhalinin savadlanması, məktəblərin pedaqoji kadrlarla təmin edilməsi dövlət və xüsusən də Xalq Maarif Nazirliyi qarşısında duran əsas vəzifələrdən biri idi. Müəllim çatışmazlığı və müəllimin fəaliyyətinin təşkili, müəllimlərin sosial rifahının yaxşılaşdırılması sahəsində mühüm addımlar atılmışdı. Bu məqsədlə həm qadın, həm də kişi müəllimlər üçün 100 nəfərlik kurs açıldığını və bu müəllimlərin 1 il müddətinə müəllimlik etməyinin məcburi olduğu qeyd edilirdi [16, s.1].

Qadınlarımızı cəmiyyətə geri qaytarmaq üçün, əlbəttə, qəbul edilən qərarları, atılan addımları dərhal yerinə yetirmək heç də asan olmamışdır. Buna mane olan qüvvələrlə mübarizə aparmaq demokratik hökumətin əsas qayəsi idi.

Müstəqillik əldə edildikdən sonra belə qadınlarımıza o azad həyatı rəva bilməyən başıpozuqlar haqqında da ölçü götürülməsi polislərdən tələb edilir. Əcəba, özləri əsarətdən qurtarıb hürr yaşamaq istəyən cənablar əsarətdən xilas olub hürr yaşadığı halda bilməm neyçin zavallı qadınların müdam əsarətdə olmalarını arzu edib hürr gəzmələrinə mane olurlar. Qadınlarımızın çadrada belə rahat şəkildə bulvar və bağçalarda gəzmələrinə mane olurdular. Şəhərdə asayişin mühafizəsini polislərin vəzifəsi olduğunu və polislərdən şəxsi toxunulmazlığı qorumaları tələb edilirdi [8, s.89].

Şərqin ilk dəfə qadınlara bərabərlik, azadlıq kimi hüquqlar verən Cümhuriyyətində hələ də onların mənfur niyyətli şəxslərin maneələri ilə rastlaşdıqlarını görürük. Şəfiqə xanım Əfəndizadə öz məqaləsində 1919-cu il 28 may tarixində Azərbaycan İstiqlaliyyətinin ildönümü münasibəti ilə keçirilən milli bayram günündə qadınlarımıza qarşı polis nəfərlərinin kobud hərəkətini Nikolay dövrünün qaradovoylarının rəftarına bənzətmiş və fərəhli, təntənəli bulvar tamaşasını sevinclə gözləyən qadınlarımızın üzünə bulvar qapısının bağlandığını qeyd etmişdi [7, s.118].

Hökuməti düşündürən bir digər məsələ əhalinin yarısı olan qadınların istehsalata cəlb edilməsi idi. Cəmiyyətin aşağı təbəqələrinin məişətinin çox ağır olmasına baxmayaraq, qadınların sənayedə işləməsinə şərait yaradılmırdı. İşləyən qadınların sayı çox az və kişilərdən təcrid edilmiş şəkildə çalışırdılar. Onlar əsasən, kişilərin işləmədiyi qapalı qadın müəssisələrində çalışırdılar. Cəmiyyətdən təcrid olunma qadınların dünyagörüşünün məhdudluğuna, mədəni inkişafdan geri qalmalarına səbəb olur, ona görə də onların taleyi ailədəki kişilərin ixtiyarına verilirdi. Qadınların cəmiyyətə geri qaytarılması, təsərrüfata, sənayeyə cəlb olunma məsələsi "Azərbaycan" qəzetində Cümhuriyyət tələbəsi "Ə.Əbdül" imzası ilə yazan Əbdül Əbdüllazadənin "Həyati-iqtisadiyyəmizdə qadınlarımızın vəzifəsi" adlı məqaləsində ətraflı şəkildə öz əksini tapmışdır. Qadının buxovlanmasını İslam dininə bağlayanlara cavab olaraq, İslam qadınını məqsəd ardınca gedən, İslam ordusunun qələbəsini qadınların əməyi hesabına başa gəldiyini, ərəb qadınlarının erkəkləri hərbə təşviq etdiyini bildirir. Əski həyatımızda olduğu kimi, nənələrimizin babalarımızla bərabər yaşayıb, azadə quşlar kimi birgə zəhmət çəkdiyini bildirərək, qadınlarımızı – yatmış qüvvəmizi yenidən iqtisad bayrağı altında birləşdirib, sənayeyə cəlb edilməsinin vacibliyini vurğulamışdır [6, s.207].

Qadın azadlığının ən mühüm tərkib hissəsi sosial azadlığın təmin olunması, qadınların sosial durumunun yaxşılaşdırılması uğrunda mübarizə

aparmağa çağıran Şəfiqə xanım Əfəndizadə məqalələrində Bakı, Gəncə, Tiflis kimi şəhərlərdə sənaye inkişaf etdiyi halda qadınların bir qisminin hələ də dilənçi, səfalət içində yaşadığını yazır [12, s.101].

Yeni yaranan kapitalist dəyərlər isə qadınların müasir ixtisaslara yiyələnməsini, zavod və fabriklərdə çalışmasını zəruri edirdi. XIX əsrdə Şimali Azərbaycanda qadın əməyindən ilk istifadə etmiş kapitalist müəssisələrindən biri Şəkidə Aleksey və Voronin qardaşlarının ipəkçilik fabriki idi. Qarabağın kəndlərində və Şuşada ipək sənayesi müəssisələrində çalışanların əksəriyyəti qadın və uşaqlardan ibarət idi. 1888-ci ildə Yelizavetpol quberniyasının ipəksarıma müəssisələrində çalışan fəhlələrin 45.8 %-ni qadınlar təşkil edirdilər [15, s.56].

Müstəqil, demokratik Azərbaycan Cümhuriyyətinin varlığına son qoyan Sovet Rusiyası Azərbaycan sovet tarixşünaslığında belə bir fikri təbliğ edirdi ki, sovet hakimiyyəti qurulduqdan sonra qadınlar azadlıq, seçkilərdə iştirak etmə kimi hüquqlar əldə etmişlər. İctimai fikirdə elə təsəvvür yaradılmışdı ki, Oktyabr inqilabından əvvəl Azərbaycanda qadın təhsili olmamış, qadınlar maarif və mədəniyyət işlərində iştirak etməmişlər. Halbuki, XX əsrin ilk rübündə artıq Azərbaycan qadınlarının mədəni-maarif səviyyəsi yüksəlmiş, dünyagörüşlərinin inkişaf etməsi onların ictimai fəallığının artmasına səbəb olmuş, sosial-siyasi həyata və istehsalata cəlb edilməsi isə dövlət hakimiyyət strukturlarında təmsil olunmasına zəmin yaratmışdı. Sovet Rusiyasında bu istiqamətdə atılmış addım 1920-ci ilin noyabr ayında Azərbaycan K(b)P MK yanında qadın şöbəsinin yaradılması oldu. Şöbənin əsas məqsədi kurslar, klublar, xüsusi qadın məktəbləri, atelyelər, emalatxanalar təşkil etmək, qadınlar arasında peşələr üzrə kadrlar hazırlamaq idi. Sovet şərqində ilk qadın klubu 1920-ci ilin mayında Bakıda açılmış Əli Bayramov adına klub idi. Klub qadınlar arasında mədəni tədbirlər keçirir, savad kursları, istehsal emalatxanaları, tikiş atelyeləri, kitabxana kimi ictimai fəaliyyətə cəlb etmək kimi təbliğat işinin mərkəzi oldu. Qəza və kəndlərdə qadın hərəkatını genişləndirmək, qadınlar arasında savadsızlığı ləğv etmək məqsədi ilə iclaslar, konfranslar keçirilirdi. Bu məqsədlə 1921-ci ilin fevral ayında Azərbaycanda bitərəf qadınların I qurultayı keçirildi. Burada savadsızlıq əleyhinə qadınlar arasında geniş izahat-təbliğat işi aparırdılar [2, s.135-136]. 1922-ci ilin may ayında keçirilmiş Zaqafqaziya zəhmətkeş qadınlarının I qurultayında qadınlar arasında əmək ən mühüm vəzifə kimi göstərilmişdi. Azərbaycan SSR MİK qadınların istehsalata, kolxozlara, sovxozlara cəlb edilməsi, ictimai-siyasi fəaliyyətlərinin artırılması ilə bağlı qərarlar qəbul etdi.

İstehsalata cəlb edildikdən sonra əmək hüquqlarını bilməyən qadınlar başqa problemlərlə – haqsızlıqla, sui-istismarla, alçaldılma ilə üzləşir, qorxu altında işləməyə davam edir, öz haqlarını müdafiə etməyə cürət etmirdilər.

Ehtiyac onları o qədər sıxırdı ki, bütün təhriklərə, əmək haqqının əksik verilməsinə, cərimələrə, böhtanlara susur, hər cür haqsızlığa qatlaşırdılar. Bu məsələ ilə bağlı İtsına S. öz kitabında belə yazır:

"Ehtiyac qadın və qızların fabriklərdə işləməyə məcbur etmişdi. Özünə məxsus əmək aləti olmayan işçi qadınların fabrikdən başqa gedəcəyi yeri yox idi. Qadınların işə götürülməsi isə fabrik sahibi üçün daha əlverişli idi. Cahil, öz hüquqlarını bilməyən, az əmək haqqına razı olan qadınların iş saatı kişilərinkindən çox olurdu. İş rejimi o qədər ağır olurdu ki, bəzən hamilə qadınlar dəzgah başında, toz-pas içində doğurdu"[11, s.3-4].

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra qadınlarımızın hüquqi, ictimai, siyasi bərabərliyi bərqərar oldu. BMT-nin xətti ilə 1998-ci ilin may ayının 18-20-də Bakıda 13 xarici ölkənin qadın təşkilatlarının və beynəlxalq ekspertlərin iştirakı ilə "Qadın hüquqları – insan hüquqlarıdır, qadınlar silahlı münaqişələrdə" keçirilmiş beynəlxalq konfransda Ümummilli Liderimiz Heydər Əliyev öz məktubunda Azərbaycan qadınlarının müstəqillik illərində də ictimai-siyasi fəaliyyətə cəlb edilməsinin Respublikanın əsas prioriteti olduğunu qeyd etmişdir.

XX əsrin səciyyəvi xüsusiyyətlərindən biri dünya xalqlarının ictimai-siyasi həyatında qadınların fəallığının artmasıdır. Azərbaycan Respublikasının Konstitusiyası cəmiyyətdə qadınların kişilərlə hüquq bərabərliyini təmin edir, respublikada qadınların ölkənin ictimai-siyasi həyatında, dövlət strukturlarında geniş təmsil olunması üçün imkanlar yaradılır. Sizi əmin edirəm ki, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə inamla gedən Azərbaycan Respublikası qadınlarının hüquqlarının daha da genişləndirilməsi üçün bundan sonra da var qüvvəsini sərf edəcəkdir [3, s.45].

## ƏDƏBİYYAT


1. *Axundova H.* Hüquqi müslimə / "İşıq" qəz., Bakı, 1911 19 mart № 9, s.4
2. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, I c. Bakı, 1976, 596 s.
3. *Camalova D.* Qadın hərəkatının ön cərgələrində. Bakı: Azərbaycan, 2004, 224 s.
4. Cümhuriyyətə işıq saçan qadınlar / Kitabın hazırlanmasına məsul Dəyanət Əliyev, tərtibçi Samir Ramizoğlu. Bakı: Nurlar, 2018, 495 s.
5. *Çəmənzəminli Y.V.* Əsərləri: 3 cilddə, III c., Bakı, 2005, 426 s.
6. *Əbdüllazadə Ə.* Həyati-iqtisadiyyəmizdə qadınlarımızın vəzifəsi / "Azərbaycan" qəz., Bakı, 1918, 12 noyabr, № 37
7. *Əfəndizadə Ş.* Milli bayram və qadınlarımız / "Azərbaycan" qəz., Bakı, 1919, 5 iyun №196
8. *Hacızadə M.* İstiqlaliyyət bayramı və qadınlarımız / "Azərbaycan" qəz., Bakı, 1919, 4 iyun, №195

9. *Hüseynova H.* Azərbaycanda qadın məsələsi: tarix və müasirlik. XIX əsrin sonu-XX əsrin əvvəli. Bakı: Azərbaycan, 2006, 272 s.
10. *İbrahimova G.* Azərbaycan qadını: tarix və gerçəklik. Bakı: Elm, 2009 499 s.
11. *İtsına S.* Sosializm fabriki və ailədə işçi qadın. Bakı: Azərnəşr, 1930, 71 s.
12. *Qasımova A.N.* XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın problemləri (1901-1917). Bakı: Adiloğlu, 2010, 167 s.
13. *Məmmədov S.* Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısı – 1920-ci ilə qədər). Bakı, 1996, 359 s.
14. *Məmmədova N.Ə.* Nəşri-maarif cəmiyyətinin yaranması və fəaliyyəti: Tar. elm. nam. ... dis., Bakı, 2003, 150 s.
15. *Məmmədova S.* Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısından 1920-ci ilə qədər): Tar. elm. dok. ... dis., Bakı, 1996
16. Müsəlman müəllimə və müəllimlər üçün iki aylıq kurslar / "Azərbaycan" qəz., Bakı, 1919, 4 iyul № 216
17. *Şahtaxtinski B.* Yeri gəlmişkən / "İşıq" qəz., Bakı, 1911, 12 mart, №8, s.12

Redaksiyaya daxil olub 20.12.2024

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2025, C.73, №1, s. 108-119
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2025, V.73, №1, pp. 108-119

*UOT 94(479.24)*

***A.A.Teymurova***
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*aida.teymurova99@mail.ru*

# QAFQAZ ALBANİYASINDA MEMARLIQ

https://doi.org/10.30546/170899876.72.01.2025.0060

***Açar sözlər:*** *Qafqaz Albaniyası, xristianlıq, məbəd, kilsə, tarix, Qafqaz*

Memarlıq sənəti cəmiyyətin mədəniyyəti, incəsənəti, siyasi və iqtisadi gücü ilə sıx şəkildə əlaqədardır. Memarlığın inkişaf etməsi üçün əsas amil iqlim şəraiti, xalqın individuallığı və təbii sərvətlərdir. Azərbaycan da strateji coğrafi şərait baxımından memarlıq tarixində özünəməxsus yer tutur. Memarlıq tariximizdə alban dövrünün memarlığı arxeoloji tədqiqatlar və yazılı mənbələr əsasında öyrənilmişdir. Alban memarlıq abidələri konstruktiv həll və peşəkar sənətkarlıq baxımından xüsusilə fərqlənir. Məqalədə bütün bu məsələlərlə yanaşı, qəsbkar ermənilərin alban məbədlərini özününküləşdirməyə çalışması məsələsi də işıqlandırılmışdır. Lakin tədqiqatlar göstərmişdir ki, alban məbədləri konstruktiv həll, planlaşdırma və digər memarlıq xüsusiyyətləri baxımından erməni dini memarlıq abidələrindən tamamilə fərqlidir. 200 ilə yaxın bir dövr ərzində davam etmiş qriqoryanlaşdırma prosesi nəticəsində alban məbədləri, xüsusilə də Yuxarı Qarabağ və ətraf ərazilərdə olan alban memarlıq abidələri zərər görmüşdür. Hazırkı dövrdə ən mühüm məsələlərdən biri bu məbədlərin qorunması və bərpa edilməsidir.

***А.А.Теймурова***

# АРХИТЕКТУРА В КАВКАЗСКОЙ АЛБАНИИ

***Ключевые слова:*** *Кавказская Албания, христианство, храм, церковь, история, Кавказ*

Искусство архитектуры тесно связано с культурой, искусством, политической и экономической мощью общества. Основными факторами развития архитектуры являются климатические условия, индивидуальность народа и природные ресурсы. Азербайджан также занимает уникальное место в истории архитектуры с точки зрения своего стратегического географического положения. В нашей архитектурной истории архитектура албанского периода изучалась на основе археологических исследований и письменных источников. Албанские архитектурные памятники особенно выделяются конструктивными решениями и профессиональным мастерством. Наряду со всеми этими вопросами в статье также освещается попытка армянских захватчиков присвоить албанские храмы. Однако исследования показали, что албанские храмы по конструктивным решениям, планировке и

другим архитектурным особенностям совершенно отличаются от армянских религиозных архитектурных памятников. В результате процесса григорианизации, длившегося почти 200 лет, были повреждены албанские храмы, особенно памятники албанской архитектуры в Верхнем Карабахе и прилегающих районах. Одним из важнейших вопросов в настоящее время является сохранение и реставрация этих храмов.

***A.A.Teymurova***

**ARCHITECTURE IN CAUCASIAN ALBANIA**

***Keywords:*** *Caucasian Albania, Christianity, temple, church, history, Caucasus*

The art of architecture is closely related to the culture, art, political and economic power of society. The main factor for the development of architecture is climatic conditions, the individuality of the people and natural resources. Azerbaijan also occupies a unique place in the history of architecture in terms of strategic geographical conditions. In our history of architecture, the architecture of the Albanian period has been studied on the basis of archaeological research and written sources. Albanian architectural monuments are particularly distinguished in terms of constructive solutions and professional craftsmanship. Along with all these issues, the article also highlights the issue of the attempts of the usurping Armenians to appropriate Albanian temples. However, studies have shown that Albanian temples are completely different from Armenian religious architectural monuments in terms of constructive solutions, planning and other architectural features. As a result of the Gregorianization process that lasted for about 200 years, Albanian temples, especially Albanian architectural monuments in Upper Karabakh and the surrounding areas, have been damaged. One of the most important issues at the present time is the protection and restoration of these temples.

## Giriş

Memarlıq sənəti və abidələri hər bir xalqın mədəniyyəti, incəsənəti və siyasi gücü ilə sıx əlaqədə olmuşdur. Hər bir memarlıq nümunəsi öz dövrünün həyat tərzini, iqtisadi və sosial inkişafını, həmçinin xalqın düşüncə və estetik baxışlarını əks etdirir. Azərbaycan coğrafi və strateji mövqeyi ilə öz memarlıq irsində çoxsaylı dövrlərin və mədəniyyətlərin izlərini daşıyan unikal bir ölkədir. Bu baxımdan, Azərbaycanın memarlıq tarixində xüsusi bir yer tutan alban dövrünün memarlığı həm tarixi, həm də mədəniyyət baxımından böyük əhəmiyyətə malikdir. Alban dövrü Azərbaycan memarlığının mühüm hissəsini təşkil edir və bu dövrün abidələri regionun tarixi inkişafını və infrastrukturunu çox yaxşı əks etdirir. Alban məbədləri, xüsusilə Yuxarı Qarabağ və ətraf ərazilərdə yerləşən abidələr, həm memarlıq xüsusiyyətləri, həm də tarixi kontekstdə mühüm rol oynayır. Məqalədə

təqdim edilən təhlillər alban memarlığının xüsusiyyətləri ilə yanaşı, qəsbkar erməni qüvvələrinin alban məbədlərini özününküləşdirmək üçün həyata keçirdikləri fəaliyyətləri də əhatə edir. Məqalədə alban məbədlərinin konstruktiv həllər, planlaşdırma və digər memarlıq xüsusiyyətləri baxımından erməni dini memarlıq abidələrindən tamamilə fərqli olduğu göstərilmişdir. Bu məqalənin məqsədi alban dövrünün memarlığını daha dərindən öyrənmək və bu abidələrin müasir dövrdə necə qorunması və təbliğ edilməsi mövzusunda təkliflər irəli sürməkdir.

Hazırkı Azərbaycan ərazisində mövcud olmuş qədim dövlətlərdən biri olan Qafqaz Albaniyasında memarlıq mühüm inkişaf yolu keçmişdir. Qafqaz Albaniyasında hələ Xristianlığa qədərki dövrdə də məbədlər tikilmişdir. Bu məbədlər əhalinin dini etiqadı ilə əlaqəli olmuşdur. Qafqaz Albaniyasında əhali bu dövrdə astral dinlərə etiqad etmişdir. Günəş, Ay, Göy qədim alban əhalisi tərəfindən müqəddəs hesab edilmişdir [13, s.69]. Səma cisimlərinə sitayiş edilməsi türklərin qədim dövrdəki inancı ilə əlaqədar olmuşdur. Bu barədə Nailə Vəlixanlı tərəfindən belə qeyd edilmişdir ki, islamaqədərki dövrdə Azərbaycan əhalisi Yəhudilik, Xristianlıq, Zərdüştlüklə bərabər, səma cisimlərinə də etiqad etmişdir [22]. Qafqaz Abaniyasında bütpərəstliklə əlaqədar olaraq da bir çox tikililər inşa edilmişdir. Bu barədə isə Gülçöhrə Məmmədova qeyd etmişdir ki, arxeoloji qazıntılar və tarixi mənbələr onu deməyə əsas verir ki, Qafqaz Albaniyasında antik dövrdə Selena və Mitraya həsr olunan məbədlər, atəşgahlar mövcud olmuşdur. Bütpərəstliklə əlaqədar olan abidələrin qalıqları arxeoloji qazıntılar nəticəsində Qəbələdə Böyük Əmili ərazisində, Mingəçevir yaxınlığında və başqa ərazilərdə aşkar edilmişdir [20, s.202].

Xristianlığa etiqad edilən ən qədim ərazilərdən biri Azərbaycan olmuşdur. Xristianlığın yayıldığı ilk dövrlərdə bütpərəstliklə əlaqəli olan məbədlər kilsə üçün uyğunlaşdırılmışdır [13, s.77]. Ən qədim bu cür kilsə Kiş kilsəsidir. M.Kalankatlı Kiş kilsəsi haqqında qeyd etmişdir ki, bu kilsə Şərqdəki bütün şəhərlərin və kilsələrin başlanğıcıdır və həmçinin bizlər, yəni şərqlilər tərəfindən xristianlığa etiqad edilməsində mənbə rolunu oynayır. Kiş kilsəsi Müqəddəs Yeliseyin adı ilə bağlı olmuşdur. Qafqazda ilk xristian kilsəsidir [8, s.38; 13, s.76]. Şəkidə yerləşən bu məbəd hazırkı dövrdə turizmin ən diqqət cəlb edən obyektlərindən biridir. Gülçöhrə Məmmədova qeyd etmişdir ki, həmin ərazidə Yelisey ibadətgah qurmuşdur [13, s.77].

Qafqaz Albaniyasında xristianlığın ikinci mərhələsi isə IV yüzillikdən etibarən başlamışdır. Həmin dövrdə Qafqaz Albaniyasında xristianlıq dövlət dini elan edilmişdir [13, s.78; 8, s.38]. Buna görə də bu dövrdə Qafqaz Albaniyasında kilsə üçün torpaq ayrılmağa başlanmışdı. Bu dövrdən başlayaraq Qafqaz Albaniyasında kilsələrin, xristian məbədlərinin inşası artmağa başlamışdır.

Qafqaz Albaniyasının memarlıq tikililəri geniş şəkildə araşdırılmışdır. Bu tikililər haqqında olan şərhdə qeyd edilmişdir ki, Qafqaz Albaniyası memarlığında müdafiə xarakterli tikililər, qalalar, dini abidələr, monastırlar, kilsələr xüsusilə diqqəti cəlb edir. Qafqaz Albaniyasında memarlığın, mədəniyyətin inkişaf etməsində türk tayfaları mühüm rol oynamışdır. Məhz buna görə də, Qafqaz Albaniyasındakı memarlıq haqqında danışıldıqda Alban-türk memarlığı ifadəsindən istifadə olunur. Qafqaz Albaniyası ərazisindəki bu tayfaların bir hissəsi xristian dininə etiqad etməyə başlamış, digər bir hissəsi isə sonrakı dövrdə islam dinini qəbul etmişdir. Hazırkı dövrdə xüsusilə diqqəti cəlb edən Çıraqqala, Cavanşir qalası, Dərbənd qalası kimi müdafiə tikililəri Alban mədəni irsinə məxsus abidələrdəndir [23].

Çar Rusiyası zamanında Alban kilsəsi 1836-cı ildə ləğv olundu. Bundan sonra isə tarixi dini tikililər erməniləşdirilməyə başladı. Qriqoriyanlaşdırma prosesi 200 ilə qədər davam etmişdir. Bu prosesdən ən çox zərər çəkən Yuxarı Qarabağ və onun ətraf ərazilərindəki məbədlər olmuşdur [7, s.110].

Ötən əsrin 70-ci illərindən etibarən Qafqaz Albaniyasının memarlığı geniş şəkildə araşdırılmağa başlanmışdır. Rəhim Vahidov, Saleh Qazıyev, Rəşid Göyüşov, Cabbar Xəlilov və digər tədqiqatçılar tərəfindən Qəbələ, Şamaxı, Mingəçevir kimi ərazilərdə arxeoloji tədqiqatlar aparılmışdır. Nəticədə isə Qafqaz Albaniyasının memarlığına, mədəniyyətinə dair bir çox faktlar aşkar edilmişdir. Qafqaz Albaniyasının memarlığının dərindən ətraflı şəkildə öyrənilməsində Tofiq Məmmədov, Ziya Bünyadov, Fəridə Məmmədova və s. tədqiqatçıların çox mühüm rolu olmuşdur.

Qafqaz Albaniyasında memarlıq inkişaf baxımından 3 dövrə bölünmüşdür: ilk dövr IV-VII əsrləri, ikinci dövr VIII-X əsrləri, üçüncü dövr isə XI-XIV əsrləri əhatə edir [21, s.8-9].

**IV-VII əsr memarlığı.** Xristianlıq dövlət dini olduqdan sonra kütləvi şəkildə dini abidələr inşa edilməyə başlandı. Bununla yanaşı, əvvəlki tikililər dəyişdirilərək xristian kilsəsinə çevrildi. Dəyişiklik edilmiş tikililərə Mamrux, Kilsədağ, Mingəçevir, Ləkit kilsələrini aid edə bilərik. Yeni tikilən kilsələrdə isə köhnə politeist abidələrin üslubundan istifadə olunmuşdur. Belə ki, birnefli və üçnefli kilsələr inşa edilmişdir [1, s.37].

Birnefli məbədlər uzun bir dövr ərzində ənənəvi məbədlər olmuşdur. Bu kompozisiya yeni ideologiyanın tələblərinə uyğun idi [21, s.13]. Həmin birnefli məbədlər 2 cür idi: iri bazilikalar və çox iri olmayan tağlı məbədlər. Birnefli bazilikalara Gavurqala kilsəsi, Mingəçevir məbədləri, Xudavəng monastır kompleksini aid edə bilərik. Tağlı məbədlərə isə Qızılkilsə, Calut monastırındakı bazilika və digərlərini aid edə bilərik. Xristianlığın yayılmasının nəticəsi olaraq, VI əsrdən başlayaraq kilsələrin memarlıq

cəhətdən zənginləşdirilməsinə tələbat yaranmışdır. Bu dövrdə tavanlar dözümlü olsun deyə əlavə tağlar tikilməyə başlanılmışdı. Həmçinin divarların nazikləşdirilməsi inşaat texnikasının inkişafı nəticəsində mümkün olmuşdu. Kilsələrin planında ciddi dəyişiklik edilməsə də, divarların plastik görünüşü və daxili məkanın isə genişliyi memarlığın inkişafının nəticəsi idi [1, s.37-38].

**VIII-X əsr memarlığı.** İslam dininin VIII əsrdən etibarən geniş şəkildə Azərbaycanda yayılmasının nəticəsi olaraq, Qafqaz Albaniyasında memarlığın daha da inkişafı üçün şərait yarandı. Həmin dövrdə Xristian dininin dövlət dini statusunu itirməsi nəticəsində Qafqaz Albaniyasında memarlığın siyasi-iqtisadi əsasları dəyişikliyə uğramışdır. Bu zaman xristian məbədləri daha çox dağlıq ərazilərdə idi. Memarlıq abidələrinin ölçüləri kiçildilmişdi və abidələr sadəliyi ilə seçilirdi [21, s.67].

VIII-X əsr memarlığında günbəzli kilsələr daha geniş yayılmışdı. Bu dövrdə inşa edilən məbədlərdə müşahidə edilən cəhət uzun bazilika və mərkəzi günbəzli tikililərin birləşdirilməsi idi. Əvvəlki dövrlərdəki tikililərə xas olan elementlərin bir məbəddə birləşdirilməsi diqqəti cəlb edir. Uzun tarixi dövrdə mövcud olmuş bazilika tipli memarlıq abidələri XIX əsrə qədər inşaatda istifadə edilmiş, həmçinin İslam memarlığına da öz təsirini göstərmişdir. Bu ərazilərdəki məscidlərin bazilikal formaya malik olması da bunun əyani göstəricisidir. Amma İslam tikililərində bazilikal forma xristian tikililərindən daha fərqli konstruktiv xüsusiyyətlərə və həcmə malik olmuşdur. Bu İslam abidələrinə misal olaraq, Şamaxı Cümə məscidi, Ordubad Cümə məscidi, o cümlədən Şəki-Zaqatala ərazisindəki qədim məscidləri göstərə bilərik.

**XI-XIV əsr memarlığı.** Bu dövr memarlığı özünəməxsusluğu ilə fərqlənir. Bu dövrdə Əcəmi Naxçıvani, Mahmud Səd oğlu, Əhməd Məhəmməd oğlu və s. tərəfindən memarlıq abidələri inşa edilmiş və hazırkı dövrə qədər gəlib çatmışdır. Bu dövrün memarlığına “Şərqin renessansı” adı verilmişdir. Bu zaman müdafiə tikililəri həm şəhərlər ətrafında mürəkkəb formada, həm də kiçik qalalar şəklində inşa edilmişdir. Məscidlərlə bərabər, müsəlman qonaq evləri də inşa edilirdi. Alban xristian memarlığı yüksək inkişaf mərhələsinə qədəm qoymuşdu. Alban knyazları tərəfindən müdafiə qurğuları, saraylarla bərabər, monastırların inşa edilməsinə də çox xərc çəkilmişdir. Monastırlarda memorial, ictimai, dini abidələr tikilirdi. Həmin tikililər müxtəlif vilayətlərin ictimai və mədəni mərkəzi hesab olunurdu. Bu dövrdə bazilika və tağtavanlı abidələr geniş yayılmış tikililərdən olmuşdur. Tağtavanlı kilsələr sırasında düzbucaqlı və yarımdairəvi apsidalı, bir və ya iki apsidalı dayaq tağı tərəfindən 2 yerə ayrılan tağtavanla örtülü bir sıra abidələrə rast gəlmək mümkündür [21, s.83].

Erməni tarixçiləri tərəfindən qədim alban kilsələri saxtakarcasına erməniləşdirilmişdir. Onlar bu kilsələrə özlərinin yazılarını əlavə etmiş və nəticədə alban kilsələrini özününküləşdirmişlər. 1830-cu illərdə də alban kilsəsi çar Rusiyası tərəfindən ləğv edildikdən sonra kilsənin mülkiyyəti erməni Qriqoryan kilsəsinə verilmişdir. Bundan sonra isə erməni keşişlər həmin kilsələri mənimsəmişlər. Onların əsas vəzifəsi Qafqaz Albaniyasını unutdurmaq, onun tarixini silmək idi. Cənab Prezident İlham Əliyev də bu barədə öz çıxışında bildirmişdir. O, qeyd etmişdir ki, ölkəmizdə bu məsələ ilə əlaqədar kifayət qədər elmi baza, əsərlər mövcuddur. Həmin əsərlər təkcə elmi ictimaiyyətə deyil, bütünlükdə dünya ictimaiyyətinə çatdırılmışdır [25]. Qafqaz Albaniyasındakı memarlıq tikililərini araşdırmış tədqiqatçıların fikirlərinə görə də bu tikililər xüsusiyyətləri, planlaşdırılma üslubları baxımından erməni memarlıq tikililərindən fərqlənirlər. Erməni şovinistləri özlərinin təcavüzkar hərəkətlərinə haqq qazandırmaqdan ötrü bizim tarixi və mədəni abidələrimizi erməniləşdirməyə çalışırlar [6, s.7].

Qafqaz Albaniyasında islam dini qəbul edildikdən sonra təzə bir mərhələ başlanmışdır. İslam dininə etiqad edildiyi dövrdə xüsusilə Qarabağ ərazisində çoxsaylı məscidlər tikilmişdir. Lakin bununla yanaşı, həmin ərazilərdə xristian dininə məxsus kilsələr də öz mövcudluğunu saxlamışdır [5, s.15]. Qarabağ memarlıq məktəbi də XI-XII yüzilliklərdə Naxçıvan-Marağa, Şirvan-Abşeron məktəbləri ilə bərabər, orta əsrlərdəki memarlığın sonrakı dövrlərdəki inkişafını müəyyən etmişdir. Qarabağ ərazisində iki mindən çox tarixi abidə aşkar edilmişdir. Bu abidələr sırasında dini abidələr, ziyarətgahlar, yaşayış evləri mövcuddur. Azərbaycanda Kəlbəcər, Laçın, Bərdə, Ağdam, Şuşa, Zəngilan, Füzuli, Cəbrayıl və s. ərazilərdə çoxsaylı qəbir, tikinti və s. abidələr aşkar edilmiş və tədqiq edilmişdir [5, s.15].

Qafqaz Albaniyasında mövcud olmuş diqqət cəlb edən tikililərdən biri də monastırlar olmuşdur. Ağdərə ərazisində Gəncəsər, Müqəddəs Yelisey monastırı, Laçında Amaras monastırı, Kəlbəcər ərazisində Böyük Aran, Xotavəng, Xudavəng, Arzuxatun monastırları, Gədəbəydə Mahrasa, Həmşivəng monastırları, Qax ərazisində Kürmüx, Naxçıvanda Qızılvəng,Ləkit, Kötüklü ərazisindəki 2 monastır geniş şəkildə araşdırılmışdır. Bunlardan əlavə, həmçinin Yenikənd, Kilsədərəsi monastırı, Qax ərazisində La-Şirin deyilən yerdə qala içərisindəki monastır, Gədəbəyin cənub hissəsindəki Çanaqçı, Çaldaş və Novosaratovka ərazilərindəki monastırlar da tədqiq edilmişdir. Tədqiqatlara əsasən belə qənaətə gəlinmişdir ki, Çanaqçı monastırı Gədəbəydəki Çarek-Hamşidir. Çarek-Hamşi orta əsrlər dövründə alban katolikoslarının iqamətgahı olmuşdur. Qafqaz Albaniyasında monastırların inşa edilməsi ölkənin hüdudlarını da aşmış, Qüdsdə də çoxsaylı monastırlar inşa edilmişdir. "Alban tarixi" əsərində Musa Kalankatlı Qüds ərazisində inşa edilmiş Arsax, Mruv, Pand, Bərdə, Amaras,

Klankatuk, Araveank və digər monastırların adlarını qeyd etmişdir [2, s.17-18].

Qafqaz Albaniyasında xristian qəbirləri də özünəməxsusluğu ilə seçilmişdir. Xristian qəbir növləri daşdan tikilmiş sərdabələr, daş sarkofaqlar, katakombalar, torpaq qəbirlər və qutu formalı qəbirlərdən ibarət olmuşdur. Xristian qəbirlərinin müxtəlif tiplərdə olması sosial təbəqələşmə, dəfn ayinlərindəki təkamül, o cümlədən inşaat materiallarının fərqli tipləri ilə əlaqədardır. Azərbaycanda arxeoloji tədqiqatlar nəticəsində alban xristian qəbirləri regionların hamısının ərazisindən tapılmışdır və araşdırılmışdır. Bu isə onu deməyə əsas verir ki, Qafqaz Albaniyasında xristian dini lokal xarakterli olmamışdır [2, s.18].

Hazırkı dövrdə olduğu kimi, ölkəmizdə tarixi dövrlərdə həmişə tolerantlıq mövcud olmuşdur. VII-IX yüzilliklərdə Ərəb işğalları ilə əlaqədar olaraq yerli əhalinin kifayət qədər hissəsi islamı qəbul etsələr də, xristian tikililəri dağıdılmamışdır. Həmin abidələrin yalnız uzun tarixi dövrdə təbii şəkildə bütövlüyü pozulmuşdur [3, s.436].

Musa Kalankatlının "Alban tarixi" əsəri yeganə yerli qaynaqdır ki, X yüzilliyə qədərki Azərbaycanda mövcud olan vəziyyət barədə ətraflı şəkildə məlumat verir [4, s.9]. Bu əsər 3 hissəlidir. Əsasən VII əsrə aid olduğu hesab edilir. Məlumdur ki, VII əsrin axırlarından etibarən ərəb işğalları baş vermiş və Azərbaycan torpaqları ərəblər tərəfindən zəbt olunmuşdur. Bu zaman xristian albanların əksəriyyəti islamı qəbul etmiş, Arsax ərazisindəki xristian albanlar isə xristian dininə etiqad etməyə davam etmişdir. Sonrakı dövrlərdə isə bu ərazilərə köç edən ermənilərin təsiri ilə vaxt ötdükcə erməniləşmiş, öz dillərini itirmişdir. Erməni kilsəsi tərəfindən alban kilsəsi tabe edildikdən sonra Qafqaz Albaniyasındakı çoxsaylı xristian dininə məxsus olan abidələr erməni abidələri kimi qələmə verilməyə başlanmış, yazılı abidələrin isə qrabara, yəni qədim erməni dilinə çevrilməsinə başlanmışdır. Elə buna görə də, Musa Kalankatlının "Alban tarixi" əsəri də hazırkı dövrə qrabarda gəlib çatmışdır [4, s.5]. Musa Kalankatlının "Alban tarixi" əsərinin birinci hissəsində Qafqaz Albaniyasında xristian dininin dövlət dini olması [4, s.29], Vaçaqanın Aquen kilsə məclisində elan etdiyi 21 maddəlik qanunlar [4, s.79-81] və digər məsələlər barədə ətraflı məlumat verilmişdir. "Alban tarixi" əsərinin ikinci hissəsində isə Alban katolikosunun taxtının Bərdəyə Çoladan köçürülməsi [4, s.82-83] və s. məsələlərə toxunulmuşdur. Əsərin üçüncü hissəsində isə Albaniya katolikosları, Albaniya hökmdarlarının adları qeyd edilmiş, həmçinin onların əməlləri barədə də bu hissədə məlumat verilmişdir [4, s.215-217].

Qafqaz Albaniyasında mövcud olmuş xristian abidələrinin tarixşünaslığına gəldikdə isə Gülçöhrə Məmmədovanın tədqiqatlarını xüsusilə qeyd etmək lazımdır. Gülçöhrə Məmmədova tərəfindən Qafqaz

Albaniyasında xristianlığın yayıldığı areal qeyd edilmişdir. Müəllif memarlıq baxımından bu ərazilərdəki dini tikililərin dövrünü 3 hissəyə ayırmışdır. Birinci mərhələ IV-VII əsrlər dövrüdür, bu mərhələdə inşa edilmiş dini tikililər Kiş və Coladır. Bu abidələr əvvəlki dövrdəki tikililərin bünövrəsində qurulmuşdur. VII əsrdən etibarən isə Qafqaz Albaniyasındakı iqtisadi, siyasi inkişafla əlaqədar olaraq xristian tikililəri də yeni tipdə inşa edilməyə başlamışdır [20, s.4-5]. İkinci mərhələ isə VIII-X əsrlər dövrüdür. Bu dövrdə ərəb istilası ilə əlaqədar olaraq kilsələrin inşası azalmağa başlamışdır. Lakin X əsrdə kilsə inşa edilməsi xristian dininə etiqad edilən ərazilərdə yenidən inkişaf etməyə başlamışdır. Üçüncü mərhələ XI-XIV əsrlər dövrüdür. Albaniya XII əsrdən etibarən Mehranilər sülaləsindən olan Həsən Cəlal tərəfindən idarə edilməyə başlanmışdır. Həsən Cəlal XIII əsrdə Albaniyada sağsahil xristian ərazilərini təsir dairəsinə salmışdır və monqolların hücumları dövründə müstəqilliyi saxlaya bilmişdir. Bu mərhələdə xristian dininə məxsus tikililərin inşası genişlənmiş, köhnə abidələr bərpa edilmiş, o cümlədən yeniləri tikilmişdir. XIV əsrdə isə monastırlar geniş şəkildə inşa edilməyə başlamış, məbədlərin isə az da olsa tikintisi davam etmişdir. Xristian tikililərinin inşa edilməsi tarixi şəraitlə bağlı olaraq azalsa da, XVII əsrdən etibarən inkişaf etməyə başlamışdır. XIX əsrdən etibarən Qarabağ Albanlarının erməniləşməsi prosesi başlanmışdır. Bu isə Rusiya işğalından sonra alban varisliyi və memarlığına ermənilər tərəfindən iddianın olduğunun əyani göstəricisidir [20, s.6-7].

Qafqaz Albaniyasının xristian abidələrini tədqiq edənlərdən biri də Rəşid Göyüşovdur. Müəllif tərəfindən monastır və kilsələrin siyasi və sosial sahədə rolu, dini məclislərin qəbul etdiyi qanunlar, məbədlərə verilən vergi və s. məsələlər işıqlandırılmışdır [17, s.6-38]. Müəllif həmçinin kilsələrin arxeoloji tədqiqat materiallarını araşdıraraq xristian dini ilə bağlı məsələləri tədqiq etmişdir [17, s.81-114].

Rəşid Göyüşovun xristianlıqla bağlı digər bir əsəri isə 1986-cı ildə çap edilmişdir. Burada isə müəllif Qandzasar kilsəsi barədə ətraflı məlumat vermişdir. Qeyd edilmişdir ki, bu kilsə Qafqaz Albaniyası zamanında inşa edilmişdir. XIII əsrdə isə təzədən təmir edilmişdir [16, s.3-7].

Qafqaz Albaniyasının xristian abidələrinin tədqiq edilməsində A.Ə.Qaraəhmədovanın da mühüm rolu olmuşdur. Müəllif əsərində xristian dininin Qafqaz Albaniyasında yayılması, dövlət dini elan edilməsi, sasanilərin xristianlığı təqib etməsi kimi məsələləri tədqiq etmişdir. Əsərdə həmçinin Zaqatala, Şəki, Qax ərazilərindəki Ləkit, Katuk, Kiş, Armatian, Orta Zeyzit kilsələrinin memarlıq xüsusiyyətləri, inşa edilmə tarixləri, siyasi-sosial sahədə rolu tədqiq edilmişdir [15, s.3-26].

D.A.Axundov tərəfindən də Qafqaz Albaniyasının memarlıq abidələri tədqiq edilmişdir. Tədqiqatların nəticəsində müəllif belə qənaətə

gəlmişdir ki, Qəbələ ərazisindəki Kilsədağ məbədi II-III əsrlərə aid abidədir. Xristianlıq yayıldıqdan sonra isə kilsəyə çevrilmişdir. Bununla yanaşı, Qaxdakı Ləkit məbədi, Zaqataladakı Mamrux məbədi də xristianlığın yayılmasından sonra kilsəyə çevrilmişdir. Müəllif əsərdə həmçinin Tərtərçay ətrafındakı Xaşavanq monastırı, Qandzasar monastırı, Mingəçevir, Qax və Kəlbəcərdəki xristian dininə məxsus tikililəri də memarlıq cəhətdən tədqiq etmişdir [18, s.204-248].

F.C.Məmmədovanın "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası" əsəri də Azərbaycanın xristianlıq tarixinin tədqiq edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Müəllif tərəfindən bu əsərdə qeyd edilmişdir ki, Qafqaz Albaniyasında xristianlıq 2 mərhələyə bölünür: Birinci dövr Surofil dövrü adlanır və I-IV əsrləri əhatə edir. Bu mərhələdə Yerusəlim və Suriyadan olan apostol və missionerlər Qafqaz Albaniyasında ilk xristianlıq icmalarını təsis etmişlər. İkinci mərhələ isə Yunanfil mərhələsi adlandırılmışdır. Bu dövr Alban çarı Urnayr və maarifçi Qriqorinin adları ilə əlaqədardır. İkinci mərhələdə xristian dini rəsmi dövlət dini elan edilmişdir [10, s.207-215].

Arif Məmmədov tərəfindən isə Kiçik Qafqazın ətəklərindəki, həmçinin Gəncəbasar ərazisindəki alban xristian abidələri barədə məlumat verilmişdir. Müəllif Xanlar ərazisindəki Band, Çaykənd,Yeni Zond abidələri, o cümlədən Goranboydakı Xarxaput məbədi haqqında məlumat vermiş, bu abidələri arxeoloji və memarlıq cəhətdən tədqiq etmişdir [11, s.7-26-30].

R.M.Vahidov tərəfindən alban xristian abidələri arxeoloji cəhətdən ətraflı şəkildə tədqiq edilmişdir. Müəllif qeyd etmişdir ki, 1946-1953-cü illərdə Mingəçevir ərazisindəki arxeoloji tədqiqatlar nəticəsində 2 və 3 nömrəli olan yaşayış ərazilərində məbədlər aşkar edilmişdir. Arxeoloji tədqiqatlar zamanı xaç, çiy kərpic, daşdan hazırlanmış əşyaların üzərində quş və heyvan təsvirləri, inşaat daşları, kirəmit, epiqrafik abidələr, qəbir abidələri tapılmışdır [14, s.92-141].

Tofiq Məmmədov tərəfindən də Qafqaz Albaniyasının memarlıq abidələri tədqiq edilmişdir. Müəllifin monoqrafiyasında xristianlıq və zərdüştlükdən əvvəl Qafqaz Albaniyasında günəş, od, su, torpağa sitayiş edilməsi, həmçinin heyvanların müqəddəs hesab edilməsi, kahinlər tərəfindən başçılıq edilən məbədlərin mövcud olması, onların memarlıq baxımından əsas cəhətləri və həmin məbədlərdə qurban mərasimlərinin keçirilməsi qeyd edilmişdir. Əsərdə bunlarla yanaşı, qeyd edilmişdir ki, Qafqaz Albaniyasında xristianlıq dövlət dini elan edildikdən sonra Qafqaz Albaniyası Bizans və Sasanilər arasında mübarizə aparılan əraziyə çevrilmişdir [12, s.188-249].

Bernar Sturfel və Vilayət Kərimovun həmmüəllifliyi ilə nəşr edilmiş əsər isə Şəkidəki Kiş kilsəsinin memarlığı, arxeologiyası və tarixinə həsr olunmuşdur. Müəlliflərin başçılığı ilə Kiş kilsəsində aparılmış araşdırmalar əsasında Qafqaz Albaniyasının memarlığı, iqtisadi, siyasi, sosial, ictimai sahələri tədqiq edilmişdir [19, s.19-22].

Qarabağ ərazisində isə IV-XVI əsrlərə aid olan Alban məbədlərinin bir neçəsi hazırkı dövrümüzədək gəlib çatmışdır. Bu məbədlərə Xocavənddəki Amaras monastırı, Laçındakı Ağoğlan monastırı, Ağdərədəki Gəncəsər monastırı, Müqəddəs Yelisey məbəd kompleksi, Kəlbəcərdəki Xudavəng monastırını aid edə bilərik. Ermənilər ölkəmizə qarşı əsassız ərazi iddiaları irəli sürərək özlərinin təcavüzkarlıq planlarına haqq qazandırmaq üçün bu məbədləri erməni kilsələri kimi qələmə verirlər. Lakin tədqiqatlar göstərir ki, bu məbədlər ermənilərə məxsus olan dini memarlıq tikililərindən planına və memarlıq xüsusiyyətlərinə görə bütünlüklə fərqlənir. Tarixi faktlar Qafqaz Albaniyasının xristian məbədlərinin xalqımızın milli mədəni irsi olduğunu sübut edir. Ağoğlan monastırı IX əsrdə tikilmişdir. Binanın həcmi 3 hissəlidir. Monastırın daxilini işıqlandırmaqdan ötrü uzunsov formalı və ensiz pəncərələri mövcuddur. Bu memarlıq abidəsi bazalt daşından inşa edilmişdir.

Xudavəng monastır kompleksi isə VI-VII əsrlərdə tikilmişdir. Burada maarif mərkəzi və alban yepiskop iqamətgahı mövcud olmuşdur. Bu kompleks IX əsrdə Xaçın Alban knyazlığının mərkəzi kimi fəaliyyət göstərmişdir. Müqəddəs Yelisey məbəd kompleksi isə V əsrdə inşa edilmişdir. Burada dəfələrlə təmir-bərpa işləri aparılmışdır. Müqəddəs Yelisey monastır kompleksi uca dağ zirvəsində dəniz səviyyəsindən iki min metr hündürlükdə inşa edilmişdir. Gəncəsər monastır kompleksi 1216-1238-ci illərdə tikilmişdir. Bu abidə uzun bir dövr ərzində Alban xristianlarının iqamətgahı kimi fəaliyyət göstərmişdir. Gəncəsər adı isə dinin əsas xəzinəsi mənasındadır. Məbəddəki tağların üst hissəsində qoyun və öküz başları barelyefləri mövcuddur. Gəncəsər monastır kompleksinin kompozisiya və planlaşdırma xüsusiyyətləri və diofizit elementləri təsdiq edir ki, bu məbəd alban memarlığına aiddir [26].

30 illik dövr ərzində işğal altında olan ərazilərimizdə ermənilər mədəni, tarixi, dini tikililərimizi dağıdaraq yararsız hala salmışdır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş torpaqlarımızda tarixi abidələrimiz bərpa edilir. Yararsız vəziyyətə salınmış abidələr içərisində Alban kilsələri də mövcuddur. Cənab Prezident İlham Əliyev bildirmişdir ki, dini ayrı-seçkiliyə yol verilmədən bütün tarixi, dini, mədəni abidələrimiz bərpa edilir, baxmayaraq ki, qəsbkar ermənilər tərəfindən alban kilsələri ermənilərə məxsus abidələr kimi qələmə verilmişdir. Lakin biz Alban

mədəniyyətinə aid olan abidələri də bərpa edəcəyik. Çünki Alban kilsələri ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edən abidələrdəndir [24].

Alban abidələrinin divar təsvirlərində, o cümlədən süjetli oymalarda türk xalqlarına aid olan elementlərin mövcud olması həmin tikililərin ermənilər tərəfindən geniş şəkildə dağıdılmasına zəmin yaratmışdır. Ermənilər birmənalı olaraq Cənubi Qafqaz ərazisində mövcud olan tarixi abidələrdə türk simvollarının mövcudluğunu qəbul etmirlər. Əgər ermənilər tərəfindən bu təsvirlər olduğu şəkildə qəbul edilsə, o zaman həmin tikililər erməniləşdirilə bilməz. Elmi ədəbiyyatlarda alban memarlıq tikililərinin türk-alban abidələri kimi adlandırılması də təsadüfi deyildir. Çünki bu tikililərə varislik təkcə azərbaycanlılara mənsubdur. Qafqazşünas alim Y.İ.Krupnov bu barədə qeyd etmişdir ki, Qafqaz Albaniyasının tarixinin tədqiq edilməsində məcburiyyət və məhdudiyyət olmamışdır. Qafqaz Albaniyasının tarixi bir çox ölkələrin tədqiqatçıları tərəfindən araşdırılmış, lakin Qafqaz Albaniyasının taleyi ilə, tarixi ilə azərbaycanlılar daha çox maraqlanmalıdırlar. Onlar bu məsələdə məsuliyyət daşıyırlar [9, s.7].

**Nəticə**

Aparılmış tədqiqatlar göstərir ki, alban memarlıq abidələri təkcə Azərbaycanın qədim memarlıq tarixini deyil, həm də bu xalqın dini, mədəni və ictimai həyat tərzini əks etdirir. Məqalədə təqdim olunan elmi əsaslandırmalar, memarlıq üslublarının müqayisəli təhlili və tarixi faktlar alban məbədlərinin erməni memarlığından fərqləndiyini sübut edir. Bununla yanaşı, erməni kilsəsinin uzunmüddətli qriqoriyanlaşdırma siyasəti nəticəsində alban irsinə vurulan ziyan da real faktlarla göstərilmişdir. Alban memarlığının, xüsusilə də Yuxarı Qarabağ və ətraf ərazilərdəki abidələrinin zərər görməsi və saxtalaşdırılması həm tarixə, həm də müasir dövrün mədəni irsinin qorunmasına böyük bir təhdid kimi qiymətləndirilir. Qeyd olunan bütün fikirlər və təqdim olunan elmi nəticələr əsasında belə qənaətə gəlmək olar ki, alban memarlığı Azərbaycan memarlıq tarixinin ayrılmaz tərkib hissəsidir və bu irsin qorunması, öyrənilməsi, həmçinin dünya ictimaiyyətinə tanıdılması vacib vəzifə olaraq qalır.

## ƏDƏBİYYAT

1. *Abdullayeva A.* Alban və Qriqoryan kilsələrində memarlıq fərqləri // Dövlət və Din, 2021, №1(68), s.36-48
2. *Alışov N.* Azərbaycan Albaniyasının xristian abidələri: tarix üzrə fəls. ... diss.avtoref. Bakı, 2014, 27 s.
3. *Alışov N.* Qafqaz Albaniyasının xristian abidələrinin tədqiqi Azərbaycan tarixşünaslığında // Tarix və onun problemləri, 2009, №2, s.436-440
4. *Bünyatov Z.* Moisey Kalankatuklunun Alban Tarixi, Mxitar Qoş Alban Salnaməsi. Bakı: Avrasiya press, 2006, 296 s.

5. *Əsədov V.* Qafqaz Albaniyasının qədim dini məbədləri / "Xalq Cəbhəsi" qəz., Bakı, 2016, 10 iyun, s.15
6. *Əsədov V.* Qafqaz Albaniyasının məbədləri / "Xalq" qəz., Bakı, 2009, 25 iyun, s.7
7. *Əsədullayeva G.* Qafqaz Albaniyasında din // Dövlət və Din, 2023, №2(76), s.110-116
8. *Xəlilov M.* Albaniyanın tarixi, etno-mədəni hüdudları: qərb istiqaməti. Bakı: R.S. Poliqraf, 2017, 116 s.
9. Qarabağdakı abidələrimizin memarlıq quruluşu dəyişdirilir / "Üç nöqtə" qəz., Bakı, 2018, 16 avqust, s.7
10. *Məmmədova F.* Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 260 s.
11. *Məmmədov A.* Gəncəbasarın Alban Dövrü Xristian Abidələri. Bakı: Ağrıdağ, 2000, 53 s.
12. *Məmmədov T.* Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil, 2006, 399 s.
13. *Rəcəbli Q.* Azərbaycan tarixi. Bakı: Elm və təhsil, 2013, 544 s.
14. *Vahidov R.* Mingəçevir III-VIII əsrlərdə. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1961, 160 s.
15. *Ахундов Д.*. Архитектура древнего и раннесредневекого Азербайджана Баку: Азернешр, 1986, 309 с.
16. *Геюшев Р.* Гандзасфр – памятник Кфвказской Албании. Баку: Элм, 1986, 8 с.
17. *Геюшев Р.* Христианство в Кавказской Албании Баку: Элм, 1984, 191 с.
18. *Карахмедова.А.* Христианские памятники Кавказкой Албании. (Алазанская долина) Баку: Элм, 1986, 28 с.
19. *Керимов В., Стурфиел Б.* КИШ. Баку: Чашыоглу, 2003, 179 с.
20. *Мамедова Г.* Зодчество Кавказской Албании. Баку: Чашыоглу, 2004, 222 с.
21. *Мамедова Г.* Культовое зодчество Кавказской Албании (IV-XIV вв.). Баку: Элм, 1997, 425 с.
22. http://ameanb.nakhchivan.az/wp-content/uploads/2017/07/Naxçıvanın-türk-islam-mədəniyyəti-abidələri-tarixdə-və-günümüzdə-materiallar.pdf
23. https://az.wikipedia.org/wiki/Qafqaz_Albaniyası
24. https://hacishahin.az/musahibeler/141
25. https://scara.gov.az/az/xeber/xeberler/prezident-ilham-eliyev-qafqaz-albaniyasina-aid-olan-tarixi-abideler-kilseler-bizim-tarixi-medeni-servetimizdir
26. https://1905.az/dagliq-qarabagdaki-q%C9%99dim-alban-abid%C9%99I%C9%99ri/


Redaksiyaya daxil olub 21.01.2025

# Pedaqoji-psixoloji elmlər

*UOT 159.9*

***T.A.Kərimli***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*turan.karimli@hotmail.com*

## GƏNCLƏRİN SOSİAL FƏALLIĞININ FORMALAŞMASINDA TƏLƏBƏ TƏŞKİLATLARININ ROLU

https://doi.org/10.30546/170899876.72.01.2025.0063

***Açar sözlər:*** *sosial fəallıq, gənclərin fəallığı, tələbə təşkilatları, şəxsiyyətin formalaşması, könüllülük, aktivlik, psixoloji aktivlik*

Məqalədə gənclərin sosial fəallığının formalaşmasında tələbə təşkilatlarının rolu araşdırılır və aktivliyin psixoloji aspektlərinə diqqət yetirilir. Aktivlik fərdin motivasiyası, idrak və davranışları ilə əlaqəli çoxşaxəli bir prosesdir və müxtəlif psixoloji məktəblər tərəfindən fərqli cəhətləri ilə tədqiq edilmişdir. Gənclərin sosial aktivliyi yalnız fiziki iştirak deyil, həm də daxili psixoloji proseslərin və şəxsiyyətin inkişafının bir göstəricisidir. Tələbə təşkilatları, gənclərin sosial fəallığını artırmaq, onların hüquq və vəzifələrini anlamaq və cəmiyyətin inkişafına töhfə vermək baxımından mühüm rol oynayır.

Bu mövzu indiki dövrdə aktualdır, çünki müasir gənclər üçün sosial fəallıq və tələbə təşkilatlarının fəaliyyəti həm şəxsi inkişaf, həm də cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafı baxımından vacibdir. İnformasiya texnologiyalarının və sosial medianın gənclərin sosial aktivliyini artıran vasitə kimi təsiri, eyni zamanda, gənclərin siyasi, mədəni və ekoloji məsələlərə olan marağını və fəallığını gücləndirir. Bu tendensiyalar gənclərin cəmiyyətə inteqrasiyasını və onların gələcək peşə fəaliyyətinə hazırlığını təmin etmək üçün önəmlidir.

***Т.А.Керимли***

## РОЛЬ СТУДЕНЧЕСКИХ ОРГАНИЗАЦИЙ В ФОРМИРОВАНИИ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ МОЛОДЕЖИ

***Ключевые слова:*** *социальная активность, активность молодежи, студенческие организации, формирование личности, волонтерство, активность, психологическая активность*

В статье рассматривается роль студенческих организаций в формировании социальной активности молодежи, с акцентом на психологические аспекты активности. Активность представляет собой многогранный процесс, связанный с мотивацией, познавательными

процессами и поведением личности, и изучалась с разных точек зрения представителями различных психологических школ. Социальная активность молодежи — это не только физическое участие, но и отражение внутренних психологических процессов и развития личности. Студенческие организации играют важную роль в повышении социальной активности молодежи, понимании ими своих прав и обязанностей, а также в их вкладе в развитие общества.

Данная тема особенно актуальна в наше время, так как социальная активность и деятельность студенческих организаций имеют большое значение как для личностного роста современной молодежи, так и для социального, экономического и культурного развития общества. Влияние информационных технологий и социальных сетей способствует росту социальной активности молодежи, одновременно усиливая их интерес и участие в политических, культурных и экологических вопросах. Эти тенденции важны для интеграции молодежи в общество и подготовки их к будущей профессиональной деятельности.

***T.A.Karimli***

## THE ROLE OF STUDENT ORGANIZATIONS IN SHAPING YOUTH SOCIAL ACTIVITY

***Keywords:*** *social activity, youth engagement, student organizations, personality development, volunteering, activeness, psychological activity*

The article explores the role of student organizations in shaping the social activity of youth and focuses on the psychological aspects of activeness. Activeness is a multifaceted process linked to an individual's motivation, cognition, and behavior, and it has been studied from various perspectives by different psychological schools. Youth social activity is not limited to physical participation; it also reflects internal psychological processes and the development of personality. Student organizations play a crucial role in enhancing youth social engagement, helping them understand their rights and responsibilities, and contributing to the development of society.

This topic is especially relevant today, as social activity and the functioning of student organizations are essential for the personal growth of modern youth, as well as for the social, economic, and cultural development of society. The influence of information technologies and social media serves as a tool to boost youth engagement, while also increasing their interest and involvement in political, cultural, and environmental issues. These trends are important for integrating youth into society and preparing them for their future professional lives.

### Giriş

Gənclərin sosial fəallığının inkişafı onların şəxsiyyətinin formalaşmasında və cəmiyyətə inteqrasiyasının güclənməsində mühüm rol

oynayır. Psixologiyada gənclərin sosial fəaliyyətlərə qoşulması onların daxili motivasiyalarının, şəxsiyyət xüsusiyyətlərinin və sosial mühitlə qarşılıqlı əlaqələrinin nəticəsi olduğunu görə bilərik. Sosial fəallıq gənclərin psixoloji inkişafını təşviq edir, onların özünüifadə qabiliyyətlərini gücləndirir və cəmiyyətə müsbət təsir göstərir. Tələbə təşkilatları bu prosesin əsas hərəkətverici qüvvələrindən biri olaraq, gənclərin sosial aktivliyini artıraraq onların şəxsiyyətlərinin daha da inkişaf etməsinə şərait yaradır.

İnsanın daxili və xarici mühitlə qarşılıqlı əlaqəsini təmin edən, məqsədyönlü fəaliyyətlərində özünü göstərən əsas psixoloji xüsusiyyətlərdən biri də aktivlikdir. Aktivlik fərdin motivasiyası, idrak prosesləri, emosional vəziyyətdə davranış nümunələri ilə sıx bağlıdır. Müxtəlif psixoloji məktəblərdə bu anlayış fərqli baxış bucaqlarından izah edilmişdir.

Aktivlik insanın psixi fəaliyyətinin təşkili və idarə olunmasını özündə birləşdirən çoxşaxəli bir prosesdir. Sovet psixoloqları L.S.Vıqotski, A.N.Leontyev və S.L.Rubinşteynin işlərində aktivlik anlayışı geniş tədqiq edilmişdir. Leontyev (1977) aktivliyi motivasiya, məqsəd və əməliyyatlarla bağlı olan fəaliyyət strukturu kimi izah edir. O, göstərir ki, aktivlik fərdin motivasiya sisteminə əsaslanaraq formalaşır və fəaliyyət prosesində gerçəkləşir. S.L.Rubinşteyn (1957) isə aktivliyi insanın öz fəaliyyətinin subyekti olması ilə əlaqələndirir. O, insanın psixi fəaliyyətinin daxili şərtlərlə xarici mühitin qarşılıqlı əlaqəsində inkişaf etdiyini vurğulayır. Rubinşteynə görə insan aktiv subyektdir və onun davranışı yalnız xarici stimullara cavab verməklə məhdudlaşmır, əksinə, bu stimullara qarşı müəyyən münasibət formalaşdıraraq onları dəyişdirir. Müasir koqnitiv psixologiyada aktivlik daha çox idrak prosesləri, öyrənmə və problem həlletmə mexanizmləri ilə əlaqələndirilir. U.R.G.Neyser (1967) aktivliyi insanın xarici dünyadan məlumat alaraq onu emal etməsi və uyğun strategiyalar qurması kimi qiymətləndirir. O, insanın informasiya emalı prosesini aktiv iştirak və diqqət yönləndirmə mexanizmləri ilə izah edir. A.Banduranın sosial öyrənmə nəzəriyyəsinə görə aktivlik fərdin davranışına nəzarət etməsi və mühitlə qarşılıqlı təsir prosesində özünü inkişaf etdirməsi ilə bağlıdır. O, insanın yalnız passiv bir öyrənən deyil, həm də öz mühitini dəyişdirən aktiv bir iştirakçı olduğunu göstərir.

Psixoloqlar aktivliyi motivasion aktivlik, koqnitiv aktivlik, davranış aktivliyi kimi müxtəlif aspektlərdə araşdırıblar. Belə ki, motivasion aktivlik fərdin müəyyən məqsədlərə çatmaq üçün təşəbbüs göstərməsi (Desi E. L., və Rayn R. M. (2000), koqnitiv aktivlik yeni biliklər əldə etməyə və problemləri həll etməyə yönəlmiş idrak fəaliyyəti (Piaje, 1952), davranış aktivliyi isə fərdin sosial və fiziki mühitdə göstərdiyi hərəkətlər və adaptiv

reaksiyalardır (Skinner, 1953). Aktivliyin inkişafı fərdin uğurlu sosial adaptasiyası və psixi rifahı üçün vacib amildir, çünki sosial aktivlik insanın ictimai, mədəni, sosial və siyasi sahələrdə fəal iştirakı, hüquq və vəzifələrini dərk edərək onların yerinə yetirməsi ilə birbaşa əlaqəlidir. Bu cür aktivlik insanın və ya qrupun sosial problemlərə həssas yanaşmasını, təşəbbüskar olmasını və cəmiyyətin inkişafına töhfə verməsini özündə birləşdirir. Psixologiya baxımından sosial aktivlik insanın şəxsiyyət xüsusiyyətləri, motivasiyası, dəyərləri və sosial rolları ilə sıx bağlıdır. Sosial aktivlik təkcə zahiri iştirak deyil, eyni zamanda insanın daxili psixoloji proseslərinin, o cümlədən şəxsiyyətin inkişafının, mənlik şüurunun və sosial kimliyinin formalaşmasının göstəricisidir. Leontyevin (1977) fəaliyyət nəzəriyyəsinə görə sosial aktivlik fərdin məqsədyönlü fəaliyyəti ilə əlaqəli olub, onun şəxsi inkişafına və cəmiyyətə adaptasiyasına təsir edir. Bu nəzəriyyəyə əsasən, sosial aktivlik yalnız bioloji və ya instinktiv bir reaksiya deyil, şüurlu və məqsədli fəaliyyətdir. "Fəaliyyət – bu, subyektin obyektiv reallıqla qarşılıqlı təsirə girdiyi, onunla əlaqəyə keçdiyi və bu əlaqə nəticəsində dəyişdiyi, həm də özünü dəyişdirdiyi bir prosesdir [12, s.175]. Rubinşteyn (1957) sosial aktivliyi insanın subyektivliyi və sosial mühitlə əlaqəsi baxımından dəyərləndirir. O, qeyd edir ki, insanın sosial aktivliyi yalnız xarici təsirlərə cavab deyil, həm də öz davranışını tənzimləyən daxili psixi proseslərin nəticəsidir. Albert Banduranın sosial-öyrənmə nəzəriyyəsinə (1986) əsasən, sosial aktivlik müşahidə və modelləşdirmə yolu ilə öyrənilir. İnsan sosial mühitdə başqalarının davranışlarını müşahidə edərək və onları təqlid edərək sosial bacarıqlar qazanır. Bu nəzəriyyə sosial aktivliyin inkişafında rolların və sosial normativlərin əhəmiyyətini vurğulayır. Sosial aktivlik müxtəlif səviyyələrdə özünü göstərə bilər. Bunlara fərdi sosial, qrup sosial və ictimai-siyasi aktivliyi aid etmək olar. Fərdi sosial aktivlik insanın şəxsi məqsədlərinə çatmaq üçün göstərdiyi sosial təşəbbüslərdir (məsələn, könüllülük, ictimai tədbirlərdə iştirak).İkinci aktivlik olan qrup sosial aktivliyi fərdlərin kollektiv fəaliyyətlərdə iştirakıdır (məsələn, komandada işləmək, sosial hərəkatlara qoşulmaq). İctimai-siyasi aktivlik isə cəmiyyətin sosial və siyasi həyatında iştirak etməkdir (məsələn, seçkilərdə iştirak, vətəndaş təşəbbüsləri).

Ümumi psixoloji nəzəriyyələr baxımından aktivlik və sosial aktivlik bir-biri ilə sıx əlaqəlidir. Aktivlik fərdin daxili enerji səviyyəsi, motivasiya və idrak proseslərindən qaynaqlanır və bu da onun sosial aktivliyini formalaşdırır. Məsələn:

- Motivasion aktivliyi yüksək olan insanlar sosial aktivliyə daha meyilli olurlar (Deci & Ryan, 2000);

- Koqnitiv aktivliyi yüksək olan insanlar sosial məsələlərə daha həssas yanaşır və kompleks sosial problemləri həll etməyə daha açıq olurlar [10, s.372]

- Davranış aktivliyi yüksək olan fərdlər sosial tədbirlərdə və ictimai fəaliyyətlərdə daha fəal iştirak edirlər (Skinner, 1953);

Sosial aktivlik insanın psixi və sosial inkişafının mühüm komponentidir. Aktivliyin müxtəlif növləri (motivasion, koqnitiv, davranış) sosial aktivliyə birbaşa təsir göstərir. Psixoloji araşdırmalar göstərir ki, fərdlərin sosial aktivliyi onların daxili motivasiyası, şəxsiyyət xüsusiyyətləri və sosial mühitdən asılıdır. Sosial aktivlik insanın cəmiyyətdə inteqrasiyasını və psixoloji rifahını artıran əsas amillərdən biridir.

Gənclərin sosial fəaliyyəti müxtəlif amillərlə formalaşır. Bunlara ailə mühiti, təhsil sistemi, cəmiyyətin sosial tələbləri, informasiya texnologiyaları kimi amilləri misal göstərmək olar. Belə ki, ailə mühitini amilindən bəhs edərkən ailənin gəncin sosial fəaliyyətinə yanaşması onun sosial fəallığının inkişafında həlledici rol oynamasını, təhsil sistemi amilini qeyd edərkən məktəblərin və universitetlərin sosial aktiv gənclərin yetişdirilməsində mühüm rolunu vurğulamaq lazımdır. Həmçinin, cəmiyyətin sosial tələblərinə toxunarkən, gənclərin yaşadıqları mühitdə mövcud olan sosial tələblər və problemlərin onların sosial fəallığına birbaşa təsir göstərməsi xüsusilə vurğulanmalıdır. Müasir dövrün tələbələrindən olan informasiya texnologiyaları, onlardan səmərəli istifadə etmə imkanları, xüsusən də istifadəçi səviyyədə rəqəmsal dövrdə sosial media və digər texnoloji platformalar gənclərin sosial aktivliyini artıran mühüm vasitələrdən biridir. Sosial keyfiyyətlərin formalaşmasında siyasi-mədəni işlərin, kütləvi tədbirlərin, texniki vasitələrin tərbiyəedici təsirləri, imkanları daha çoxdur [6, s.348]

Gənclərin təhsil alması və tərbiyəsi onların sosial inkişafına mühüm təsir göstərir, onları gələcək peşə fəaliyyətinə hazırlayır. Bu baxımdan tələbə gənclər arasında sosial fəallıq tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Müasir dövrdə gənclərin sosial fəallığının artırılması ölkənin sosial, iqtisadi və mədəni inkişafı üçün vacib şərtlərdən biridir. Ali təhsil müəssisələrində, kolleclərdə fəaliyyət göstərən tələbə təşkilatları, birlikləri, dərnəkləri və klubları bu prosesin əsas hərəkətverici gücü rolunu oynayır. Gənclər sosial fəaliyyətdə könüllülük fəaliyyəti, siyasi və ictimai fəallıq, sosial sahibkarlıq, ekoloji və davamlı inkişaf fəaliyyətləri, mədəni və yaradıcı fəaliyyətləri və s. kimi müxtəlif formalarda iştirak edə bilərlər. Könüllülük fəaliyyəti gənclərin sosial fəaliyyətə qoşulmasının ən geniş yayılmış formalarından biridir. Xeyriyyə təşkilatlarında, ekoloji layihələrdə və sosial yardım proqramlarında könüllü iştirak cəmiyyətə mühüm töhfə verir. Gənclərin sosial fəallığı və iştirak formalarına aşağıdakı nümunələri aid etmək olar:

- Siyasi və ictimai iştirak. Gənclər parlamenti, tələbə birlikləri və digər ictimai təşkilatlarda aktiv iştirak sosial məsuliyyət hissini artırır.
- Sosial sahibkarlıq. Gənclərin sosial problemlərin həllinə yönəlmiş biznes təşəbbüsləri iqtisadi və sosial inkişaf baxımından əhəmiyyətlidir.
- Ekoloji və davamlı inkişaf fəaliyyətləri. İqlim dəyişikliyi və ekoloji problemlərlə mübarizə aparan gənclər cəmiyyətin davamlı inkişafına dəstək verirlər.
- Mədəni və yaradıcı fəaliyyətlər. İncəsənət, musiqi və teatr sahəsində ictimai fəaliyyət gənclərin yaradıcılıq potensialını artırır və sosial əlaqələrini genişləndirir.

Təhsil müəssisələrində fəaliyyət göstərən tələbə birlikləri özündə gənclərin liderlik bacarıqlarının inkişafını, ünsiyyət qurma və özünü ifadə etmə qabiliyyətlərinin artmasını stimullaşdıran strukturlardandır. Bu təşkilatlar şəxsiyyətin sosial-mənəvi cəhətlərinin formalaşmasında, gənclərin cəmiyyətə adaptasiya olmasında vacib rol oynayır. Həmçinin onlarda şəxsi mənafeyin ümumi mənafedən üstün tutulmaması, ön planda cəmiyyət və vətən üçün xidmət marağı daha da güclənir. Məlumdur ki, hər bir cəmiyyətdə şəxsi mənafeyin ümumi mənafeyə tabe edilməsi zərurəti qarşıda durur. Bu obyektiv zərurətin dərk olunması əxlaqın əsasını və onun meyarını təşkil edir [5, s.345]. Bu baxımdan, tələbə birlikləri yalnız sosial və liderlik bacarıqlarını deyil, həm də əxlaqi şüurun formalaşması üçün mühüm platformadır. Onlar vasitəsilə gənclər ümumi maraqları şəxsi maraqlardan üstün tutmağın yalnız etik deyil, həm də funksional və faydalı bir yanaşma olduğunu təcrübədə öyrənmiş olurlar. Gənclərin sosial fəallığının formalaşma vasitələrinə layihələr, tədbirlər, təlimlər, seminarlar, beynəlxalq əlaqələr və s. aid etmək olar.

Tələbə strukturları gənclərin iştirakı ilə sosial, mədəni və akademik istiqamətlər üzrə mütəmadi olaraq tədbirlər təşkil edir. Bu tədbirlər gənclərin ictimai həyatla yaxından tanış olmasına, öz bacarıqlarını sınamaq və təkmilləşdirmək imkanına şərait yaradır.

Liderlik, kommunikasiya və karyera planlaşdırma kimi mövzuları əhatə edən təlimlər, seminarlar, görüşlər gəncləri daha şüurlu və aktiv vətəndaşlara çevirmək üçün əhəmiyyətli rol oynayır.

Beynəlxalq əlaqələr isə tələbə təşkilatları gənclərin beynəlxalq mühitdə iştirakını təmin edərək, onlara qlobal arenaya çıxış etmə imkanı yaradır. Bu, gənclərin öz düşüncələrini beynəlxalq auditoriyaya çatdırmasına təkan verir.

Tələbə təşkilatlarında aktiv iştirak edən gənclər müxtəlif tədbirlərin planlaşdırılması və həyata keçirilməsi zamanı liderlik bacarıqlarını inkişaf etdirirlər. Onlar gələcək iş mühitində qarşılaşacaqları problemlərlə tələbəlik illərində fəaliyyət zamanı tanış olur, onların aradan qaldırılması, problemli

situasiyaların həlli yollarının axtarılıb tapılması təcrübəsinə yiyələnirlər. Kiçik müəssisə, qurum, ailə obrazını canlandıran bu təşkilatlar öz aralarında sağlam rəqabət apararaq cəmiyyət və ələlxüsus da təhsil aldıqları universitet üçün əvəzsiz xidmətlər göstərməyə can atırlar. Minlərlə tələbə arasında fərqli baxış bucağına sahib olan altürist gəncləri birləşdirən təşkilatlar könüllülük fəaliyyəti prinsipinə əsasən böyük həcmdə işlər görür, qurumun strateji planının icrasına dəstək olurlar. Gənclər tərəfindən təşkil edilən seminarlar və tədbirlər müxtəlif sahələrdə tanınmış mütəxəssislərlə görüşmək və əlaqə qurmaq üçün unikal platformalar yaradır. Belə tədbirlər gələcəkdə iş imkanları yaratmaq, məsləhətlər almaq, praktika və təcrübə proqramlarında iştirak üçün də qapılar açır. Onu da qeyd etmək lazımdır ki, təhsil müəssisələri arasında aparılan əməkdaşlıqlarla yanaşı həmin müəssisələrdə fəaliyyət göstərən tələbə təşkilatlarının da əməkdaşlıqları üzvlərin, iştirakçıların şəbəkələşməsinə böyük təkan verir. Şəbəkələşmə xüsusilə müasir iş dünyasında uğurun əsas amillərindən biridir. Bu şəbəkələşmələr müasir dövrdə daha da sürətli və uzaq məsafələrdən də mümkün olur. Buna isə başlıca səbəb dünyada internetin və sosial şəbəkələrin inkişaf etməsidir.

Müasir dövrdə sosial şəbəkələrin insan həyatında əvəzsiz rola sahib olduğunu nəzərə alaraq, qeyd etmək olar ki, təşkilati təcrübə və vaxtın idarə olunması məsələsində gənclər üçün mütləq şəkildə maarifləndirici görüşlər təşkil edilməlidir. Tədbirlərin təşkilində iştirak edən tələbələr layihələrin idarə olunması və vaxtın səmərəli bölüşdürülməsi üzrə təcrübə qazanırlar. Bu, onların iş həyatında məhsuldar və effektiv olmasına səbəb olur. Misal olaraq, tədbirin maliyyə, logistika və kommunikasiya tərəflərinin idarə olunması kimi məsələlər tələbələrdə kompleks düşüncə qabiliyyətini inkişaf etdirir. Tələbələr öz səyləri nəticəsində uğurla həyata keçirilən layihələrin sonunda böyük motivasiya və özünəinam hissi qazanırlar. Bu isə gələcəkdə daha böyük hədəflərə çatmaq üçün vacibdir.

Təhsil müəssisələrində fəaliyyət göstərən təşkilatlarının tədbirləri çox vaxt sosial məsuliyyət mövzularına həsr olunur. Onlar fəaliyyət göstərdikləri təhsil müəssisəsində dövlət proqramlarının icrasına böyük dəstək olurlar. Bu isə gənclərin cəmiyyətin problemlərinə həssas yanaşmasını və onlara həll yolları tapmağa yönəlməsini təmin edir. Bu cür sosial bacarıqlar iş dünyasında da əməkdaşlıq ruhunun formalaşmasına və liderliyin inkişafına müsbət təsir edir.

Ali təhsil müəssisələrində tələbə təşkilatlarının təşkil etdiyi seminar və tədbirlər gənclərin həm şəxsi, həm də peşəkar inkişafı üçün mühüm platformadır. Bu tədbirlər gənclərin liderlik, şəbəkələşmə, vaxtın idarə olunması, ictimai nitq kimi vacib bacarıqlarını artırır, onlara öz gələcək karyeralarını uğurla qurmaqda kömək edir. Beləliklə, həmin fəaliyyətlər

universitet həyatı ilə iş həyatı arasında bir körpü rolunu oynayır və gənclərin daha hazırlıqlı və rəqabətqabiliyyətli fərdlər kimi yetişməsinə şərait yaradır.

Dünya praktikasında könüllülük fəaliyyəti sosial kapitalı artırmaq, gənclərin fəaliyyət sahələrini genişləndirmək və onlara yeni bacarıqlar qazandırmaq üçün çox vacib hesab edilir. BMT, UNESCO, AIESEC, ERASMUS və s. kimi beynəlxalq təşkilatlar gənclərin qlobal fəaliyyətlərə qoşulması üçün fərqli proqramlar təklif edir. Avropa və Amerika universitetlərində könüllülərin fəaliyyəti akademik kreditlər ilə qiymətləndirilir və tələbələrə yeni imkanlar açır.

Azərbaycanda da son illərdə könüllülük fəaliyyətinə böyük diqqət ayrılır. "ASAN Xidmət", "Regional İnkişaf İctimai Birliyi", "Gənclər Fondu" ATGTİ və s. kimi qurumlar gənclərin sosial fəallığını artırmaq və onların liderlik bacarıqlarını inkişaf etdirmək üçün çoxsaylı layihələr həyata keçirir. Azərbaycan universitetlərində könüllülər sosial fəaliyyətlərə qoşularaq böyük tədbirlərin təşkili, ekologiya, sosial yardım kimi sahələrdə təcrübə qazanırlar. Təhsil müəssisələrində fəaliyyət göstərməyən ictimai təşkilatların və birliklərin insan resursu mənbəyi əsasən təhsil müəssisələrində fəaliyyət göstərən birliklərdir. Bununla yanaşı, təhsil müəssisələri də ölkəmizdə aparılan könüllülük hərəkatının inkişafına yaxından iştirak edirlər.

Bu fəaliyyətlər tələbələrin özünüifadə, sosial bacarıqları və empatiya hissinin inkişafına təkan verir və eyni zamanda cəmiyyətə xeyir vermək istəyini gücləndirir.

**Nəticə**

Gənclərin sosial fəallığının formalaşmasında tələbə təşkilatlarının rolu əvəzsizdir. Bu təşkilatlar gənclərə sosial və mədəni fəaliyyətlərdə iştirak etmək imkanı yaratmaqla yanaşı, onların şəxsiyyət kimi inkişafına, liderlik bacarıqlarının artırılmasına və cəmiyyətə inteqrasiyasına da mühüm töhfələr verir. Tələbə təşkilatları, könüllülük fəaliyyəti, ictimai və siyasi iştirak, eləcə də ekoloji və mədəni layihələr vasitəsilə gəncləri daha fəal, məsuliyyətli və sosial cəhətdən həssas fərdlərə çevirməyə kömək edir. Bununla yanaşı, təhsil sistemində bu prosesin daha da gücləndirilməsi üçün bir neçə təklif irəli sürülə bilər. İlk növbədə, tələbə təşkilatlarının fəaliyyət sahələrinin daha genişləndirilməsi və bu sahələrə müasir informasiya texnologiyalarının tətbiqi onların fəaliyyətinə yeni imkanlar əlavə edə bilər. Həmçinin, ali təhsil müəssisələri gəncləri yalnız akademik baxımdan deyil, sosial məsuliyyət baxımından da yetişdirmək məqsədilə mütəmadi olaraq sosial təşəbbüsləri təşviq edən proqramlar və təlimlər həyata keçirməlidir. Ən əsası, tələbə təşkilatları və digər gənclər təşkilatları arasındakı əlaqələrin daha da gücləndirilməsi, əməkdaşlıq mühitinin yaradılması və gənclərin müxtəlif

sosial məsələlərdə birgə fəaliyyətini dəstəkləmək onların psixoloji və sosial rifahını artıracaq, ölkənin gələcək inkişafı üçün müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. *Bayramov Ə.S., Əlizadə Ə.Ə.* Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, 345 s.
2. *Əliyev R.İ.* Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı: Araz, 2000, 195 s.
3. *Əlizadə Ə.Ə.* Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001, 161 s.
4. *Əmrahlı L.Ş.* Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007, 206 s.
5. *Əzimov Q.E.* Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı, 2004, 338 s.
6. *Qədirov Ə.Ə.* Yaş psixologiyası. Bakı: Maarif, 2022, 388 s.
7. *Bandura A.* Social foundations of thought and action: A social cognitive theory. Prentice-Hall, 1986, 617 p.
8. *Deci E.L., & Ryan R.M.* Self-determination theory and the facilitation of intrinsic motivation, social development, and well-being // American Psychologist, 2000, 55(1), 68-78 pp.
9. *Neisser U.* Cognitive psychology. Appleton-Century-Crofts, 1967, 351 p.
10. *Piaget J.* The origins of intelligence in children. Norton, 1952, 443 p.
11. *Skinner B.F.* Science and human behavior. Free Press, 1953, 458 p.
12. *Леонтьев А.Н.* Деятельность, сознание, личность. Москва: Прогресс. 1977, 304 с.
13. *Рубинштейн С.Л.* Основы общей психологии в 2-х т, Т.1, М.: Педагогика, 1989, 488 с.


Redaksiyaya daxil olub 27.01.2025

*UOT 37*

***Ş.A.Məmmədbəyli***
*Azərbaycan Dillər Universiteti*
*shamsxmammadbayli@gmail.com*

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: TƏHSİL SİSTEMİ VƏ MÜƏLLİMLƏRİN İDARƏETMƏDƏ ROLU

https://doi.org/10.30546/170899876.72.01.2025.0067

***Açar sözlər:*** *təhsil idarəetməsi, keyfiyyətli idarəetmə, müəllimlərin rolu, strateji yanaşmalar*

Məqalə təhsil müəssisələrində idarəetmə keyfiyyətinin təhsilin ümumi inkişafına və cəmiyyətin sosial-iqtisadi tələblərinə uyğunlaşmasına təsirini təhlil edir. Keyfiyyətli idarəetmənin əsas göstəriciləri arasında effektiv liderlik, şəffaflıq, hesabatlılıq, daxili nəzarət mexanizmləri və innovativ texnologiyaların tətbiqi xüsusi vurğulanır. Liderlərin strateji düşüncə tərzi və müəllimlərin idarəetmə proseslərində fəal iştirakı təhsil sistemində keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə artırır. Müəllimlərin rolu yalnız dərs prosesi ilə məhdudlaşmayıb, təhsil müəssisələrinin idarəetmə strategiyalarında və keyfiyyətə nəzarət mexanizmlərində də mühüm yer tutur. Məqalədə həmçinin, idarəetməni təkmilləşdirmək üçün rəqəmsal transformasiya, texnologiyaların idarəetmə proseslərinə inteqrasiyası, müəllimlərin hüquq və vəzifələrinin genişləndirilməsi kimi tövsiyələr təqdim olunur. Təhsil müəssisələrində idarəetmə keyfiyyətinin yüksəldilməsi dayanıqlı inkişafı təmin etməklə yanaşı, rəqabətədavamlı və inklüziv bir təhsil mühitinin formalaşdırılmasına şərait yaradır. Bu yanaşmalar təhsil sisteminin ümumi keyfiyyətini yüksəltmək üçün mühüm vasitələrdir.

***Ш.А.Мамедбейли***

## ОЦЕНКА КАЧЕСТВА УПРАВЛЕНИЯ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ: ОБРАЗОВАТЕЛЬНАЯ СИСТЕМА И РОЛЬ УЧИТЕЛЕЙ В УПРАВЛЕНИИ

***Ключевые слова:*** *управление образованием, качественное управление, роль учителей, стратегические подходы*

Статья анализирует влияние качества управления в образовательных учреждениях на общее развитие образования и соответствие социально-экономическим требованиям общества. Ключевыми показателями качественного управления выделяются эффективное лидерство, прозрачность, подотчетность, внутренние механизмы контроля и внедрение инновационных технологий. Стратегическое мышление лидеров и активное участие учителей

в управленческих процессах значительно повышают показатели качества в образовательной системе. Роль учителей не ограничивается только учебным процессом, но также играет важную роль в управленческих стратегиях образовательных учреждений и механизмах контроля качества. В статье также представлены рекомендации по улучшению управления, такие как цифровая трансформация, интеграция технологий в управленческие процессы, расширение прав и обязанностей учителей. Повышение качества управления в образовательных учреждениях способствует обеспечению устойчивого развития и созданию конкурентоспособной и инклюзивной образовательной среды. Эти подходы являются важными способами для повышения общего качества образовательной системы.

***Sh.A.Mammadbayli***

## EVALUATION OF MANAGEMENT QUALITY IN EDUCATIONAL INSTITUTIONS: EDUCATION SYSTEM AND TEACHER'S ROLE IN MANAGEMENT

***Keywords:*** *educational management, quality management, role of teachers, strategic approaches*

The article analyzes the impact of the quality of management in educational institutions on the overall development of education and its adaptation to the socio-economic requirements of society. Among the key indicators of quality management, effective leadership, transparency, accountability, internal control mechanisms and the application of innovative technologies are emphasized. Strategic thinking of leaders and active participation of teachers in management processes significantly improve quality indicators in the education system. The role of the teacher is not only limited to the teaching process, but also plays an important role in the management strategies and quality control mechanisms of educational institutions. The article also includes recommendations for improving management, such as digital transformation, integration of technologies into management processes, and expanding teachers' rights and duties. Improving the quality of governance in educational institutions creates the conditions for a competitive and inclusive educational environment while ensuring sustainable development. These approaches are important tools for improving the overall quality of the education system.

Müasir dünyada təhsil sistemi cəmiyyətin sosial-iqtisadi inkişafının əsas sütunlarından biri kimi qəbul olunur. Təhsilin keyfiyyətini təmin etmək və onu davamlı şəkildə təkmilləşdirmək üçün idarəetmə prosesinin düzgün qurulması böyük əhəmiyyət daşıyır. Keyfiyyətli idarəetmə müasir təhsil sistemində rəqabətədavamlı mühitin formalaşdırılması və davamlı inkişafa nail olunması üçün əsas vasitələrdən biridir. Təhsil müəssisələrində idarəetmə yalnız struktur və proseslərin optimallaşdırılmasını deyil, həm də

insan kapitalının səmərəli istifadəsini də əhatə edir. Bu baxımdan, təhsildə idarəetmənin keyfiyyəti, şagird və tələbələrin uğurlarına, müəllimlərin inkişafına və ümumilikdə təhsil müəssisələrinin cəmiyyətin tələblərinə uyğunlaşmasına birbaşa təsir göstərir.

Müəllim isə təhsil idarəçiliyində ən vacib faktordur. Onların vəzifəsi yalnız dərs keçmək deyil, eyni zamanda təhsil müəssisəsinin idarəetmə strategiyasında, keyfiyyətə nəzarət mexanizmlərinin tətbiqində və ümumi tədris mühitinin formalaşdırılmasında mühüm rol oynayır. Müəllimlərin idarəetmə proseslərində daha fəal iştirakı, onların peşə təcrübəsindən daha geniş istifadə olunmasına və təhsil sisteminin ümumi keyfiyyət göstəricilərinin artmasına şərait yaradır.

## I. Təhsil idarəçiliyinin keyfiyyətinə təsir edən amillər

Təhsil müəssisələrində idarəetmə keyfiyyətinin yüksəldilməsi, təhsil sisteminin dayanıqlı inkişafını təmin etməklə yanaşı, cəmiyyətin ehtiyaclarına uyğunlaşma qabiliyyətini də artırır. Bu proses müxtəlif amillərin qarşılıqlı əlaqəsi ilə həyata keçirilir və mükəmməl idarəetmənin əsasını təşkil edən bir sıra göstəriciləri əhatə edir. Aşağıdakı hissədə təhsildə idarəetmənin keyfiyyətini təmin edən əsas faktorlar və onların əhəmiyyəti müzakirə ediləcək.

### 1. Effektiv liderlik

Təhsil idarəçiliyində liderlik, güclü ünsiyyət bacarıqları, aydın bir vizyon və düzgün strateji plan tələb edir. Liderlərin komanda idarəetmə bacarıqları, təhsil proseslərinin səmərəli və davamlı olmasında mühüm rol oynayır. Bu amillər uğurlu təhsil idarəçiliyinin əsas təməl daşlarını təşkil edir [1, s.139]. Effektiv idarəetmə təhsil müəssisələrinin idarə olunmasında ən əsas göstəricilərdən biridir. Liderlərin strateji düşüncə tərzi, qərar qəbul etmə bacarığı və əməkdaşlıq mühitini təşviq etmə qabiliyyəti idarəetmə keyfiyyətinə birbaşa təsir göstərir [2, s.35]. Effektiv idarəetmə yalnız cari vəziyyəti qoruyub saxlamaq deyil, həm də davamlı inkişaf üçün əlverişli şərait yaratmaq deməkdir. Bu prosesdə liderlərin vizyonu və dəyişikliklərə adaptasiya qabiliyyəti xüsusi əhəmiyyət daşıyır. Təhsil müəssisələrində innovativ yanaşmaların tətbiqi, resursların səmərəli idarə olunması və keyfiyyət standartlarının təmin edilməsi liderlərin əsas prioritetlərindən olmalıdır.

Bununla yanaşı, təhsil liderləri komanda üzvlərinin peşəkar inkişafını dəstəkləməli və onların potensialını artırmaq üçün müxtəlif imkanlar yaratmalıdırlar. Liderlərin bu istiqamətdə nümayiş etdirdiyi şəffaflıq, obyektivlik və dəstək yanaşmaları iş mühitində harmoniya və kollektiv məsuliyyət hissini gücləndirir. Eyni zamanda, effektiv idarəetmə tələbələrin uğur göstəricilərinin artırılması üçün yeni təhsil texnologiyalarının və

metodlarının tətbiqini də ehtiva edir. Rəqəmsal transformasiya, inklüziv təhsil modelləri və fərdiləşdirilmiş tədris yanaşmaları müasir təhsil idarəçiliyinin mühüm komponentlərindəndir.

**2. Şəffaflıq və hesabatlılıq**

Təhsilin idarə olunmasında şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqi idarəetmə proseslərinin daha ədalətli və effektiv şəkildə həyata keçirilməsinə kömək edir. Şəffaflıq, qərar qəbul etmə proseslərinin aydın və başa düşülən olması, məlumatların vaxtında və düzgün çatdırılması ilə təmin olunur [3, s.129]. Hesabatlılıq isə idarəçilərin, müəllimlərin və digər işçilərin öz vəzifə öhdəliklərinə görə məsuliyyət daşımalarını təmin edən bir sistemdir. Şəffaflıq və hesabatlılığın yüksək səviyyədə təmin olunması, həm də resursların düzgün bölüşdürülməsinə və təhsil müəssisələrində etibar mühitinin formalaşmasına şərait yaradır [4, s.3277]. Şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqi yalnız təhsil müəssisələrində deyil, həm də təhsil siyasətini həyata keçirən dövlət qurumlarında, yerli hakimiyyət orqanlarında və digər əlaqədar təşkilatlarda əhəmiyyətli rol oynayır. Bu prinsiplərin düzgün tətbiqi, təhsil sisteminin effektivliyini artırmağa və uzunmüddətli inkişafını təmin etdirir. Eyni zamanda, bu yanaşmaların tətbiqi ilə təhsil sistemində korrupsiyaya qarşı mübarizə güclənir və təhsilin keyfiyyətinin artırılmasına yönələn islahatlar həyata keçirilir. Nəticə etibarilə, şəffaflıq və hesabatlılıq təhsil idarəçiliyinin müasir və davamlı inkişafını təmin edən əsas amillərdən biri olaraq qalır.

**3. Daxili nəzarət mexanizmləri**

Təhsil idarəetməsində daxili nəzarət strategiyası, təhsil müəssisələrinin fəaliyyətinin keyfiyyətini təmin etmək və riskləri idarə etmək üçün mühüm vasitədir. Daxili nəzarət sistemləri, fəaliyyətlərin qanunauyğunluğunun təmin edilməsi, maliyyə və resursların səmərəli istifadəsi, təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədini güdür. Eyni zamanda, bu vasitə ilə problemlərin erkən aşkarlanması və aradan qaldırılması mümkün olur [5, s.187]. Bu mexanizmlərin mövcudluğu və effektiv işləməsi idarəetmənin davamlı olaraq yaxşılaşdırılmasına və daha dayanıqlı bir təhsil mühitinin formalaşmasına töhfə verir.

Bu göstəricilər təhsil müəssisələrində idarəetmə keyfiyyətinin əsas dayaqları olmaqla, onların davamlı inkişafı və təkmilləşdirilməsi təhsil sisteminin ümumi uğurunu müəyyənləşdirir.

## II. Müəllimlərin təhsil sistemindəki rolu və onların inkişafı

Müəllimlər, təhsil sisteminin ən vacib sütunlarından biri olaraq, yalnız tədris prosesində deyil, həm də idarəetmə funksiyalarında mühüm rol oynayırlar. Onların tədris keyfiyyətinə təsiri, şagirdlərin inkişafına töhfəsi və

dərs prosesindən kənar idarəetmə fəaliyyətlərində iştirakı təhsil müəssisələrinin ümumi keyfiyyət göstəricilərinə əhəmiyyətli təsir göstərir.

**1. Tədris keyfiyyətinə təsiri**

Müəllimlərin əsas vəzifəsi, keyfiyyətli təhsil prosesinin təmin olunmasıdır. Onların dərs planlaması, müasir metodikaların tətbiqi və innovativ tədris yanaşmaları, şagirdlərin və tələbələrin uğurlarına birbaşa təsir edir [6, s.13]. Tədris keyfiyyəti müəllimlərin peşəkar inkişafı ilə sıx bağlıdır, buna görə də onların mütəmadi olaraq təlimlərdə iştirakı və yeni biliklər əldə etməsi təhsil müəssisələrinin uğuru üçün vacibdir [7, s.168]. Müəllimlər yalnız akademik biliklərin çatdırılması ilə kifayətlənməyərək, şagirdlərin psixoloji və sosial inkişafında da böyük təsir gücünə malikdirlər. Onların rolu şagirdlərin özünəinamının artırılması, şəxsi potensiallarının üzə çıxarılması və cəmiyyətin məsuliyyətli vətəndaşları kimi formalaşmalarına kömək etməkdir [8, s.6]. Şagirdlərin davranış və dəyərlərinin formalaşmasında müəllimlərin nümunəvi davranışı əvəzolunmazdır. Təhsil müəssisələrində müsbət tədris mühiti yaratmaq müəllimlərin və liderlərin əsas vəzifələrindən biridir və bu mühit şagirdlərin intellektual və emosional inkişafını təşviq edir [9, s.169].

**2. Dərs prosesindən kənar idarəetmə funksiyaları**

Müasir təhsil müəssisələrində müəllimlərin funksiyaları yalnız tədris fəaliyyətləri ilə məhdudlaşmır. Onlar təhsil müəssisələrinin idarə olunmasında, qərarların qəbul edilməsində və resursların bölüşdürülməsində fəal iştirak edirlər [10, s.23]. Müəllimlər həm də məktəb və ya universitet səviyyəsində tədris strategiyalarının hazırlanmasında, təhsil keyfiyyətinin monitorinqində və innovativ layihələrin həyata keçirilməsində əsas rollardan birini yerinə yetirirlər. Bundan əlavə, müəllimlər valideynlərlə əməkdaşlıq etmək, əlaqələri gücləndirmək və təhsil müəssisələrinin ümumi imicini yaxşılaşdırmaq üçün müxtəlif tədbirlərdə iştirak edirlər [11, s.904].

Müəllimlərin idarəetmə prosesində daha fəal iştirakı, onların təhsilin keyfiyyətinə daha çox töhfə verməsinə imkan yaradır. Bu səbəbdən müəllimlərin peşəkar inkişafı, idarəetmə bacarıqlarının artırılması və onların rolu ilə bağlı yanaşmaların təkmilləşdirilməsi təhsil sistemindəki ümumi irəliləyiş üçün əsas istiqamətlərdən biridir.

## III. İdarəetmə keyfiyyətini təkmilləşdirmək üçün təkliflər

Təhsil müəssisələrində idarəetmə keyfiyyətini artırmaq üçün həm strateji yanaşmaların tətbiqi, həm də innovasiyaların və müasir texnologiyaların istifadəsi vacibdir. Bundan əlavə, təhsil siyasətində dəyişikliklərin həyata keçirilməsi idarəetmə proseslərinin daha səmərəli və inklüziv olmasına töhfə verə bilər. Bu bölmədə idarəetmə keyfiyyətini təkmilləşdirmək üçün konkret təkliflər irəli sürülür.

**1. Strateji yanaşmalar**

Effektiv idarəetmə üçün strateji yanaşmaların tətbiqi, təhsil müəssisələrinin fəaliyyətini uzunmüddətli perspektivdə optimallaşdırmağa imkan yaradır. Məsələn:

Keyfiyyətin qiymətləndirilməsi üçün indikatorların hazırlanması: təhsil müəssisələrində idarəetmə keyfiyyətini obyektiv şəkildə ölçmək üçün standart indikatorların hazırlanması vacibdir. Bu indikatorlar tədris keyfiyyəti, maliyyə və resursların idarə olunması, tələbə və müəllim məmnuniyyəti kimi aspektləri əhatə etməlidir [12, s.79]. Belə yanaşma problemlərin vaxtında aşkarlanmasına və idarəetmə proseslərinin davamlı olaraq təkmilləşdirilməsinə şərait yaradar.

Müəllimlərin idarəetmə proseslərinə cəlb edilməsi: müəllimlərin idarəetmə proseslərində fəal iştirakını təmin etmək üçün müvafiq mexanizmlərin yaradılması zəruridir. Müəllimlər strategiya planlaşdırılması, qərar qəbul etmə və təhsil mühitinin inkişaf etdirilməsi proseslərinə daha çox inteqrasiya edilməlidirlər [13]. Bu yanaşma onların təcrübəsindən daha effektiv istifadə etməyə və idarəetmədə daha geniş baxış bucağı təmin etməyə kömək edər.

**2. İnnovasiyaların tətbiqi**

Müasir texnologiyaların və innovativ yanaşmaların idarəetmə proseslərində tətbiqi təhsil müəssisələrinin effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Rəqəmsal idarəetmə sistemlərinin rolu. Təhsil idarəçiliyində rəqəmsal platformaların istifadəsi idarəetmə proseslərini sürətləndirməklə yanaşı, şəffaflığı və hesabatlılığı artırır [14].

Texnologiyanın idarəetmədə istifadəsi. Təhsil idarəçiliyində texnologiyanın geniş tətbiqi, məsələn, süni intellekt və məlumat analitikası vasitəsilə qərar qəbul etmə proseslərinin təkmilləşdirilməsi mümkündür. Eyni zamanda, müəllimlərin və idarəçilərin texnoloji bacarıqlarının artırılması üçün müvafiq təlimlərin təşkili vacibdir [15, s.2387].

**3. Təhsil siyasətində dəyişikliklər**

Təhsil sisteminin inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında sıx əməkdaşlıq və müəllimlərin hüquqlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Dövlət və özəl sektor arasında əməkdaşlıq. Təhsil siyasətində dövlət və özəl sektor arasında əməkdaşlıq təhsil müəssisələrinin maliyyə və resurs bazasını genişləndirmək üçün effektiv bir yanaşmadır. Bu əməkdaşlıq çərçivəsində təhsilin inkişafı üçün müxtəlif layihələrin həyata keçirilməsi mümkündür [16, s.194].

Müəllimlərin hüquq və vəzifələrinin genişləndirilməsi. Müəllimlərin peşəkar fəaliyyətlərini daha effektiv həyata keçirmələri üçün onların

hüquqlarının genişləndirilməsi və əlavə dəstək mexanizmlərinin təmin olunması vacibdir [17, s.28].

Bu təkliflərin həyata keçirilməsi təhsil müəssisələrində idarəetmə keyfiyyətini artırmaqla yanaşı, tədris mühitinin ümumi keyfiyyətinə və davamlı inkişafına mühüm töhfə verə bilər.

**Nəticə**

Bu araşdırma təhsil müəssisələrində idarəetmə keyfiyyətinin ümumi təhsil sisteminə təsirini və müəllimlərin bu prosesdəki əhəmiyyətini vurğulayıb. Araşdırma göstərir ki, effektiv idarəetmə təhsil müəssisələrinin fəaliyyətinə birbaşa təsir edərək, həm tədris keyfiyyətinin yüksəlməsinə, həm də şagirdlərin və müəllimlərin inkişafına şərait yaradır.

**1. Ümumi dəyərləndirmə**

Əsas nəticələrdən biri odur ki, idarəetmə keyfiyyəti yalnız liderliyin effektivliyi və aydınlığından deyil, həm də müəllimlərin bu prosesdə fəal iştirakından asılıdır. Müəllimlərin idarəetmə funksiyalarında iştirakı onların peşəkar inkişafını təmin etməklə yanaşı, təhsil müəssisələrinin ümumi idarəetmə sistemini də təkmilləşdirir. İdarəetmədə strateji yanaşmalar, innovativ texnologiyaların tətbiqi və müəllimlərin hüquqlarının genişləndirilməsi təhsilin davamlı inkişafı üçün əsas şərtlərdəndir.

**2. Gələcək perspektivlər**

Araşdırma nəticəsində təhsil müəssisələrində idarəetmə keyfiyyətinin təhsilin inkişafında həlledici rol oynadığı bir daha sübut olundu. Ənənəvi idarəetmə yanaşmalarının müasir tələblərə cavab verməsi üçün yenilikçi və adaptiv metodların tətbiqi vacibdir. İdarəetmədə liderlik, şəffaflıq və texnologiyanın sintezi ilə təhsil sistemində həm müəllimlərin, həm də şagirdlərin inkişafına şərait yaradılması mümkündür. Təhsil sistemində davamlı inkişafı təmin etmək üçün aşağıdakı yenilikçi təkliflər irəli sürülür:

1. Şəbəkələşmiş təhsil idarəçiliyi. Dövlət, özəl sektor, qeyri-hökumət təşkilatları və beynəlxalq təhsil təşkilatları arasında əməkdaşlığı artırmaq üçün rəqəmsal şəbəkələrin yaradılması. Bu yanaşma resurs paylaşımını və qlobal təcrübələrin yerli sistemlərə uyğunlaşdırılmasını sürətləndirər.
2. Təhsil innovasiya mərkəzləri. Müxtəlif təhsil müəssisələri arasında idarəetmə təcrübələrinin bölüşüldüyü və yeni idarəetmə metodlarının sınaqdan keçirildiyi mərkəzlərin yaradılması.
3. "Tədris liderləri" proqramı. Müəllimlərin idarəetmə bacarıqlarını artırmaq üçün liderlik və idarəetmə üzrə ixtisaslaşmış proqramların təşkili.

4. Əməşdaşlıq. Müəllimlərin təhsil müəssisələrindən kənar sahələrlə əməkdaşlıq edərək öz biliklərini genişləndirməsi və idarəetmə təcrübəsi qazanması üçün imkanların yaradılması.
5. "Şagirdlərin səsi" platforması: Şagirdlərin təhsil mühitinin idarəedilməsinə dair təklif və şikayətlərini rahatlıqla çatdıra biləcəyi rəqəmsal platformaların yaradılması.

Bu yenilikçi yanaşmaların tətbiqi təhsil müəssisələrinin idarəetmə keyfiyyətini yeni səviyyəyə qaldırmaqla yanaşı, Azərbaycanın təhsil sistemini qlobal rəqabət mühitinə daha yaxşı uyğunlaşdırmağa imkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. *Belma E. T., Güven Y., Mustafa Ş. Y. ve d.* Eğitim Yönetiminde Liderlik: Etkili Liderlik Modelleri // International QMX Journal, 2024, 3(1), s.139–147
2. *Ergen T.* Stratejik liderlik ve takım çalışmasındaki rolü - Erzurum İli 112 Acil Sağlık Hizmetlerinde Bir Uygulama. Atatürk Üniversitesi, 2011
3. *Göçer A.* Öğretmen Rolleri, Öğrenci Etkililiği ve Eğitim Kazanımları Bakımından Türkçe Dersi Metin İşleme Süreci // Milli Eğitim Dergisi, 2014, 44(204), s.167–198
4. *Kaya Z. Avrupa Birliğine Üyelik Sürecinde Türk Eğitim Sisteminde* Toplam Kalite Yönetimi və İstanbul İlindeki Okullarda Toplam Kalite Yönetiminin Uygulanması Konusunda bir Araştırma. İstanbul Üniversitesi, 2010
5. *Korkmaz G.* İç Kontrol, Risk Yönetimi Ve Kurumsal Yönetim Süreçlerinin Değerlendirilmesine Yönelik Ölçeklerin Güvenilirlik ve Geçerlilik Çalışması //Dokuz Eylül Üniversitesi İşletme Fakültesi Dergisi, 2020, 21(1), s.177–201
6. *Özgüray A., Yılmaz, N., Karakoç A., Turan, G., Karababa Z., & Aksoy İ.* Okul Yöneticileri ve Öğretmenlerin Teknoloji Kullanımı Yeterlikleri // Journal of Academic Social Resources, 2023, 8(47), s.2374–2388
7. *Tura B. & Akbaşlı S.* Öğretmen yenilikçiliğini etkileyen faktörler. Uluslararası Temel Eğitim Çalışmaları Dergisi, 2021, 2(1), s.15–28
8. *Altunay R. K., Bayram A., Songül A., Sezer, Y., & Emekli T.* Teacher and Administrator Perceptions on Accountability in Educational Organisations // International Journal of Social and Humanities Sciences Research, 2023, 10(101), s.3276–3285
9. *Culduz M. The impact of educational leadership in improving the learning experience*. In Advances in educational marketing, administration, and leadership book series, 2023, pp. 168–189
10. *Dunking Michael J.* The International Encyclopaedia of Teaching and Teacher Education. Oxford: Pergamon Press, 1987
11. *Govindharajan M.* Teachers are the Role Models to Students. JOUR, 01, 2017

12. *Hallak J. & Poisson M.* Governance in Education: transparency and accountability. UNESCO-IIEP, 2006
13. *Okudan A.Ş. Teacher's effect on student's academic success*. Sports Education and Child, 2024, 4(3), pp.11–28
14. *King M.* (2023). *7 reasons why schools need strategic planning.* Envisio. https://envisio.com/blog/7-reasons-schools-need-strategic-planning/
15. *Using digital tools to promote transparency and accountability*. (t.y.). UNESCO IIEP - Etico. https://etico.iiep.unesco.org/en/using-digital-tools-promote-transparency-and-accountability

Redaksiyaya daxil olub 11.03.25

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2025, C.73, №1, s. 138-144
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2025, V.73, №1, pp. 138-144

*UOT 78.07*

***F.İ.Rzayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*firangiz-rzayeva @mail.ru*

# ŞAGİRDLƏRİN MUSİQİ TƏRBİYƏSİ KONTEKSTİNDƏ FƏNLƏRARASI SİNTEZ PROSESİ

https://doi.org/10.30546/170899876.72.01.2025.0072

***Açar sözlər:*** *innovasiyalar, fənlərarası əlaqə, yaradıcılıq prosesi, musiqi qavrayışı, təxəyyül, obrazlı təfəkkür*

Məqalədə qeyd olunur ki, gənc nəslin estetik tərbiyəsinin, bundan irəli gələrək musiqi tərbiyəsinin innovativ yollarının axtarışı cəmiyyət həyatının bütün sahələrinin humanistləşdirilməsinə artan tələbatı ilə əlaqəlidir. Fənlərarası əlaqə məktəbliyə musiqi, teatr və təsviri sənət xüsusiyyətlərinin dərk edilməsində əhəmiyyətli yardım göstərə bilər. Xüsusi olaraq vurğulanır ki, tədrisdə fənlərarası əlaqələr şagirdin zehni fəaliyyətinə yaradıcılıq elementlərini daxil edir. Bunu musiqi dərslərində müxtəlif bədii yaradıcılıq növlərinin bir-biri ilə qarşılıqlı əlaqələndirilməsi və tədris prosesində davamlılığın nəzərə alınması yolu ilə həyata keçirmək olar. Musiqi fənninin ona daha uzaq sayılan, informatika, riyaziyyat, fizika kimi fənlər ilə də inteqrasiya əlaqələri mümkündür.

***Ф.И.Рзаева***

## ПРОЦЕСС МЕЖДИСЦИПЛИНАРНОГО СИНТЕЗА В КОНТЕКСТЕ МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ СТУДЕНТОВ

***Ключевые слова:*** *инновации, междисциплинарная коммуникация, творческий процесс, музыкальное восприятие, воображение, образное мышление*

В статье отмечается, что поиск инновационных путей эстетического воспитания подрастающего поколения, а также музыкального образования связан с растущим спросом гуманизации всех сфер общественной жизни. Междисциплинарность может оказать значительную помощь школьнику в понимании особенностей музыки, театра и изобразительного искусства. Особо подчёркивается, что межпредметные связи в обучении включают творческие элементы в мыслительную деятельность школьника. Этого можно добиться возрождая на уроках музыки разные виды художественного творчества через взаимодействие друг с другом и учитывая преемственность в учебном процессе. Возможно создание интеграционных отношений между предметом музыки и такими предметами, как информатика, математика и физика, которые считаются более далёкими от него.

***F.I.Rzayeva***

## PROCESS OF INTERDISCIPLINARY SYUNTHESIS IN THE CONTEXT OF MUSICAL EDUCATION OF STUDENTS

The article notes that the search for innovative ways of aesthetic education of the younger generation, as well as musical education, is connected with the growing demand for humanization of all spheres of public life. Interdisciplinarity can provide significant help to the student in understanding the features of music, theater and visual arts. It is especially emphasized that intersubject connections in education include creative elements in the student's mental activity. This can be achieved by reviving different types of artistic creativity in music lessons through interaction with each other and taking into account continuity in the educational process. It is possible to create integration relations between the subject of music and such subjects as computer science, mathematics and physics, which are considered more distant from it.

Müasir elmin inkişafında elmi biliklərin sintezi ilə vəhdətdə diferensiallaşdırılması, tədqiqat metodlarının elmin bir sahəsindən digərinə köçürülməsi, ictimai şüurda olan inteqrativ proseslər onun istiqamətini müəyyən edən prioritet xüsusiyyətlərə çevrilir. Müasir elmin bu xüsusiyyətləri təhsilin inkişafının yeni yollarını axtarmağa yardım edir və onun əsas məqsədi dünyanı vahid şəkildə dərk edən, peşəkar, sosial sahələrdə aktiv fəaliyyət göstərə bilən çoxşaxəli yaradıcı insan yetişdirməkdir.

Müasir dövrdə mövcud olan texniki imkanlar insanın bütün gözləntilərini üstələyib və bu, şübhəsiz, həyatın bir çox sahələrində innovasiyaların tətbiqinə imkan yaradır. Adətə çevrilmiş konservativ ənənəvi tədris üsulları daha liberal üsullarla əvəz olunur. Mütəxəssislər arasında tədris üsulları və metodları ilə bağlı olan suallar qızğın müzakirələr mövzusuna çevrilir. Musiqi təhsili məzmununun yenilənməsi müxtəlif yollarla aparıla bilər. Lakin real dəyişikliklər müəllimin pedaqoji prosesə nə dərəcədə yeniliklərdən istifadə etməsindən asılıdır.

Gənc nəslin estetik tərbiyəsinin, bundan irəli gələrək musiqi tərbiyəsinin innovativ yollarının axtarışı cəmiyyət həyatının bütün sahələrinin humanistləşdirilməsinə artan tələbatı ilə əlaqəlidir. Bu məqsədin reallaşdırılmasının qeyri-şərtsiz mənbəyi uşaq və yeniyetmələrin yüksək keyfiyyətli ümumi təhsil alması, onların daim mənəvi cəhətdən zənginləşməsidir. Məhz bu səbəbdən pedaqoji prosesdə estetik yönümlü fənlərə son dərəcə mühüm əhəmiyyət verilir. Bu fənlərin sırasında Musiqi fənni xüsusi ilə seçilir.

Təhsildə subyektlərin inteqrasiyasının tətbiqi problemi uşaqların idrak ehtiyatlarını ödəmək və intellektual fəaliyyətə can atmaq məsələlərini həll

etmək üçün nəzərdə tutulmuşdur. Bir çox tədqiqat əsərləri, eyni zamanda xarici elmi mənbələrdə açıqlanan təcrübələr göstərir ki, onların şagirdlərin idrak fəaliyyətlərinə daxil edilməsi mərhələlərində fənlərarası əlaqə başlanğıc, həvəsləndirici stimul rolunu oynayır. Əvvəlki təcrübə nəticəsində əldə olunan biliklərin sintezi onun idrak fəaliyyətinin tənzimlənməsinə çevrilir.

İdrak fəaliyyətinin məhsuldarlığını xarakterizə edən biliyin bir fəndən digərinə ötürülməsi bacarığı şagirdin əqli inkişafının göstəricisi kimi çıxış edir. Ötürülmə – məlum olanın fənlərarası ümumiləşdirilmədən və yeni, ümumiləşdirilmiş biliyin sintezindən ibarətdir. Tədrisdə fənlərarası əlaqələr şagirdin zehni fəaliyyətinə yaradıcılıq elementlərini və eyni zamanda, idrak fəaliyyətində özünü göstərən reproduksiya, axtarış elementlərini daxil edir.

Yeni pedaqoji təfəkkürün əsas prinsipləri haqqında Azərbaycanın görkəmli pedaqoq-alimi A.Mehrabov demişdir: "Azərbaycanın təhsil tarixində artıq tələbəyönümlü bir təhsil sistemi formalaşır. Cəmiyyətimizin ehtiyac və tələbatlarına uyğun bu sistemin qurulmasında demokratikləşmə, humanistləşmə, inteqrasiya, diferensiallaşma, fərdiləşmə, humanitarlaşma kimi mühüm pedaqoji prinsiplər nəzərə alınır" (3).

Qədim dövrlərdə yaradıcı insanlar fəlsəfə, din, poeziya, musiqi, bədii yaradıcılıq sahəsində çoxşaxəli, maarifçi şəxsiyyətlər olmuşlar. Dünya incəsənəti tarixindən bəzi nümunələri misal göstərmək istərdik. Məsələn, qədim Yunanıstanın incəsənətində musiqi, rəssamlıq və memarlığın təbii birləşməsinin sintezi mövcud idi. Qədim Şərqdə isə bu sintez özünü musiqi, söz, rəqs və təsviri incəsənətin birliyində təzahür etdirdi. Nümunə olaraq, əlində musiqi aləti olan, düşmənə hücum çağırışı ilə sehrli rəqsini ifa edən şamanı əks etdirən qayaüstü rəsmləri göstərə bilərik.

Müasir ümumtəhsil məktəbində musiqi müəllimi dərs prosesinə hazırlığı zamanı, mövzudan irəli gələrək, özündə sənətşünaslıq, kulturologiya, diyarşünaslıq, ədəbiyyat, tarix, psixologiya, teatr, memarlıq, təsviri sənət elementlərini birləşdirməlidir. Tədris fənlərinin bu növ sintezi əsasında öyrədilməsi, həyatımızın əksi olan incəsənətin kompleks dərk olunmasına yardım edir.

Fənlərarası əlaqə uşağa musiqi, teatr və təsviri sənətin xüsusiyyətlərinin dərk edilməsində əhəmiyyətli yardım göstərə bilər. Bunu musiqi dərslərində müxtəlif bədii yaradıcılıq növlərinin bir-biri ilə qarşılıqlı əlaqələndirilməsi və tədris prosesində davamlılığın nəzərə alınması yolu ilə həyata keçirmək olar. Vurğuladığımız fikrə əsas kimi, akademik İ.Pavlovun ali sinir fəaliyyəti haqqında olan nəzəriyyəsini göstərə bilərik (6). Nəzəriyyəyə görə, hər bir yaranmış müvəqqəti əlaqə və ya şərti

refleks istər-istəməz əvvəllər qurulmuş müvəqqəti əlaqələr sisteminə daxil edilir.

Fənlərarası əlaqələr tədris prosesində və ya şagirdin şüurunda müxtəlif fənlər arasında yaranan faktiki əlaqələrin ifadəsidir. Fənlərarası əlaqələrin iki tərəfi mövcuddur: obyektiv və subyektiv. Bu əlaqələrin obyektiv tərəfi təhsilin məzmununun müəyyən edilməsində öz ifadəsini tapmalı və müvafiq tədris fənləri üzrə kurikulum, fənn proqramlarının tərtib edilməsində, dərsliklərin, tədris-metodiki vəsaitlərin tərtibində nəzərə alınmalıdır. Fənlərarası əlaqələırin subyektiv tərəfi isə təlim prosesində müəllimlər tərəfindən həyata keçirilir.

Fənlərarası əlaqələrin müxtəlif formaları mövcuddur. Onlardan biri axtarış metodudur və özündə tədris materialının toplanmasını, yaradıcılıq layihələrinin yerinə yetirilməsini, müxtəlif səviyyəli müsabiqələrdə, bədii konsert axşamlarında iştirakı, mövzunun müstəqil öyrənilməsini ehtiva edir. Bu əlaqələrin digər forması – layihə fəaliyyətidir ki, nəzəri biliklərin praktiki təcrübə ilə birləşməsinə yardım edir. Layihə fəaliyyəti bilik və vərdişlərə qarşı tətbiqi yanaşmanı formalaşdırır. Eyni zamanda şagirdlərə incəsənət sahəsində daha dolğun, yaradıcı özünüifadə imkanları şəraitini yaradır. Layihə mövzularının seçimi müxtəlif ola bilər. Onlar, bir qayda olaraq, tədris fənlərinin məzmunundan və ya onlara yaxın, "qonşu" sahələrdən daxil edilir. Beləliklə, biliklərin kifayət qədər təbii inteqrasiyası əldə olunur.

Qeyd etdiyimiz kimi, musiqi fənninin tədrisində humanitar fənlər olan ədəbiyyat, tarix, həyat bilgisi, incəsənət sahələri olan boyakarlıq, teatr, kino sənəti, xoreoqrafiya və s. ilə inteqrasiya əlaqələri ən faydalı, məhsuldardır. Lakin buna baxmayaraq, musiqini digər, ona daha uzaq olan sahələr sayılan, informatika, riyaziyyat, fizika kimi fənlər ilə də inteqrasiya əlaqələri yaratmaq mümkündür. Yüksək emosional-estetik təsirdən başqa, bu növ dərslər şagirdlərdə dünyanın əsl bədii kəşf mənbəyinə, onların yaradıcı potensialının inkişaf stimuluna, bədii zövqün formalaşması vasitəsinə çevrilir. Elmin, incəsənətin və ədəbiyyatın yuxarıda qeyd etdiyimiz sahələrini birləşdirən dərin əlaqələr müxtəlif anlayışların kompleksli qavrayışın formalaşmasında davamlılığını təmin etməyə imkan yaradır.

Musiqi fənninin tədrisində "inteqrasiya" anlayışının bir neçə mənası ola bilər. Məsələn şagirddə musiqi dünyası haqqında dolğun təsəvvür yaratmaq mənası (bu halda inteqrasiyaya tədrisin məqsədi kimi baxılır). Bu növ inteqrasiya nəticəsində şagird ayrı-ayrı anlayışlar arasında olan əlaqəni görmək, musiqi dünyasını tam şəkildə təsəvvür etmək, fənn biliklərinin bir-birinə yaxınlaşması üçün ümumi platforma tapmaq imkanını əldə edir. Bu halda inteqrasiya tədris vasitəsi olur. Mövcud fənn biliklərinin qovşağından şagirdlər musiqi dünyası haqqında yeni təsəvvürlər əldə edərək, onları sistematik şəkildə tamamlayır və genişləndirir, onlarda musiqili-inteqrativ

təfəkkürün inkişafına istiqamətləndirir. Bu halda inteqrasiya tədrisin nəticəsi kimi çıxış edir.

Musiqi dərslərində fənlərarası və fəndaxili inteqrasiya bir neçə fənni müəyyən əsas mövzu və ya əsas anlayışlar ətrafında birləşdirməklə həyata keçirilə bilər. Şagirdlərə musiqi dərslərində bu sənətin inkişafında olan tarixi dövrlər, bu dövrlərdə fəaliyyət göstərən bəstəkarlar və onların yaradıcılıqları, musiqi dilinin, onun ifadə vasitələrinin, musiqi formaları haqqında biliklər verilir. Verilən biliklər şagirdlərin yaradıcılıq təfəkkürünə və dünyagörüşünə təsir göstərir. Onlar musiqi əsərini dinlədikdə musiqi ifadə vasitələri ilə, nümunələr vasitəsi ilə tanış olur, məlumatlandırılır və dərsin bu bölümü fənnin ən əhəmiyyətli komponentlərindən biri olur. Bu bölüm dərsin musiqi təlimi, musiqi ədəbiyyatı və sadə alətlərdə ifa etmə bölümləri ilə uyğunlaşdırılır. Bu da, öz növbəsində, musiqi əsərinin xarakteri, onun tempi, dinamik inkişafı, musiqi forması kimi xüsusiyyətlərinin dərk olunmasına yardım edir.

Musiqi dərslərində biliklərin sintezi vasitəsi ilə yaranan fənlərarası inteqrasiya ancaq musiqi qavrayışı mədəniyyətinin yüksəldilməsinə deyil, həm də bədii fəaliyyətin fəal formalarında yaradıcılıq vəzifələrinin yerinə yetirilməsinə kömək edir. Mövzu üzrə ümumiləşdirmələr öyrənilən materialın sistemləşdirilməsinin, müxtəlif estetik hadisələrin və anlayışların idrakının, musiqi əsərlərinin zəngin məlumatla təqdim olunmasının, pedaqoji prosesin tədris və tərbiyə aspektlərinin əlaqələndirilməsinin mühüm vasitəsidir.

Musiqinin məzmunu duyğulu, obrazlı və rasional komponentlərdən ibarətdir və onun dərk edilməsi üçün musiqi müəllimi şagirdlərə qavrama mədəniyyətini, təxəyyülü, həssaslığı və eyni zamanda, məntiqi təhlil etmə bacarığını aşılamalıdır. Musiqi qavramanın nəticəsi kimi emosional məmnunluqla yanaşı, eyni zamanda, fəal idrak, həyəcan, bədii əsərin məzmununun estetik dəyərləndirilməsi çıxış edir. Bu prosesdə təxəyyül xüsusi əhəmiyyət kəsb edir. Musiqi təxəyyülünün əsasını obrazlı təsəvvürlər təşkil edir. Həyati təcrübə, müxtəlif fənlərə dair biliklərin sintezi, mənəvi-estetik ideallar təxəyyülün mənbəyidir. Təxəyyül insanın istənilən fəaliyyətinə xasdır. Lakin məhz musiqi qavrama və obrazlı təfəkkür prosesində o, xüsusi rol oynayır. Görkəmli alim V.M.Teplovun fikrinə görə, "musiqi təxəyyülünün spesifikliyi eşitmə yolu ilə yaranan assosiasiyalarla müəyyən edilir" (8). Təxəyyül ancaq qavramanın nəticəsi olaraq deyil, həm də fəal bədii yaradıcılıq üçün impuls kimi çıxış edir. Bu yaradıcılığın nəticələri həm musiqi əsərində, həm musiqi ifaçılığında və həm də dinləyicidə yaranan obrazlarda öz əksini tapır. V.M.Teplov qeyd edirdi: "Musiqinin qavranılması – dünyanın musiqili, emosional idrakıdır" (8).

Beləliklə, biliklərin sintezi vasitəsi ilə yaranan inteqrasiya nəticəsində musiqinin qavrama, təxəyyül və təfəkkür prosesləri vəhdətdə

fəaliyyət göstərərək uşağın musiqi qabiliyyətlərini, və nəticə etibarı ilə mədəniyyətini formalaşdıracaq.

Müasir zamanda inteqrasiya qlobal dünyanın təhsil aləmində aparıcı yer tutur. Bu səbəbdən informasiyaların genişləndiyi bir dövrdə cəmiyyətin sürətlə və dəyişkən dinamikasını izləmək və ona uyğun olaraq inkişaf etmək üçün birləşmələr, bloklar yaranmaqla ümumiləşdirmələr aparmaq ən səmərəli strategiyalardan biri kimi qəbul edilir. Müasir təhsildə inteqrasiyaya sadəcə dəbdə olan bir epitet kimi deyil, insan fəaliyyətinin bütün sferalarını xarakterizə edən, əks etdirən bir tendensiya kimi baxılmalıdır. Zənnimizcə, bunu həyata keçirmək üçün yeni inteqrativ fənn proqramlarında ciddi kurikulum çərçivələrindən bir qədər azad yanaşmalara daha çox yer verilməlidir.

Təbii ki, təcrübi musiqi yaradıcılığı daim müəyyən maddi dəstək, yəni müxtəlif musiqi alətləri, hər sinfin xüsusi texniki aparatura, internet şəbəkəsinə çıxış ilə təmin olunmasını tələb edir və bu mənada nəzəri hazırlıq tədris prosesinin təşkilatçıları üçün son dərəcə əlverişlidir. Bununla yanaşı, şübhəsiz, rahatlıq öyrənənlərin musiqi tərbiyəsi inkişafında çox əhəmiyyətli itkilərə, bəzən birbaşa əks pedaqoji nəticələrə səbəb olur. Yəni musiqiyə maraq deyil, ikrah hissi yaranır.

Ümumi kompüterləşdirmə şəraitində məktəb və hətta ev şəraitində kompüterlərin midiklaviatura ilə dəyərli musiqi proqramları ilə təchiz edilməsi, məktəbdə musiqi alətlərinin alınması və saxlanılması o qədər də böyük məbləğ tələb etmir. Bu üsulun pedaqoji səmərəsi, yəni yeni pedaqoji texnologiyaların tətbiqi ilə bağlı problemlərin həllinin üstünlüyü aydın nəzərə çarpır. Söhbət musiqi təhsilinin inkişafı üçün yeni vektorların axtarışından gedir. Bu baxımdan musiqili-kompüter texnologiyalarının təhsilə tətbiqi müasir prosesin əsas vektorlarından biri kimi çıxış edir. Müasir dövrdə ictimaiyyətin diqqət mərkəzində olan və gündəlik həyatımızın mədəni məkanını belə sürətlə zənginləşdirən ən güclü pedaqoji alət olan kompüter musiqi pedaqogikası çərçivəsində nəzərdən qaçırmaq mümkün deyil. Düzdür fortepianoda ifaçılıq bacarığı mükəmməl olan musiqi müəlliminin alətdə canlı ifası əvəzolunmazdır. Lakin məktəblilərin musiqiyə olan maraqlarının daha da formalaşmasına yardım edə bilər.

Yekun olaraq qeyd etmək istərdik ki, müasir təhsil modellərinin, konsepsiyalarının əsas ideyası sadəcə olaraq təhsil alanların yaddaşını nəzəri faktlarla yükləməyə yönəlməmişdir. Müasir məktəbin əsas məqsədi rəqabətə qabil, çevik təfəkkürə malik olan, onu əhatə edən təsirlərə tənqidi yanaşmaq bacarığı olan, sərbəst qərar qəbul edən, dəyişən şəraitə uyğunlaşan, müstəqil öz fikrini ifadə edə bilən şəxsiyyət formalaşdırmaqdır. Bu məqsədlərə çatmaq üçün, zənnimizcə, ən uğurlu yollardan biri biliklərin sintezi nəticəsində yaranan inteqrasiyanın tətbiqidir. İnteqrasiyalı dərslərin

keçirilməsi, fənlərarası əlaqələrin ən yaxşı təzahürüdür. Bu növ dərslər həm müəllimlərin, həm də şagirdlərin öncədən və əsaslı surətdə hazırlığını tələb edir. Musiqi dərslərində biliklərin sintezi vasitəsi ilə yaranan fənlərarası inteqrasiya ancaq musiqi qavrayışı mədəniyyətinin inkişafına deyil, həm də bədii fəaliyyətin fəal formalarında yaradıcılıq vəzifələrinin yerinə yetirilməsinə kömək edir.

**ƏDƏBİYYAT**

1. *Axundova G.* İnteqrativ dərslərin xüsusiyyətləri // Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, Bakı: ADPU, 2021, №1(19), s.37-43
2. *Badiyev S.* Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə. Bakı, 2008, 153 s.
3. *Mehrabov A.* Müasir təhsilin konseptual problemləri. Bakı, 2008, 516 s.
4. *Qədimova J.* Musiqinin tədrisi metodikası. Bakı: ADPU, 2007, 323 s.
5. *Багирова Т.* Синкретизм искусств в воспитании индивида и социума: монография. Баку: Элм, 2005, 265 с.
6. *Белкин Р.* И.И.Павлов и его учение. Москва: Госкультпросветиздат, 1951, 124 с.
7. *Гриценко Н.* Интегрированные уроки – одно из средств привития интереса к учебным предметам // Начальная школа, 2005, с.21-24
8. *Теплов Б.* Психология музыкальных способностей. 2-е изд., Санкт–Петербург, 2020, 488 с.

Redaksiyaya daxil olub 22.01.2025

# YAZI QAYDALARI

- “Pedaqoji Universitetin Xəbərləri” dövri elmi jurnalının “Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər” seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- “Humanitarian, social and pedagogical-psychological sciences” series of the periodic scientific journal “Transactions of Pedagogical University” accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal’s electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmışdır: 15.03.2025
Kağız formatı $70\times100^{1/16}$, 9,25 ç.v.
Sifariş 38. Sayı 100.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68